# AZƏRBAYCANIN
# TƏHSİL
# NAZİRLƏRİ



Azərbaycan xalqının həqiqi tarixi hələ yazılmayıbdır.
Gərək bizim xalqımızın əsl tarixi yazılsın.

Heydər ƏLİYEV



Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi
nailiyyətlərlə zəngindir.

İlham ƏLİYEV

Layihənin rəhbəri:
**Misir MƏRDANOV,**
*Azərbaycan Respublikasının təhsil naziri,*
*əməkdar elm xadimi, professor*

Redaktor:
Bayram Hüseynzadə,
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

Tərtib edənlər:
Bəşarət Məmmədov
Şamxəlil Məmmədov
Ədalət Daşdəmirov
Elman Əbdülov

**AZƏRBAYCANIN TƏHSİL NAZİRLƏRİ**
Azərbaycan Respublikası Təhsil Nazirliyi
«Bakınəşr», 2010. – 240 səh.

Azərbaycanda təhsil sahəsinə mərkəzləşmiş rəhbərliyi həyata keçirən ilk dövlət qurumu ötən əsrin əvvəllərində, Azərbaycan Demokratik Respublikası dövründə yaradılıb. Kitabda, həmin dövrdən indiyədək Azərbaycanın təhsil sisteminə rəhbərlik etmiş şəxslər və onların fəaliyyəti haqqında məlumatlar əksini tapıb. Bu sahədə ilk təşəbbüs olan toplu təhsil işçiləri və geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

**ISBN 978-9952-8145-0-7**

© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2010
© «Bakınəşr», «TMGroup» (bədii tərtibat və illüstrasiya), 2010

Bədii redaktor: T.Məlikov
Korrektor: N.Seyidəliyev
Rəssam: M.Hüseynov
Kompyuter tərtibatçısı: C.Əzizov

Çapa imzalanıb 10.12.2010. Formatı 60×90 1/8 . Ofset capı. Fiziki ç.v. 30. Tiraj 1000

«Bakı» nəşriyyatı, «TMGroup» — 2010
H.Seyidbəyli küç., 30/16
www.bakineshr.az

«Şərq-Qərb» Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur.
AZ1123 Bakı, Aşıq Ələsgər küç., 17.
www.eastwest.az

# AZƏRBAYCANIN TƏHSİL NAZİRLƏRİ



Nəsib bəy Yusif bəy oğlu
Yusifbəyli
*1918–1919-cu illərdə xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb*



Rəşid xan Zavid oğlu
Qaplanov
*1919-cu ildə xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb*



Həmid bəy Xəlil oğlu
Şahtaxtinski
*1919–1920-ci illərdə xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb*



Ruhulla Əli oğlu
Axundov
*1927–1930-cu illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Maqsud Məmməd oğlu
Məmmədov
*1930–1931-ci illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Ağa İsmayıl oğlu
Sultanov
*1931–1933-cü illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Məmmədsadıq
Əhməd oğlu Əfəndiyev
*1937-ci ildə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Mirzə Rəhim oğlu
Məmmədov
*1938–1942 və 1954–1959-cu illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Mirzə Əjdər oğlu
İbrahimov
*1942–1946-cı illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Nurməhəmməd bəy
Ədilxan oğlu Şahsuvarov
*1920-ci ildə xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb*



Dadaş Xoca oğlu
Bünyadzadə
*1920–1922-ci illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Mustafa Zəkəriyyə oğlu
Quliyev
*1922–1927-ci illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Mahmud Səfər oğlu
Ağayev
*1934-cü ildə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Məmməd İsmayıl oğlu
Cuvarlinski (Cuvarlı)
*1934–1935-ci illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Müseyib Əli oğlu
Şahbazov
*1935–1936-cı illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Məmməd Həmid oğlu
Ələkbərov (Ələkbərli)
*1946–1952-ci illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb*



Mehdi Məmməd oğlu
Mehdizadə
*1952–1954-cü illərdə xalq maarifi komissarı və 1961–1980-ci illərdə xalq maarifi naziri vəzifəsində çalışıb*



Rəhim Kərəm oğlu
Rəhimov
*1959–1961-ci illərdə xalq maarifi naziri vəzifəsində çalışıb*



Elmira Mikayıl qızı
Qafarova
*1980–1983-cü illərdə xalq maarifi naziri vəzifəsində çalışıb*



Kamran Nəbi oğlu
Rəhimov
*1983–1988-ci illərdə xalq maarifi naziri vəzifəsində çalışıb*



Tofiq İsmayıl oğlu
Hacıyev
*1993-cü ildə xalq maarifi naziri vəzifəsində çalışıb*



Heydər İsa oğlu
İsayev
*1983–1988-ci illərdə Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb*



Şirəli Nəsir oğlu
Məmmədov (Nəsirzadə)
*1959–1961-ci illərdə Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb*



Abdulla İsmayıl oğlu
Qarayev
*1961–1963-cü illərdə Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb*



Ağalar Nəriman oğlu
Abbasbəyli
*1987–1988-ci illərdə ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb*



Müslüm Rəcəb oğlu
Məmmədov
*1988-ci ildə xalq təhsili naziri vəzifəsində çalışıb*



Rafiq Babaş oğlu
Feyzullayev
*1989–1992-ci illərdə xalq təhsili naziri vəzifəsində çalışıb*



Əkbər Əsgər oğlu
Ənnağıyev
*1954–1959-cu illərdə Əmək Ehtiyatları Baş İdarəsinin rəisi, 1959-1961-ci illərdə Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb*



Musa İsgəndər oğlu
Ağayev
*1961–1964-cü illərdə Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb*



Tofiq Əliheydər oğlu
Allahverdiyev
*1966–1982-ci illərdə Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb*



Züleyxa İsmayıl qızı
Hüseynova
*1963–1965-ci illərdə Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri və 1965–1970-ci illərdə ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb*



Danil Piri oğlu
Quliyev
*1970–1971-ci illərdə ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb*



Qurban Həsən oğlu
Əliyev
*1971–1987-ci illərdə ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb*



Firidun Ağası oğlu
Cəlilov
*1992–1993-cü illərdə xalq təhsili naziri vəzifəsində çalışıb*



Lidiya Xudat qızı
Rəsulova
*1993–1997-ci illərdə təhsil naziri vəzifəsində çalışıb*



Misir Cumayıl oğlu
Mərdanov
*1998-ci ildən təhsil naziri vəzifəsində çalışır*

# ÖN SÖZ

Zəngin təbii sərvətləri və əlverişli coğrafi mövqeyi olan, hələ qədim zamanlardan Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycan üstün iqtisadi, mədəni və siyasi əlaqələr məkanı kimi tanınıb. Müxtəlif zamanlarda Azərbaycanda olmuş əcnəbi səyyahların öz gündəliklərində təsvir və təsdiq etdikləri kimi, azərbaycanlıların qədimdən yaşadıqları bu yerlər güclü iqtisadi-ticarət münasibətlərinin, dövlətçilik ənənələrinin erkən təşəkkül tapdığı ərazilərdəndir.

Tarixi mənbələrdən məlumdur ki, Azərbaycan ərazisində şəhərsalma mədəniyyəti hələ eramızın əvvəllərindən formalaşıb. Qədim və abad, incə memarlığı ilə seçilən şəhərlərdə kitabxanalar, çoxsaylı məscidlər, bazar və dükanlar, əczaxanalar, milli oyunların keçirildiyi meydan və zorxanalar fəaliyyət göstərib.

Xalqımızın müdrikliyi, elmə, yaradıcılığa sonsuz marağı və hər bir məsələyə haqq-ədalət prizmasından yanaşması, milli xüsusiyyətlərimizin təcəssümü olan şifahi xalq ədəbiyyatımızın nümunələrində də aydın şəkildə əksini tapıb. Dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olan, ulu əcdadlarımızdan bizə yadigar qalmış «Kitabi – Dədə Qorqud» dastanı 1300 il ərzində xalqımızın mənəvi qidası olub, milli ruhun yaşamasına, millətimizin mübarizə aparmasına, öz milli mənliyini hifz etməsinə daim yardım göstərib.

Təqdirəlayiq haldır ki, bütövlükdə qədim maarif və təhsil ölkəsi olan Azərbaycanda hər bir şəhər və kənddə dini dəyərlərin təbliğ edildiyi məscidlərin yanında, yaxud da ayrılıqda mədrəsələr, mollaxanalar fəaliyyət göstərib, uşaqlar dini təhsillə yanaşı, oxuyub-yazmağı, dünyəvi elmləri də öyrəniblər.

Hələ Nizami Gəncəvinin yaşadığı dövrdə mədrəsələrdə, qədim üslublu məktəblərdə 24 fənni əhatə edib «ədəbi kompleks» adlandırılan elmlərin əsasları öyrədilib. Klassiklərin bədii əsərlərindəki təbiət, fəlsəfə, tarix, astronomiya və digər elmlərə dair məlumatlar – obrazlı informasiyalar, məhz həmin dövrdə verilən təhsilin nəticələridir.

Azərbaycanda elmin, təhsilin inkişafına daim xüsusi önəm verilsə də, respublikamızda təhsil sahəsinə mərkəzləşmiş rəhbərliyi həyata keçirən ilk dövlət qurumu ötən əsrin əvvəllərində, Azərbaycan Demokratik Cümhuriyyəti dövründə yaradılıb.

XX əsrin əvvəllərində parçalanan Rusiya imperiyasının ucqarlarından olan Zaqafqaziyada Zaqafqaziya hökuməti – Zaqafqaziya Komissarlığı (1917-ci ilin noyabrından 1918-ci ilin martınadək) fəaliyyətə başlayıb. Sonra isə Qafqazda yeni bir dövlət orqanı olan Zaqafqaziya Seymi (23.02.1918 – 26.05.1918) yaradılıb. 1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Rusiyadan asılı olmayan Azərbaycan, Gürcüstan və Ermənistanı birləşdirən Zaqafqaziya Demokratik Federativ Respublikasının əsasını qoyub. Zaqafqaziya Demokratik Federativ Respublikası dərhal ayrı-ayrı nazirliklər, o cümlədən də Maarif Nazirliyi təsis edib. Müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının maarif naziri Nəsib bəy Yusifbəyli olub.

Müvəqqəti Zaqafqaziya hökuməti dağıldıqdan sonra elan edilən Azərbaycan Demokratik Respublikasının fəaliyyətində mühüm istiqamətlər ölkənin ərazi bütövlüyünü qorumaq, yeni əsasda, tarixi dəyərlər zəminində xalq maarifini qurmaqdan və digər mühüm məsələlərdən ibarət idi.

Azərbaycan Demokratik Respublikası (ADR) hökumətinin 1918-ci il 30 iyul tarixli qərarı ilə respublikada xalq maarifini, təhsil sistemini qaydaya salmaq, milli ali, orta və ibtidai məktəb şəbəkəsi yaratmaq, mövcud məktəbləri milliləşdirmək məsələlərini həll edəcək qurum kimi Xalq Maarifi və Dini Etiqad Nazirliyi (kitabda əsasən maarif məsələləri şərh olunduğu üçün ADR dövründə Xalq Maarifi Nazirliyi işlədilir) yaradılıb və Nəsib bəy Yusifbəyli nazir təyin edilib.

Həmin il avqust ayının 2-də təsdiqlənmiş Əsasnaməyə görə nazirliyin strukturuna nazir, nazir şurası, nazir müavini, şöbə müdirləri, dəftərxana müdiri, elm nümayəndələri daxil idilər. Nazir şurası aşağıdakı məsələlərə baxırdı:

- qanunverici orqana təqdim olunacaq qanun layihələrinin hazırlanması;
- respublikada tədris-maarif işini və elmin inkişafını təmin edə biləcək tədbirlərin təşkili;
- nazirliyin bütün müəssisələrinin illik pul smetasının tərtibi;
- nazirliyin bütün idarə və tədris müəssisələrinin illik hesabatlarına baxılması;
- nazirin şuranın müzakirəsinə təqdim etdiyi digər işlər və məsələlər.

Məktəbləri idarə edən ali və orta məktəblər, xalq məktəbləri və peşə məktəbləri şöbələrinin hər birinə müdir rəhbərlik edirdi ki, onların da vəzifələrinə aşağıdakılar daxil idi:

- məktəblərin inzibati və pedaqoji təftişi;
- məktəblərin yenidən təşkili, yeni məktəblərin açılması, köhnə məktəblərin ləğvi haqqında planların və smetaların işlənib hazırlanması;
- işə qəbul və azad olunanların nazirə təqdimi.

**Xalq Maarifi və Dini Etiqad Nazirliyinin strukturu (1918)**




Çağdaş milli dövlətçiliyimizin «qızıl dövrü» sayılan Azərbaycan Demokratik Respublikasını araşdıran Qərb və Azərbaycan tarixçiləri tərəfindən Cümhuriyyət hökuməti «maarifçi hökumət», «ziyalıların hökuməti», «ziyalıların əsəri» kimi dəyərləndirilir. Əlbəttə, bütün bunlar səbəbsiz deyil. Tarixi həqiqət belədir ki, milli hökumət tərəfindən dövlət quruculuğu sahəsində əsas diqqət, başlıca prioritet milli dövlətin təməli olan maarifə, təhsilə, elmə yönəldilmişdi. Azərbaycan təhsili, maarifi, elm və mədəniyyəti klassik Şərq və çağdaş Qərb sivilizasiyalarının ahəngdar sintezi əsasında qurulmuşdu, çünki bu prosesi idarə edənlər – Cümhuriyyətin qurucuları yüksək intellektli, əsası Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan maarifçilik hərəkatının

nümayəndələri, milli istiqlal mücahidləri, ali təhsilli, yüksəkixtisaslı maarif, elm və mədəniyyət xadimləri, əsl xalq ziyalıları idilər. Onlar üçün çağdaş milli təhsil, maarif və mədəniyyətin qurulması dövlətin əsas atributlarından, təməl prinsiplərindən biri idi.

Azərbaycan Demokratik Respublikası dövründə dünyəvi təhsilə inteqrasiya sahəsində ilkin uğurlu addımlar atılıb, ilk ali məktəbin əsası qoyulub, dövlət səviyyəsində azərbaycanlı gənclərin xaricdə ali təhsil almaları üçün imkanlar yaradılıb.

1918-ci il iyulun 27-də Azərbaycan hökuməti məktəblərin milliləşdirilməsi haqqında qərar verdi. Bununla azərbaycanlıların doğma dildə təhsil almaq, öz dilini, ədəbiyyatını, tarixini və mədəniyyətini öyrənmək hüququ ilk dəfə rəsmi təsdiqini tapdı. Milliləşdirilən məktəblərdə Azərbaycan dilində təhsil almaq icbari idi. Qeyri-Azərbaycan məktəblərində Azərbaycan dilinin dövlət dili səviyyəsində keçilməsi üçün külli miqdarda vəsait ayrıldı.

Milli hökumətin təhsil, maarif sahəsində yürütdüyü siyasətin əsas qayəsini Cümhuriyyətin ilk maarif naziri Nəsib bəy Yusifbəyli çox dəqiq şəkildə bu cür ifadə edib: «İstiqlalımız, istiqbalımız həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah və nicat ümidi qalmaz...».

Təhsil, maarif, mədəniyyət sahəsində məhz bu müqəddəs amalları həyata keçirən Azərbaycan Demokratik Respublikası mövcud olduğu qısa müddətdə milli tariximizə ilk çağdaş ali təhsil və elm ocağı təsis edən, ilk milli hərbi təhsil müəssisələri yaradan, ümumi icbari ibtidai təhsilə keçid prosesinə başlayan, çoxsaylı müəllim seminariyaları və pedaqoji kurslar açan, məhz Maarif Nazirliyinin vəsatəti əsasında Azərbaycan türkcəsini ilk dəfə dövlət dili elan edən və dövlət dilini ölkədə fəaliyyət göstərən bütün təhsil müəssisələrinin əsas tədris dilinə çevirən, təhsil tariximizdə ilk olaraq təhsil müəssisələrinin milliləşdirilməsini və böyük maarifçilərin arzuladıqları anadilli məktəb şəbəkəsi yaratmaq ideyasını gerçəkləşdirən, dövlət himayəsində ilk məktəbəqədər tərbiyə və kimsəsiz uşaqlar üçün xüsusi təhsil müəssisələri təşkil edən, dövlət səviyyəsində azərbaycanlı gənclərin xaricdə ali təhsilinin təməlini qoyan, əlifba islahatı ilə Avropa mədəniyyətinə yaxınlaşmaq yolunda ilk addım atan demokratik, hüquqi, dünyəvi, sivil, çağdaş bir dövlət kimi daxil oldu.

Azərbaycan Demokratik Respublikasını yaradanlar xalqın maariflənməsi yoluna həqiqi mənada işıq tutub, maarifə, təhsilə, elmə və mədəniyyətə üstünlük veriblər. Bu tarixi şansdan millətin, dövlətin mənafeyi naminə səmərəli istifadə edən Cümhuriyyət hökuməti sonrakı nəsillər üçün elə bir təməl, elə bir əsas qoydu ki, bütövlükdə XX əsrdə Azərbaycan təhsili, maarifi, elmi və mədəniyyəti bu təməl üzərində formalaşıb inkişaf etdi.

Həmin dövrdə xalq təhsili müfəttişlikləri, demək olar ki, bütün qəzalardan və kəndlərdən məktəb açılması ilə bağlı ərizə alırdılar. Təhsil xərclərini də əhali öz üzərinə götürürdü. Məsələn, Bakı quberniyasının Siyəzən, Böyük Xızı, Keşlə, Hökməli, Əmircan, Digah kəndlərinin sakinləri məktəb açılması haqqında hökumətə dönə-dönə müraciət edirdilər.

Azərbaycan Demokratik Respublikasının birinci tədris ili 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakını azad etməsindən bir ay sonra başlayıb. İlk vaxtlar tədris üçün şərait ağır idi. Müəllim və şagirdlərin bir hissəsi 1918-ci ilin mart hadisələri zamanı erməni-daşnak qüvvələri tərəfindən öldürülmüş, bir çoxları yaşayış yerlərini tərk etmişdilər. Məktəb komissiyasının dərslərin başlanmasına dair qərarına əsasən oktyabrın 20–dək məktəbə qayıtmayan müəllimlər işdən azad olunmuş sayılırdılar.

Məktəb binalarının bir çoxu dağıdılmışdı. Bakıdakı məktəblərin çoxunda vaxtilə ya ingilis, ya da daşnak silahlı qüvvələri yerləşdirildiyindən binalara xeyli ziyan dəymişdi. Bir sıra məktəblərdə isə daşnak bandalarından qurtulan Naxçıvan və Zəngəzur qaçqınları yaşayırdılar. Məktəblərin təmiri üçün məktəb komissiyasından vəsait ayrıldı və bu pul ilə xeyli məktəb təmir olundu.

Hökumətin səyi nəticəsində təlim və tədris işləri qaydaya salındı. 1919-cu ilin martında Bakıda, şəhər məktəblərində oxuyanların sayı 6400 nəfərə, həmin ilin noyabrında isə 9100 nəfərə çatdı. Şagirdlərin dərsə davamiyyəti xeyli yaxşılaşmışdı. Bu, ölkədə vəziyyətin sabitləşməsi və dərslərin normal keçməsi sayəsində mümkün olmuşdu.

Ölkənin ali təhsilli və yüksəkixtisaslı kadrlara olan ehtiyacını yerli mütəxəssislər hesabına təmin etmək məqsədilə Azərbaycan Demokratik Respublikası Parlamentinin 1919-cu il 1 sentyabr tarixli iclasında Bakıda universitet yaradılması haqqında qərar qəbul olundu. Bakı Dövlət Universitetinin nizamnaməsi təsdiq edildi və ilk tədris ilində 2 fakültədə (tarix-filologiya və tibb fakültələri) 1094 tələbə təhsil almağa başladı. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah Vasili İvanovic Razumovski təyin edildi.

ADR dövründə digər sahələrlə yanaşı, təhsil sferasında da çox dəyərli işlər görülüb. Ümumiyyətlə, Məmməd Əmin Rəsulzadənin təbirincə desək, Azərbaycan Demokratik Respublikasında «maarifin təşkilatına bir təzəlik verilmiş, məmləkəti ürfan nuru ilə işıqlandırmaq üçün ciddiyyəti ilə işə başlanmışdır».

Ümumi təhsilin tətbiqi əsas tutularaq bir tərəfdən məktəblər açılır, digər tərəfdən yeni yaradılmış kişilər və qızlar seminariyaları vasitəsilə müəllimlər hazırlanırdı. İbtidai məktəblər şəbəkəsini genişləndirmək üçün xüsusi olaraq İstanbuldan müəllimlər dəvət edilmişdi.

Bundan başqa, qəza mərkəzlərində müəllimlər kursları açılır, qadınların təhsili kişilərlə bərabər tutulurdu. Mövcud rus gimnaziyalarından biri tamamilə milliləşdirilmiş, bir çox ibtidai qız məktəbləri açılmış, qızların təhsilə cəlb olunması sahəsində ciddi dönüş yaranmışdı. Məktəb yaşından böyük vətəndaşlar üçün gecə kursları açılmış və dərslər təşkil edilmişdi.

Azərbaycan Demokratik Respublikası hökumətinin maarif, təhsil sahəsində apardığı siyasətin və həyata keçirdiyi islahatların əsasında ölkənin intellektual potensialının artırılması, əhali arasında savadsızlığın ləğv edilməsi, təhsil sisteminin milliləşdirilməsi, tədrisin ana dilində aparılması yolu ilə xalqın milli dirçəlişinin, milli mənlik şüurunun oyanışının təmin edilməsi kimi pak amallar, ümummilli məqsədlər dururdu. Bütün bunlar mahiyyətcə ölkənin dövlət müstəqilliyinin möhkəmlənməsinə, Azərbaycan xalqının azad və müstəqil yaşamağa layiq sivil bir millət olduğunu sübut etməyə, Azərbaycanın müstəqil dövlət kimi dünyada tanınmasına imkan verirdi.

Təhsilə, maarifə belə ciddi münasibətin nəticəsi idi ki, Azərbaycan Demokratik Respublikasının hələ Tiflisdə yaranan ilk müvəqqəti Hökumət Kabinetinin (28.05.1918–17.06.1918) tərkibindəki 9 nazirlikdən biri, Xalq Maarifi Nazirliyi idi. Azərbaycan hökumətinin ilk kabinetində Maliyyə və Xalq Maarifi Nazirliyi adı ilə fəaliyyətə başlayan bu nazirlik, sonrakı dörd Hökumət Kabinetində Xalq Maarifi və Dini Etiqad Nazirliyi adlandırılıb. Azərbaycan Demokratik Respublikasının 1, 2, 3-cü hökumət kabinetlərində (28.05.1918–14.04.1919) Nəsib bəy Yusifbəyli, 4-cü Hökumət Kabinetində (14.04.1919–24.12.1919) Rəşid xan Qaplanov, 5-ci Hökumət Kabinetində isə (24.12.1919–01.04.1920) Həmid bəy Şahtaxtinski xalq maarifi naziri olub. Həmid bəy Şahtaxtinskinin istefasından sonra qısa müddətdə (05.04.1920–27.04.1920) nazir müavini Nurməhəmməd bəy Şahsuvarov xalq maarifi naziri vəzifəsini icra edib.

Azərbaycanın təhsil tarixinə şanlı səhifələr yazmış bu görkəmli siyasi, dövlət və maarif xadimlərinin ömür yolu 1920-ci ilin 28 aprel çevrilişindən sonra faciələrlə müşayiət olunub, onlar sovet «qırmızı terror»unun təqiblərinə məruz qalıblar. Rus imperializminin yürütdüyü məkrli siyasət yenidən xalqımızın azadlıq və istiqlal yoluna sədd çəkdi, Şərqdə ilk demokratik respublika olan ADR süqut etdi.

Lakin milli azadlığın dadını duyub müqəddəs bayrağını yüksəklərə qaldırmış xalq, qəlbinin dərinliklərində istiqlalının həsrətini yaşadaraq başladığı islahatları yeni siyasi durumda da həyata keçirməyə özündə birlik, zəka, qüvvət və qüdrət tapdı, bu yolda dəhşətli repressiyalara məruz qalsa da, geri çəkilmədi.

Azərbaycanda qurulan yeni hökumət – Xalq Komissarları Soveti bütün qurumların, o cümlədən də Azərbaycan Xalq Maarifi və Dini Etiqad Nazirliyinin adını dəyişdi: ərəb mənşəli nazir sözünü (mənası nəzarət edən, baxan, idarə edən deməkdir – ***M.M.***) fransız mənşəli komissar (mənası səlahiyyətli şəxs kimi izah olunur – ***M.M.***) sözü əvəz etdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra respublikamızda xalq maarifi sistemi sosializmin yeni prinsip və ideologiyası əsasında təşkil edilməyə başlandı. Bu işdə sovet Rusiyasının

ümumi təhsil modeli əsas götürüldü. Dinə qarşı mübarizə adı altında minillik ənənəsi olan klassik müsəlman təhsil müəssisələri – məktəb və mədrəsələr tamamilə ləğv olundu.

Bütün bunlar, SSRİ-nin türkdilli respublikalarda, o cümlədən də Azərbaycanda həyata keçirdiyi imperiya siyasətinin tərkib hissəsi, xalqı uzun illər ərzində formalaşmış islami, milli-mənəvi dəyərlərdən uzaqlaşdırmağa yönəlmiş məkrli strategiyanın təzahürü və soyqırıma bərabər olan repressiya prosesinə hazırlıq mərhələsi idi.

Yeri gəlmişkən qeyd edim ki, Azərbaycanın inkişafına sarsıdıcı zərbə vuran repressiya illərində əsasən ziyalıların hədəfə alınması, əslində aparılan «islahatlara» etiraz edə biləcək qüvvələrin aradan qaldırılmasına xidmət edirdi. İmperiya siyasətini cəmiyyətə mütərəqqi inqilab kimi təqdim edən ideoloqların səyi nəticəsində nəinki yerli ziyalılar, eləcə də Türkiyədən 1918-ci ildə dəvət olunmuş pedaqoqlar (Xəlil Fikrət, Əhməd Cövdət və başqaları) pantürkist, panislamist kimi damğalandılar. Milli pedaqoqların ən yaxşıları cismən məhv edildi. Azərbaycan xalqının milli təfəkkürünün öncülləri olan yüzlərcə ziyalı bu amansız terrordan qurtula bilmədi. Azərbaycanda xalq əleyhinə, xüsusilə ziyalılara qarşı cəza tədbirləri 1937–1938-ci illərdə ən qabaqcıl ziyalıların həyatını, sözün həqiqi mənasında, cəhənnəmə çevirdi. Səlahiyyət sahibi olan erməni əsilli məmurların: Sumbatovun, Borşovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Ovanesyanın, onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əli ilə təxminən 70–80 min ziyalı – alim, müəllim, hərbiçi, yazıçı, sənət adamı, din xadimi, sovet və partiya işçisi məhv edildi.

Mən həmin dövrə aid materiallarla yaxından tanış olarkən diqqətimi bir fakt daha çox cəlb elədi: Dadaş Bünyadzadə, Mustafa Quliyev, Ruhulla Axundov, Maqsud Məmmədov, Ayna Sultanova, Məmməd Cuvarlinski, Müseyib Şahbazov… Bu şəxslər Azərbaycanın xalq maarifinə və təhsil sisteminə rəhbərlik etmiş insanlardır. Onların hamısı «xalq düşməni» kimi mühakimə edilib, repressiyaya məruz qalıblar. Yalnız maarif nazirləri deyil, ali məktəb rəhbərləri, məktəb direktorları, tanınmış pedaqoqlar da bu acı taleyi yaşayıblar. Fikrimcə, xalqın həyatında bundan daha ağır və məşəqqətli günlər ola bilməz!

Bununla belə, bolşeviklər insanların üzünün onlardan tamam dönəcəyindən ehtiyat edib, bir sıra güzəştlərə getməyə də məcbur olurdular. Belə ki, Azərbaycan dili məktəblərdə əsas təlim dili kimi təsdiq olundu. Bu illərdə təhsilin məzmunu dəfələrlə ciddi dəyişikliyə məruz qalsa da, tədris plan və proqramları təkmilləşdirilirdi. Əlifba islahatı istiqamətində Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış işlər yenidən canlandı. İlk sovet dərslikləri meydana gəldi. Həmin illərdə əhali arasında savadsızlığı ləğv etmək maarifin təməl prinsiplərindən biri sayılırdı. Odur ki, I və II dərəcəli məktəblərlə yanaşı, kəndli-gənclər məktəbləri də təşkil olunmuşdu.

Çox təəssüf ki, sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan ötən əsrin 30-cu illərində məktəblə bağlı qəbul edilmiş qərarlar, sinfi mübarizənin gücləndirilməsi haqqında Stalin ideyası təhsildə demokratik ənənələrin inkişafını ləngitməklə, yeni arzuolunmaz istiqamət formalaşdırdı. Milli dəyərlər 20-ci illərdə olduğundan daha sərt şəkildə arxa plana keçirildi, saxta beynəlmiləlçilik aparıcı amilə çevrildi, təhsilin məzmunu tamamilə sovet ideologiyasının prinsiplərinə tabe etdirildi. Məktəb haqqında 30-cu illərdə qəbul edilən qərarlar təkcə siyasi sənəd deyil, həm də pedaqoji prosesə partiyalı rəhbərliyi təmin edən metodoloji proqram idi.

Azərbaycan K(b)P MK və Azərbaycan Xalq Maarifi Komissarlığı (XMK) 1933-cü il mayın 20-də «Proqramlar və dərs kitablarının ümumiləşdirilməsi haqqında» qərar qəbul etdi. Bu qərara əsasən, respublika məktəblərinin riyaziyyat, fizika, kimya, təbiət, tarix, ictimaiyyat, coğrafiya, əmək və rəsmxət üzrə proqram və dərs kitabları RSFSR Xalq Maarifi Komissarlığı tərəfindən hazırlanan proqram və stabil dərs kitabları ilə eyniləşdirildi. Təlim rus dilində olan məktəblərdə azərbaycanlı uşaqlara Azərbaycan ədəbiyyatı əvəzinə rus ədəbiyyatı tədris edilməyə başlandı. Şagirdlər milli-mənəvi dəyərlərdən tamamilə xəbərsiz qaldılar.

Təsadüfi deyil ki, vaxtilə görkəmli rus pedaqoqu Pavel Petroviç Blonski yazırdı: «Bizim nəsillər pedaqoji fikir tariximizi öyrənərkən görəcəklər ki, Odessadan tutmuş Vladivostokadək uşaqlar

eyni dərsliklə oxuyurlar və bizə güləcəklər ki, biz eyni ümumittifaq tədris proqramları ilə dərs keçirik. Amma bu işdə hər bir şəhərin, kəndin, rayonun xüsusiyyətlərini nəzərə almaq elə gözəl, rəngarəng proqramların, forma və metodların meydana gəlməsinə səbəb olar ki, bunu heç yuxumuzda da görmərik».

Azərbaycanda kəndlərdən gələn uşaqlar üçün internattipli yataqxanaları olan təhsil müəssisələrinin yaradılmasına Xalq Maarifi Komissarlığının 1926-cı il 6 yanvar tarixli qərarı ilə başlanılıb. «Kəndli-gənclər məktəbləri haqqında» əsasnaməyə görə belə məktəblərin nəzdində ailə şəraiti təhsil almağa imkan verməyən uşaqlar üçün internattipli yataqxanaların təşkil edilməsi nəzərdə tutulmuşdu.

Keçən yüzilliyin 20-ci illərində latın qrafikalı əlifbaya keçmək istiqamətində Azərbaycanda diqqətəlayiq işlər görülürdü. Ona görə də, 1926-cı ilin 26 fevral–6 mart tarixlərində Bakıda çağırılmış I Beynəlxalq Türkoloji qurultayda sovet respublikalarında və vilayətlərində yaşayan bütün türk xalqlarına Azərbaycanın təcrübəsini öyrənib təbliğ etmək tövsiyə edildi. Yeni türk əlifbasına keçmək üçün İttifaq miqyasında böyük işlər görüldü.

1929-cu il fevralın 1-də Azərbaycanda yeni əlifbanın tam tətbiq olunması rəsmən elan edildi. Latın qrafikalı əlifba ilə dərsliklərin hazırlanması və nəşri reallaşdı.

Düşünmək olar ki, əgər bu işlər o zamandan indiyədək belə davam etsəydi, türk dünyası daha çox uğurlar qazana bilərdi. Amma sovet imperiyası buna imkan vermədi. Birdən-birə onillik dövrün gərgin zəhmətinin üstündən çox asanlıqla qələm çəkildi – 1939-cu il iyulun 11-də Azərbaycanda latın əlifbasının dəyişdirilməsi barədə qərar qəbul edildi. Heç bir hazırlıq işi aparılmadan, 1940-cı il yanvarın 1-dən bütün təhsil müəssisələrində kiril (rus) qrafikalı Azərbaycan əlifbasının tətbiqinə başlandı. Xalqı soykökündən təcrid etmək üçün atılan bu addım SSRİ-nin Azərbaycanda apardığı açıq imperiya siyasətinin tərkib hissəsi idi.

Bütün bunlara baxmayaraq, XX əsrin 50-ci illərinin ortalarında Azərbaycan dilinə dövlət dili statusunun verilməsi istiqamətində atılan addımlar siyasi proseslərin əsas hadisəsinə çevrilmişdi. Bu sahədə Azərbaycan ziyalılarının, xüsusilə görkəmli yazıçı və dövlət xadimi Mirzə İbrahimovun fəaliyyəti mədəniyyət tariximizdə, o cümlədən təhsil salnaməmizdə işıqlı bir iz qoydu.

Stalin rejimi başa çatdıqdan sonrakı illər keçmiş SSRİ-nin həyatında «mülayimləşmə» dövrü kimi səciyyələnir. Bu dövrdə Azərbaycan təhsilində nəzərəçarpacaq yeniliklər baş verdi. Stalin şəxsiyyətinə pərəstişin tənqidi, siyasi və mədəni həyatda demokratik normaların bərpası (30–40-cı illərə nisbətən), sosialist cəmiyyətinin potensial imkanlarına inamın stimullaşdırılması, pedaqoji işə yaradıcı proses kimi baxılması, müəllim əməyinin partiya və hökumət tərəfindən yüksək qiymətləndirilməsi, məktəblə bağlı qəbul edilən yeni demokratik məzmunlu qərar və sərəncamların həyata keçirilməsi Azərbaycanda təhsilin inkişafında yeni istiqamətləri müəyyənləşdirdi. Təhsilin məzmununun yeniləşdirilməsi baxımından əhəmiyyətli addımlar atıldı, tədris proqramları, dərsliklər məzmun və forma etibarilə yeniləşdirildi, məktəbdə təlim-tərbiyənin səviyyəsi nəzərəçarpacaq dərəcədə yüksəldi.

Ötən əsrin 50-ci illərindən etibarən ümumtəhsil internat məktəblərinin təşkilinə başlanıldı. Fizika-riyaziyyat, kimya-biologiya, Seyid Cəfər Pişəvəri adına fars dili, Səttar Bəhlulzadə adına ərəb dili, Anton Semyonoviç Makarenko adına humanitar fənlər, idman və Süleyman Rüstəm adına fars dili, incəsənət təmayüllü internat məktəblərin yaranması həmin dövrə təsadüf edir.

Qeyd etmək lazımdır ki, sovet hakimiyyəti illərində Azərbaycanda yetim və valideyn himayəsindən məhrum olmuş və sağlamlıq imkanları məhdud olan uşaqlar tam dövlət nəzarətində olub. Onların yaşaması, təhsil və tərbiyə alması üçün uşaq evləri, internat məktəblər və xüsusi məktəblər təşkil edilib.

1969-cu ildən etibarən Azərbaycan tarixində, eləcə də təhsil tarixində Heydər Əliyev erası başlanır. Məhz onun rəhbərliyi dövründə respublikada geniş məktəb quruculuğu işləri aparılıb. 1970–1980-ci illərdə 683,1 min şagird yeri olan 1191 ümumtəhsil məktəb binası tikilərək istifadəyə verilib ki, bu da 1946–1970-ci illərdəki göstəricilərdən (520 məktəb) iki dəfə çoxdur.

Ötən əsrin 70-ci illərinin sonunda gündüz ümumtəhsil məktəblərində təhsil alanların sayı bir milyon dörd yüz otuz altı min doxsan altı nəfərə çatdı. Bu illərdə təhsil sahəsində baş verən bütün dəyişikliklər, qəbul edilən qanun, qərar və qətnamələr Azərbaycan müəllimlərinin qurultaylarında müzakirə olunurdu.

Həmin dövrdə Azərbaycan rəhbərliyinin təhsilə qayğısı təkcə respublikamızın hüdudları ilə məhdudlaşmayıb, Ermənistan və Gürcüstanda yaşayan azərbaycanlıların ümumi təhsil sahəsində qazandığı uğurlar və nailiyyətlər də az olmayıb. Bu qədim Azərbaycan torpaqlarında mövcud olan geniş məktəb şəbəkəsi inkişaf etdirilib, dilimizin unudulmaması, ziyalılar nəslinin bir-birini əvəz etməsi üçün əhəmiyyətli tədbirlər həyata keçirilib.

1988-ci ildə sovet ordusunun köməyi ilə Ermənistandakı azərbaycanlılar son nəfərinə kimi ata-baba torpaqlarından qovuldu. 200 mindən artıq soydaşımız mənəvi repressiyanın, etnik təmizləmə siyasətinin qurbanı oldu. 48681 şagird, onların təlim-tərbiyəsi ilə məşğul olan 3992 müəllim elini, obasını tərk etdi. 192 Azərbaycan məktəbi bağlandı. Həmin məktəblərin, eləcə də 300-dən çox kəndin kitabxanası dağıdıldı, 100 minlərlə kitab yandırıldı, xalqın min illərlə qoruyub saxladığı maddi və mənəvi abidələr yerlə-yeksan edildi.

Ötən əsrin 80-ci illərinin axırlarında Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında baş verən hadisələr əhalinin mənəvi-psixoloji durumunda ciddi narahatlıqlar yaratdı. Dmanisi, Bolnisi şəhərlərindən azərbaycanlıların əksər hissəsi çıxarıldı. Həmin rayon mərkəzlərindəki Azərbaycan məktəbləri bağlandı. Qeyri-sabit ictimai-siyasi vəziyyət nəticəsində Gürcüstandakı Azərbaycan məktəblərinin şagird kontingenti və həmin təhsil ocaqlarında çalışan müəllimlərin sayı kəskin şəkildə azaldı. Ötən əsrin 90-cı illərinin əvvəlində Gürcüstanda 72 orta, 55 natamam orta, 37 ibtidai məktəbdə 36771 azərbaycanlı şagird təhsil alırdı. Dağıstandakı Azərbaycan məktəbləri isə hələ keçən əsrin 30-cu illərində bağlanmışdı.

Azərbaycan SSRİ-nin tərkibində olduğu 70 il ərzində ümumi orta təhsil sahəsində nailiyyətlərin qazanılmasında müxtəlif dövrlərdə təhsil sahəsinə rəhbərlik etmiş Dadaş Bünyadzadə, Mustafa Quliyev, Ruhulla Axundov, Maqsud Məmmədov, Ağa Sultanov, Məmməd Cuvarlinski, Müseyib Şahbazov, Məmmədsadıq Əfəndiyev, Mirzə Məmmədov, Mirzə İbrahimov, Məmməd Ələkbərov, Rəhim Rəhimov, Mehdi Mehdizadə, Elmira Qafarova və Kamran Rəhimovun adlarını xüsusi qeyd etmək istəyirəm.

Ötən əsrdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda texniki peşə təhsili müəssisələrinin və orada təhsil alan şagirdlərin sayı əhəmiyyətli dərəcədə yüksəlib. İxtisaslı kadrların hazırlanması sənayenin bütün sahələrinin inkişafına müsbət təsir göstərib, iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin açılması ixtisaslı kadrlara tələbatı daha da artırıb.

1920-ci il avqustun 5-də Xalq Maarifi Komissarlığı nəzdində yaradılmış Texniki Peşə Təhsili Baş Komitəsində 1940-cı ilə qədər ciddi struktur dəyişiklikləri aparıldığından, bu təsisat müstəqil qurum kimi formalaşmayıb. 1940-cı ildə isə SSRİ Dövlət Ehtiyat Əmək Qüvvələri Sistemi yaradılıb.

Faktların təhlili göstərir ki, sovet hakimiyyətinin ilk illərindən texniki peşə təhsilinə xüsusi diqqət yetirilib, texniki peşə təhsilinin təşkili, xalq təsərrüfatının müxtəlif sahələrinin ixtisaslı fəhlə kadrları ilə təmin edilməsi, işçilər arasında texniki savadsızlığın aradan qaldırılması məqsədilə fabrik-zavod şagirdliyi məktəbi təşkil edilib. Həmin illərdə sənaye sahələrini ixtisaslı fəhlə kadrlarla təmin etmək üçün texniki peşə təhsilinin idarəetmə sistemində müəyyən islahatlar aparılıb.

Dövlət Ehtiyat Əmək Qüvvələri Sistemi 1955-ci ildə Dövlət Peşə Təhsili Sisteminə, 1959-cu ildə isə Dövlət Texniki Peşə Təhsili Komitəsinə çevrilib. Məhz bundan sonra ölkənin iqtisadiyyatı üçün vacib olan bu sahənin inkişafı sürətlənib, texniki peşə təhsilinin müasir tələblər səviyyəsində qurulmasına əlverişli zəmin yaranıb. Çoxlu şəhər və kənd texniki peşə məktəbləri, axşam kursları açılıb, müxtəlif peşələr üzrə ixtisaslı fəhlələr hazırlanıb. Azərbaycanın çoxsahəli xalq təsərrüfatının ağırlıqları uzun illər məhz bu məktəbləri bitirən fəhlələrin çiyinlərində olub.

Respublika Texniki Peşə Təhsili Komitəsi Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunun qərarlarını əldə rəhbər tutaraq ixtisaslı fəhlə kadrların hazırlanması sahəsində əsaslı dəyişiklik-

lər edib. Göstərilən qayğı sayəsində peşə məktəblərində oxuyanların sayı 2,5 dəfə artıb. Həmin il peşə məktəbləri məzunlarının sayı 26 min nəfərə çatıb. XX yüzilliyin 70-ci illərində yaradılan orta texniki peşə məktəblərində şagirdlərə fəhlə ixtisası ilə yanaşı, ümumi orta təhsil də verilməyə başlanıb.

Respublikamızda texniki peşə təhsilinin daha sürətli inkişaf mərhələsi ötən əsrin 70–80-ci illərinə təsadüf edir. Həmin dövrdə Heydər Əliyevin göstərişi ilə 1971–1975-ci illər üçün Azərbaycanda texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafına dair strategiya hazırlanıb. Bu strategiyaya uyğun olaraq texniki peşə təhsili qısa bir zamanda sürətli inkişaf yolu keçib. Əgər 1970-ci ildə respublikada 84 texniki peşə məktəbində 44 min şagird təhsil alırdısa, 1980-ci ildə məktəblərin sayı 173-ə, şagirdlərin sayı isə 98000-ə çatmışdı. 1982-ci ildə 184 texniki peşə məktəbində 109000 şagird təhsil alırdı. 1987-ci ildə 186 texniki peşə məktəbində 200-dən artıq peşə üzrə 115 min şagird oxuyurdu. Bu inkişafa nail olunmasında, təbii ki, həm də ayrı-ayrı vaxtlarda Texniki Peşə Təhsili Komitəsinə rəhbərlik etmiş Əkbər Ənnağıyev, Musa Ağayev, Tofiq Allahverdiyev və Heydər İsayevin təşkilatçılıq bacarığı, səmərəli fəaliyyəti xüsusi rol oynayıb.

Azərbaycanda orta ixtisas təhsilinin inkişaf mərhələləri Qori Müəllimlər Seminariyasının ənənələrinin Azərbaycanda uğurlu tətbiqi ilə başlanır. Qazax, Nuxa (indiki Şəki), Bakı və Gəncədə fəaliyyət göstərən, tədrisin milli dildə aparıldığı ilk pedaqoji seminariyalar müəllim kadrların hazırlığı sahəsində müstəsna rol oynayıb.

Ali təhsilin və ali məktəb elminin inkişafı bir-biri ilə sıx bağlıdır və biri digərinin inkişafını stimullaşdırır. Məlumdur ki, təhsil müəssisələrində elmi tədqiqat işi aparılmadan müasir tələblərə cavab verən kadr hazırlığının həyata keçirilməsi mümkün deyil. Odur ki, ölkə təhsilinə rəhbərlik etmiş şəxslərin həyat və fəaliyyətinə nəzər salarkən – yeri gəldikcə bu məsələlərə də toxunulub – müxtəlif zamanlarda müvafiq istiqamətlərdə aparılan məqsədyönlü işlərə aydınlıq gətirilib.

Azərbaycanda yüksəkixtisaslı kadrlar hazırlayan ilk ali məktəb – Bakı Dövlət Universiteti 1919-cu ildə açılana qədər (XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində) azərbaycanlılar Rusiya, Fransa, Almaniya, Türkiyə və digər ölkələrin universitetlərində, institutlarında hüquqşünas, mühəndis, riyaziyyatçı, həkim, bioloq, müəllim və digər ixtisaslara yiyələniblər.

1920-ci il noyabrın 13-də Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov «Bakı Politexnik İnstitutunun təsis edilməsi barədə» dekret imzalayıb. Bir-birinin ardınca Azərbaycan Dövlət Konservatoriyası, Azərbaycan Kişi Pedaqoji İnstitutu və Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu fəaliyyətə başlayıb.

Ötən əsrin 20-ci illərinin axırlarında ali məktəblərin milliləşdirilməsi probleminə böyük diqqət yetirilib. Bu məsələnin həlli milli və sosial siyasətin ən vacib problemlərindən biri hesab olunurdu. Həmin illərdə elmi tədqiqat işinin inkişafı tədris prosesinin təkmilləşdirilməsinə istiqamətləndirilirdi. Moskvadan, Leninqraddan (indiki Sankt-Peterburq) və digər elm mərkəzlərindən Azərbaycana gələn görkəmli elm xadimləri elmi tədqiqat işlərinin qaydaya salınmasına kömək edirdilər. Məhz onların səyi nəticəsində Azərbaycanda elmi tədqiqatların təşkilati əsasları qoyuldu. Azərbaycan xalqının tarixi, ədəbiyyatı, mədəniyyəti ilə bağlı elmi araşdırmalar aparıldı. 1926-cı ildə ali məktəblərin nəzdində aspirantura, 1934-cü ildə elmi-pedaqoji kadrların attestasiya sistemi yaradıldı.

Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə əlaqədar 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin bağlanması təhsil tariximizin bu gün müxtəlif mövqelərdən şərh olunan mürəkkəb səhifələrindən biridir. Lakin danılmaz faktdır ki, universitetin bazasında yaranan sahə institutları ali təhsilimizin inkişafında yeni mərhələ oldu.

1930–1941-ci illərdə sahə ali məktəblərinin yaradılması istiqamətində görülən tədbirlər nəticəsində ali məktəbləri bitirənlərin sayı artıb. 1945–1946-cı dərs ilində Azərbaycanda ali məktəblərin sayı 20-yə çatıb. Ali məktəb tələbələrinin sayı isə 31,2 min nəfərə yüksəlib.

Daha sonra Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutu, Azərbaycan Ticarət-Kooperativ İnstitutu və Azərbaycan Dövlət Tibb İnstitutu, müstəqil Qiyabi Pedaqoji İnstitutu, Xəzər Ali Hərbi

Dənizçilik Məktəbi, Mirzə Fətəli Axundov adına ikiillik Azərbaycan Müəllimlər İnstitutu, Dövlət Pedaqoji Xarici Dillər İnstitutu təşkil olunub.

Eləcə də Azərbaycan Politexnik İnstitutu, Bakı Ali Partiya Məktəbi, Ali Ümumqoşun Komandirləri Məktəbi, Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu yaradılıb, Sumqayıt Ali Texniki Məktəbi, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan, Xankəndi filialları fəaliyyətə başlayıb.

Həmin müəssisələrin fəaliyyətinə elmi əsasda pedaqoji və dövlət nəzarətinin gücləndirilməsi tələbatı bu sahəyə cavabdeh olan hökumət qurumunun yaradılmasını tarixi zərurətə çevirmişdi. Ali məktəblərin, texnikumların maddi-texniki bazaları möhkəmləndirilməli, pedaqoji kadrların tərkibi keyfiyyətcə yaxşılaşdırılmalı, xalq təsərrüfatının müxtəlif sahələri üçün yüksəkixtisaslı, geniş dünyagörüşlü mütəxəssislər hazırlanmalı idi.

Bu illər Azərbaycanda xalq təsərrüfatının coşqun inkişafı, əhalinin mədəni səviyyəsinin yüksəlişi dövrünə təsadüf edir. Respublikada ağır, yüngül və yeyinti sənayesinin bir çox sahələri, eləcə də mədəni-maarif müəssisələrinin şəbəkəsi geniş inkişaf yoluna çıxmışdı. Sözsüz ki, bu inkişafı ali və orta ixtisas təhsilli kadrlarsız təsəvvür etmək çətin olardı. Məhz buna görə də SSRİ Nazirlər Soveti 1959-cu ilin iyununda ali və orta ixtisas təhsili müəssisələrinə rəhbərliyin yenidən qurulması haqqında xüsusi qərar qəbul etdi.

Həmin qərarda göstərilirdi ki, ölkədə ali və orta ixtisas təhsili sistemini daha da inkişaf etdirmək və təkmilləşdirmək, habelə bu işdə müttəfiq respublikaların səlahiyyətini və məsuliyyətini artırmaq məqsədilə ümumittifaq tabeliyində olan ali və orta ixtisas təhsili müəssisələri respublikaların ixtiyarına verilsin. Həmin qərarla əlaqədar olaraq 1959-cu ildə digər müttəfiq respublikalarla yanaşı, Azərbaycanda da Ali və Orta İxtisas Təhsili Komitəsi yaradıldı. Bu qurum 1964-cü ildən müstəqil nazirliyə çevrildi.

O dövrdə respublikada 100 min tələbəni əhatə edən 13 ali məktəb fəaliyyət göstərib və 105 fakültə, 450 kafedra olmaqla 131 ixtisas üzrə mütəxəssislər hazırlanıb. Üç-dörd ildə ali məktəblərin sayı 16-ya, fakültələrin sayı 130-a, kafedraların sayı isə 512-yə çatdırılıb, ali məktəblərdə 148 ixtisas üzrə mütəxəssislər hazırlığına başlanılıb. Təkcə 1976-cı ildə ali məktəblərimizdə 4 yeni fakültə, 14 kafedra və 18 ixtisas açılıb.

Ulu öndər Heydər Əliyevin səyi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (1972), Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu (1972), Xankəndi Dövlət Pedaqoji İnstitutu (1973), Azərbaycan İnşaat Mühəndisləri İnstitutu (1975), Azərbaycan Texnologiya İnstitutunun (1981) yaradılması ilə ali təhsil sistemindəki boşluqlar aradan qaldırıldı. Xarici ölkələrdən respublikamıza təhsil almağa gələn əcnəbi tələbələrin sayı nəzərəçarpacaq dərəcədə artdı.

Sözsüz ki, Azərbaycan təhsilinin, o cümlədən ali təhsilin 1969–1982-ci illərdəki inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. O, Azərbaycan KP MK-nın avqust (1969) plenumunda digər məsələlərlə yanaşı, ali təhsil müəssisələrində mənəvi iqlimin sağlamlaşdırılması və neqativ halların aradan qaldırılması yollarının geniş təhlilini vermiş, Ali və Orta İxtisas Təhsili Nazirliyinin və ali məktəb rektorlarının qarşısında ali təhsil müəssisələrinin fəaliyyətinin köklü şəkildə yenidən qurulması kimi ciddi və təxirəsalınmaz vəzifələr qoymuşdu. Bütün bunlar ali təhsilin inkişafının əsas istiqamətlərini müəyyənləşdirdi.

O illərdə görülən işlərin millətin mənəvi təkamülündəki rolunu, dövlətçilik baxımından əhəmiyyətini, mahiyyətini və perspektivlərini dərk etmək üçün bəzi statistik məlumatlara nəzər salmaq yerinə düşər: 1969–1970-ci tədris ilində respublikadan kənara 60 nəfərlik plana qarşı cəmi 47 nəfər ali təhsil almağa göndərilmişdisə, 1978-ci ildən başlayaraq respublikadan kənara hər il 800–900 tələbə göndərilməsinə nail olunmuşdu. 1969–1970-ci tədris ilində ölkədən kənarda təhsil alanların 40 faizi azərbaycanlı idisə, 1970–1980-ci illərdə bu rəqəm 97,6 faizə çatmışdı.

Həmin illərdə Azərbaycanın xalq təsərrüfatının inkişaf tempinə uyğun olaraq respublikamız üçün ənənəvi olmayan ixtisaslar üzrə də mütəxəssis hazırlığına başlanıldı. Eləcə də SSRİ-nin 50-dən

artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamız üçün zəruru ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin təhsil alması təmin edilirdi. Onların yüksəkixtisaslı kadr kimi formalaşması üçün respublika rəhbərliyi tərəfindən hər cür qayğı göstərilirdi.

Onu da qeyd edək ki, Azərbaycanda ali və orta ixtisas təhsilinin inkişafında ayrı-ayrı vaxtlarda komitə sədri və ya nazir vəzifələrində çalışmış Şirəli Məmmədov, Abdulla Qarayev, Züleyxa Hüseynova, Danil Quliyev və Qurban Əliyevin böyük xidmətləri olub.

1988-ci ildə Azərbaycanda təhsilin müxtəlif pillələrini əhatə edən üç qurum – Ali və Orta İxtisas Təhsili Nazirliyi, Xalq Maarifi Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi birləşdirilərək Xalq Təhsili Nazirliyi, 1993-cü ildə isə Azərbaycan Respublikası Təhsil Nazirliyi yaradılıb.

Doğrudur, sovet hakimiyyəti illərində müstəqil dövlət siyasətimiz, aydın milli ideologiyamız olmayıb, xalqın milli təfəkkürünün daşıyıcıları olan on minlərlə ziyalı günahsız ittiham edilib, ölüm və cəza maşını fasiləsiz işləyib. Ancaq bu, heç də o demək deyil ki, məktəbimiz, təhsilimiz inkişaf etməyib.

Sovet dövründə təhsilimiz inkişaf etməsəydi, ötən əsrin 90-cı illərində imperiya hakimiyyətinin təzyiqi bir az zəifləyən kimi, uzun illərdən bəri zamanın diktə etdiyi təhsil siyasəti əsasında tərbiyə almış millətimizin indiki nəsli milli ruhla azadlıq mübarizəsinə qalxardımı? Bu istiqlal mücadiləsinin kökü haradandır? Milli ruhu olmayan nəsil yetişdirməyə xidmət edən məktəb gəncliyi bu mübarizəyə hazırlaya bilərdimi? Əlbəttə yox! Ulu öndər Heydər Əliyevin təbirincə desək, «1920–1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın bünövrəsi XIX əsrdə qoyulsa da, bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, minlərlə qəzet və jurnal çap olunmağa başlamışdı».

Bu gün ölkə həyatının bütün sahələrində təhsilimizin sovet dövrünün yetirməsi olan insanlar uğurla çalışırlar. Müstəqilliyimizin ilk illərində təməli qoyulan hər bir iş istisnasız olaraq bu insanlar tərəfindən həyata keçirilib. Ona görə də təhsil tarixinə nihilist meyillərlə yanaşmaq qətiyyən düzgün deyil. Bugünkü nailiyyətlərimiz boş yerdən yaranmayıb. Onun möhkəm bünövrəsi var.

Keçmiş İttifaq tərkibində olduğumuz 70 ildə təhsilimiz çox ziddiyyətli inkişaf yolu keçib. Bu tarixi yaradan, həyatını xalqın maariflənməsi kimi nəcib işə həsr edən ziyalıların adı Azərbaycanın tarixinə, onun təhsil salnaməsinə əbədi həkk olunub. Bu gün Azərbaycanın təhsilinə rəhbərlik edən şəxs kimi, bir ziyalı kimi, nəhayət, bir vətəndaş kimi çalışıram ki, gələcək nəsil bu insanların Vətənimiz qarşısındakı xidmətlərindən xəbərsiz qalmasınlar.

Bu kitabın yazılmasında əsas məqsəd Azərbaycan təhsilinə müxtəlif illərdə rəhbərlik etmiş, təhsilimizin inkişafında xidmətləri olan şəxslərin xatirəsinin əbədiləşdirilməsi və ötən əsrin əvvəllərindən bəri təhsilin tərəqqisi baxımından keçilmiş şərəfli inkişaf yolu barədə ictimaiyyəti daha dolğun məlumatlandırmaqdır.

Son yüz ilə nəzər salarkən bir daha aydın olur ki, qazandıqlarımız itirdiklərimizdən daha çoxdur. Mən təhsil naziri kimi müxtəlif ölkələrdə, o cümlədən qonşu İran və Türkiyə respublikalarında dəfələrlə xidməti səfərlərdə olmuşam. Bu səfərlər zamanı bir fakt məni həmişə qürurlandırıb: Azərbaycanda insanların təhsil səviyyəsi hər iki ölkədəkindən qat-qat yüksəkdir. Sovet dövründə ən ucqar kəndlərimizdə belə, məktəblər fəaliyyət göstərib və Azərbaycanda savadsız adam yoxdur. Bütün bunlar bizim bugünümüz üçün etibarlı zəmin olubdur. Əgər belə olmasaydı, biz öz müstəqilliyimizi bərpa edib Azərbaycanı uğurla irəli apara, daha böyük nailiyyətlərə, cəsarətli islahatlara imza ata, təhsilimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı müasir tələblər səviyyəsində inkişaf etdirə bilməzdik.

Bu gün sabaha bünövrə olduğu kimi, bugünün də bünövrəsi dünənimizdir. Dünənin qiymətini düzgün verməsək, sabaha möhkəm özül yarada bilmərik.

Azərbaycan təhsilinin inkişaf istiqamətlərinin dəqiq müəyyənləşdirilməsi, dünya təhsil sisteminə uyğunlaşdırılması üçün müstəqilliyimizin ilk illəri gələcək islahatlara hazırlıq mərhələsi hesab olunur. Bu baxımdan zəngin inkişaf yolu keçən təhsilimizin 1993-cü ildən 1998-ci ilə qədərki dövrü, axtarışlar, yeniliklərin öyrənilməsi mərhələsi kimi səciyyələndirilir. 1998-ci ildən sonrakı mərhələ isə dünya təhsilinə inteqrasiya, dövlət proqramları və beynəlxalq layihələrin reallaşdırılması, əsaslı quruculuq, tədrisin keyfiyyətinin yüksəlişi və islahatlar dövrü kimi xarakterizə olunur.

Müstəqillik illərində Azərbaycan yalnız regionun deyil, həm də Avropanın siyasi cəhətdən ən stabil ölkəsinə çevrildi, beynəlxalq aləmdə yüksək nüfuz qazandı, iqtisadi inkişaf tempinə görə dünyada lider ölkələr sırasına daxil oldu. Dünyanın nüfuzlu ekspertləri və iqtisadçıları Azərbaycanın dinamik inkişafının səbəblərini elmi tədqiqatlara və strateji təhlillərə əsaslanan proqramlarla idarəetmə modelinin nəticəsi kimi qiymətləndiririrlər.

Yeni idarəetmə modeli təhsil sistemində də müasir menecment modellərinin tətbiqini şərtləndirdi. Təhsil Nazirliyinin strukturunda dəyişikliklərin edilməsi, Monitorinq və qiymətləndirmə (təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi, təhsil müəssisələrinin fəaliyyətinin monitorinqinin aparılması), Təhsilin idarəolunmasının məlumat sistemləri (təhsil sistemi haqqında onlayn yeniləşdirilən elektron məlumat bazasının yaradılması, məlumatların təhlili və hesabatların hazırlanması), Strateji təhsil, planlaşdırma və kadrların idarəolunması (təhsil sektorunun ayrı-ayrı sahələri üzrə strateji təhlillərin aparılması, fəaliyyətin planlaşdırılması, təhsilin perspektiv inkişaf istiqamətlərinin və prioritetlərinin müəyyənləşdirilməsi, kadr siyasətinin formalaşdırılması və kadr təminatının həyata keçirilməsi), Akkreditasiya (təhsil müəssisələrinin akkreditasiyası, təhsil proqramlarının akkreditasiyası, təhsil müəssisələrinin fəaliyyətinə lisenziyanın verilməsi, keyfiyyətə nəzarətin təmin edilməsi) şöbələrinin yaradılması nazirliyin idarəetmə potensialını xeyli gücləndirib, çevik idarəetməyə zəmin yaradıb.

Ölkə Prezidentinin 2005-ci il 1 mart tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında" Əsasnamədə nazirliyin əsas vəzifə və funksiyaları aşağıdakı kimi təsbit edilib:

Nazirliyin əsas vəzifələri:

- Təhsil sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasəti həyata keçirmək;
- Azərbaycan Respublikasında təhsil sisteminin müəyyən edilmiş istiqamətlər üzrə inkişafını təmin etmək;
- təhsil sahəsində dövlət tənzimlənməsini həyata keçirmək, təhsilin keyfiyyətinə dövlət nəzarətini təmin etmək;
- vətəndaşların təhsil almaları ilə bağlı konstitusiya hüquqlarını qorumaq məqsədilə təhsildə bərabər imkanların yaradılmasına nail olmaq;
- mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə elmi, tədris-metodiki rəhbərliyi həyata keçirmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə Nazirliyə həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

Nazirliyin funksiyaları:

- Təhsil sisteminin fəaliyyətini və onun inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir və müvafiq sahə standartları hazırlayır;
- təhsilin inkişafı ilə bağlı proqramların hazırlanıb həyata keçirilməsini təmin edir, bu sahədə digər orqanların fəaliyyətini əlaqələndirir;
- təhsil müəssisələrinin şəbəkəsini və onların inkişaf perspektivlərini müəyyənləşdirir;
- təlim və tədris prosesinin keyfiyyətinə, təhsil qanunvericiliyinin icrasına, təhsilin dövlət standartlarına riayət olunmasına nəzarət edir;

- təhsil sisteminin inkişafı sahəsində analitik təhlillər aparır və monitorinqlər keçirir;
- təhsil sistemində biliyin qiymətləndirilməsi meyarlarını, qiymətləndirmənin bal sistemini müəyyənləşdirir;
- qanunvericiliyə uyğun olaraq təhsil sistemində demokratik idarəetmənin tətbiqini təmin edir;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq müəyyən olunmuş qaydalar əsasında təhsil müəssisələrinin attestasiyasını və akkreditasiyasını aparır;
- təhsilin keyfiyyətini yüksəltmək və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqi məqsədilə eksperimentlər aparır;
- dövlət təhsil standartlarının tələblərinə uyğun olaraq baza təhsil proqramlarını təsdiq edir, dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyatın siyahısını tərtib edir, onlara qrif (nəşr hüququ) verir;
- icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir;
- xüsusi istedada malik uşaq, şagird və tələbələrin təhsillərini davam etdirmək üçün lazımi tədbirlər görür;
- ümumtəhsil məktəblərində sinifdən-sinfə keçirmə və buraxılış imtahanlarının sayını, formasını və qiymətləndirmə mexanizmini, təhsil alanların bir tədris müəssisəsindən digərinə köçürülməsi qaydalarını müəyyən edir;
- müxtəlif səviyyəli və miqyaslı fənn olimpiadaları təşkil edir;
- tədris müəssisələrinin kompyuterləşdirilməsi, şagirdlər üçün təhsil portalının və saytlarının yaradılması istiqamətində müvafiq proqramlar hazırlayıb həyata keçirir;
- aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə ciddi tərbiyə şəraitinə ehtiyacı olan, sağlamlıq imkanları məhdud (xüsusi qayğıya ehtiyacı olan) uşaq və yeniyetmələrin təhsilini təşkil edir;
- qəyyumluq və himayə orqanlarına metodiki kömək göstərir, valideyn himayəsindən məhrum uşaqların müəyyənləşdirilməsini və onların təhsilə cəlb edilməsini təşkil edir;
- müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görür, uşaq, şagird və tələbələrin idman yarışlarını, turist yürüşlərini, özfəaliyyətlərinə, texniki və bədii yaradıcılıqlarına baxışları və bu kimi digər tədbirləri həyata keçirir;
- müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədris müəssisələrində təhsil alanların, pedaqoji və texniki-yardımçı heyət işçilərinin tibbi müayinədən keçirilməsini təmin edir;
- tabeliyində olan təhsil müəssisələrinin və təşkilatların digər elmi müəssisə və təşkilatlarla elm və təhsil sahəsində fəaliyyətini əlaqələndirir;
- elmi-texniki konfransların, simpoziumların və müsabiqələrin keçirilməsini, şagirdlərinin, tələbə, aspirant və müəllimlərin xarici ölkələrdə keçirilən bu kimi tədbirlərdə iştirakını təşkil edir;
- ali, orta ixtisas və peşə-ixtisas təhsili üzrə ixtisasların təsnifatı barədə təklif verir;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrinin nümunəvi əsasnamələrinin layihələrini hazırlayır, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə rəy və təkliflər verir;
- təhsil müəssisələri məzunlarının yekun dövlət attestasiyası qaydalarını və imtahan prosesilə əlaqədar müvafiq reqlamentləşdirici sənədləri təsdiq edir;
- müxtəlif səbəblərə görə pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin kateqoriyası, sağlamlıq imkanlarına görə məhdudiyyət qoyulan, eləcə də eksternat yolu ilə mütəxəssis hazırlığı qadağan edilən ixtisasların siyahısı barədə təkliflər verir;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrində məzunlara verilən dövlət təhsil sənədinin nümunəsini hazırlayır, onun verilmə qaydalarını müəyyənləşdirir, buraxılış kontingentinin sayına uyğun təhsil müəssisələrini dövlət təhsil sənədi blankları ilə təmin edir;

- təhsil sənədlərinin tanınması və ekvivalentliyi ilə bağlı məsələləri həll edir;
- xarici dövlətlərdə alınmış təhsil sənədlərinin nostrifikasiyası qaydalarına uyğun müvafiq komissiya yaradır, vətəndaşlara sənədlərin ekvivalentliyi haqqında şəhadətnamələr verir;
- təhsil alanlar üçün adlı təqaüdlərin təsis edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır;
- əmək bazarı tələbatının öyrənilməsi və mütəxəssis hazırlığının proqnozlaşdırılmasında iştirak edir;
- ali, orta ixtisas və texniki peşə məktəblərinə illik tələbə və şagird qəbulu barədə təklif hazırlayır;
- müvafiq təhsil müəssisələrində magistratura və doktoranturaların açılması məsələsini həll edir;
- pedaqoji kadrların və təhsil işçilərinin hazırlanması, ixtisasının artırılması və yenidən hazırlanması işini təşkil edir;
- distant təhsili üçün müvafiq şərait yaradır;
- aidiyyəti icra hakimiyyəti orqanları, müəssisə və təşkilatlarla birlikdə əhalinin işləməyən təbəqəsinin peşə hazırlığını, ixtisasartırmasını və yenidən hazırlanmasını təmin edir;
- pedaqoji kadrların təsdiq olunmuş qaydalara uyğun attestasiyasının keçirilməsini təşkil edir;
- təhsil müəssisələrində pedaqoji və elmi-pedaqoji kadr vəzifələrinin tutulması qaydalarını müəyyən edir;
- nazirlik sistemində olan təhsil müəssisələrində rəhbər kadrların nomenklaturasını müəyyənləşdirir;
- pedaqoji kadrlara olan tələbatın ödənilməsi üçün tədbirlər görür, gənc mütəxəssislərin iş yerlərilə təminatı prosesinə əməli köməklik göstərir, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə lazımi işlər aparır;
- təhsil müəssisələrinin tədris-maddi bazasını inkişaf etdirir, onların tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirir;
- təhsil sistemində maliyyələşdirmə normativlərinin hazırlanmasında iştirak edir;
- təhsil sistemində attestasiya-maddi stimullaşdırma mexanizminin tətbiqilə əlaqədar təkliflər hazırlayır;
- təhsil işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması tədbirlərini həyata keçirir, onlara mövcud qanunvericilik çərçivəsində "Əmək veteranı" adının verilməsini təmin edir;
- təhsil sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görür;
- təhsil sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirir;
- xarici ölkələrdə yaşayan azərbaycanlıların öz ana dilində ümumi təhsil almalarına, habelə Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixi və coğrafiyasının öyrənilməsinə yardım göstərir;
- Azərbaycan Respublikası vətəndaşlarının mövcud qaydalara uyğun dövlət xətti ilə xaricdə təhsil almaları və elmi-tədqiqat işləri aparmaları üçün tədbirlər görür;
- təsdiq olunmuş formada statistik məlumatların və hesabatların toplanılmasını, onların təhlilini və nəticələrin müvafiq orqanlara təqdim olunmasını icra edir;
- qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

**Təhsil Nazirliyinin strukturu (2010)**




Müstəqillik illərində təhsil xərclərinin ilbəil artması təhsilin dövlət siyasətinin əsas prioritetlərindən biri olması ilə birbaşa bağlıdır. Təhsil sisteminin qarşısında duran əsas vəzifələri müəyyənləşdirərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin inkişaf strategiyası ilə bağlı bu fikirləri əsas götürülür: «Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik», «Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır». Bu mənada yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt «təhsil əsri» elan edilən XXI əsrdə olduğu qədər aktual olmayıb. Ümumi təhsil xərclərinin artmasının əsasında da həmin konseptual müddəalar dayanır. Təhsilə ayrılan büdcə 2003-cü illə müqayisədə 6 dəfədən çox artaraq 2010-cu ildə 1,2 milyard manata çatıb.

Son illər təhsil tariximizdə ilk dəfə olaraq 16 inkişafyönümlü Dövlət Proqramı təsdiq olunub və uğurla həyata keçirilməkdədir. Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə real vəziyyətin təhlili əsasında hazırlanıb təsdiq edilmiş bu proqramların reallaşdırılması nəticəsində tədris müəs-

sisələrinin fəaliyyətinin qiymətləndirilməsi, infrastrukturun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, texniki-peşə, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, de-institutlaşdırma və digər istiqamətlərdə əhəmiyyətli nailiyyətlər əldə olunub.

Azərbaycan təhsilinin inkişafına yüksək dövlət qayğısının təzahürü olan aşağıdakı dövlət proqramlarını göstərmək olar:

– «Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Dövlət Proqramı (2003–2007-ci illər)»;
– «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqla təmin olunmasına dair İnkişaf Proqramı (2005–2009-cu illər)»;
– «Dərsliklə təminat Proqramı (2003–2005; 2006–2015-ci illər)»;
– «Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı (2005–2009-cu illər)»;
– «2005–2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı»;
– «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Proqram (2006–2010-cu illər)»;
– «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institutlaşma) və alternativ qayğı Dövlət Proqramı (2006–2015-ci illər)»;
– «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)»;
– «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»;
– «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»;
– «Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər)»;
– «2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı»;
– «2009–2012-ci illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Dövlət Proqramı»;
– «2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»;
– «2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı»;
– «Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı».

Ayrı-ayrı təhsil pillələri və səviyyələrində də ciddi inkişaf meyilləri özünü büruzə verməkdədir. Məktəbəqədər təhsilin uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malik olması tədricən cəmiyyət tərəfindən qəbul edilməyə başlanıb. Respublikamızda 20 il ərzində heç bir məktəbəqədər təhsil müəssisəsi tikilmədiyi halda, 2008-2010-cu illərdə ilk dəfə olaraq ölkə üzrə 40 yeni uşaq bağçası tikilib istifadəyə verilib, 44 məktəbəqədər təhsil müəssisəsi əsaslı təmir edilib, müasir avadanlıqlarla

təchiz olunub. Həyata keçirilən tədbirlər nəticəsində Bakı şəhərində bağçalara cəlb olunmuş uşaqların sayı 8,6 min nəfər artıb, təhsilin bu pilləsi üzrə əhatə səviyyəsi 26 faizi ötüb. Müstəqillik tariximizdə ilk dəfə olaraq uşaq bağçaları üçün müasir tələblər səviyyəsində 151 adda təlim vəsaitləri hazırlanıb müəssisələrə çatdırılıb.

Azərbaycanda 2000-dən çox yeni məktəb binasının tikilməsi, əsaslı təmiri və müasir avadanlıqlarla, o cümlədən kimya və fizika laboratoriyaları ilə təmin edilməsi təhsil tariximizdə ən əlamətdar hadisələrdəndir. Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun müstəsna xidmətlərini xüsusilə qeyd etməliyik. Fondun təşəbbüsü ilə 2005-2010-cu illərdə 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi binası tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa olunub, müasir avadanlıqlarla təchiz edilib. Fondun təşəbbüsü ilə 2010-cu ildə Gürcüstanda azərbaycanlı soydaşlarımızın yaşadığı bölgələrdə 3 məktəb əsaslı təmir və bərpa edilib, müasir avadanlıqlarla təchiz olunub.

Təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi üçün investisiya xərcləri birbaşa Təhsil Nazirliyinə ayrılır. Bu məqsədlə Təhsil Nazirliyi nəzdində Əsaslı tikinti idarəsi yaradılıb. İnvestisiya qoyuluşlarının ilbəil artırılması sayəsində 2008-ci ildə bu xərclər 220 milyon manata yüksəlib. Eyni zamanda, məktəblərin avadanlıqlarla təminatı da Təhsil Nazirliyinə ayrılmış vəsaitlər hesabına mərkəzləşdirilmiş şəkildə həyata keçirilir.

Yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində ümumilikdə ölkə üzrə 1 milyondan çox şagirdin, yəni bütün şagirdlərin 80 faizinin təlim şəraiti yaxşılaşdırılıb. Məktəb tikintisi sahəsində həyata keçirilən proqramlar nəticəsində ikinövbəli məktəblər 73 faizdən 44-ə, ikinci növbədə təhsil alan şagirdlər 34,5 faizdən 21-ə enib.

Müstəqillik illərində aparılan genişmiqyaslı işlər yalnız təhsil infrastrukturunun yeniləşdirilməsi ilə bağlı deyil. Bu sahədə əhəmiyyətli nailiyyətlərin əldə edilməsi və müasir tələblərə uyğun şəraitin yaradılması məzmun islahatları üçün də əlverişli zəmin yaradıb. Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilən islahatyönümlü tədbirlərin böyük əksəriyyəti ümumi təhsilin məzmununun yeniləşdirilməsinə və mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmasına yönəlib. Bütün bu tədbirlərin əsas məqsədi şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud «yaddaş məktəbi»ndən «təfəkkür və düşüncə məktəbi»nə keçmək və bu əsasda ümumi təhsilin müasir modelini qurmaqdan ibarətdir.

2006-cı ildə Nazirlər Kabineti tərəfindən «Ümumi təhsilin Konsepsiyası (Milli kurikulum)» təsdiq edilib. 2008-2009-cu tədris ilindən ümumtəhsil məktəblərinin I siniflərində tədrisə yeni fənn kurikulumları və müasir dərsliklərlə başlanılıb, bu proses 2010-2011-ci dərs ilindən I, II və III sinifləri əhatə edib. Yeni kurikulumların tətbiqi ilə əlaqədar I siniflərdə işləyən 27 minədək müəllim xüsusi proqram əsasında öyrədici təlim kurslarından keçirilib və nümunəvi tədris materialları ilə təmin edilib.

Yeni məzmun yeni nəsil dərsliklərin hazırlanmasını zərurətə çevirib. 2003-2010-cu illərdə milli-mənəvi dəyərlər əsasında müasir tələblərə uyğun məzmunda ümumilikdə 45 milyon nüsxə dərslik çap edilib. Təhsil tariximizdə ilk dəfə olaraq yeni kurikulum tətbiq edilən I – III siniflər üçün dərslik komplektləri (şagird üçün dərslik, iş dəftəri, müəllim üçün vəsait) hazırlanıb, Dərslikləri Qiymətləndirmə Şurası tərəfindən qiymətləndirilib və müsbət rəy alındıqdan sonra çap edilib.

Məktəb kitabxanaları uşaq ensiklopediyaları, Azərbaycan və xarici ölkə yazıçılarının əsərləri ilə təmin edilib. Heydər Əliyev Fondunun yaxından köməyi ilə ayrı-ayrı fənlər üzrə 140 adda 1,4 milyon nüsxə tədris-əyani vəsait hazırlanaraq məktəblərə verilib. Məktəblər 19 adda 351 min nüsxə xəritə ilə təmin edilib.

Dünya təcrübəsinə uyğun olaraq ölkəmizdə məktəbdaxili, milli və beynəlxalq qiymətləndirməni əhatə edən yeni qiymətləndirmə sisteminə keçilib. Təhsil tariximizdə ilk dəfə olaraq məktəbdaxili qiymətləndirmənin diaqnostik (konkret bir mərhələdə təhsilalanın nailiyyətlərinin səviyyəsinin müəyyən edilməsi), formativ (təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr

əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsi) və summativ (təhsilin hər hansı bir mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsi) qiymətləndirmə növlərinin tətbiqinə başlanılıb.

2009-2010-cu dərs ilindən respublikanın bütün ümumtəhsil məktəblərində IX və XI siniflərdə buraxılış imtahanları mərkəzləşdirilmiş qaydada keçirilir. Həyata keçirilmiş tədbirlər nəticəsində təhsilin keyfiyyəti hissolunacaq dərəcədə yüksəlib, orta məktəb məzunlarının ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələr ilbəil yaxşılaşıb, 600-dən çox bal toplayanların sayı ötən ilə nisbətən 300 nəfərdən çox artaraq 1365 nəfərə çatıb, 7 nəfər məzunumuz 700 bal toplayıb. 300-dən çox bal toplayanlar ötən ildəki 20 faizdən 31 faizə, 500-700 bal toplayanlar 6 faizdən 8.5 faizə, orta bal göstəriciləri 211-dən 231-ə yüksəlib.

Azərbaycan təhsilində ilk dəfə olaraq milli (ölkə səviyyəsində təhsilalanların nailiyyətlərinin səviyyəsinin qiymətləndirilməsi) və beynəlxalq qiymətləndirmə (ölkədə təhsil səviyyəsinin digər ölkələrlə müqayisəli təhlilini aparmağa yönəlmiş qiymətləndirmə) tədbirləri həyata keçirilib və bu proses davam etdirilməkdədir.

Dünya və beynəlxalq fənn olimpiadalarında Azərbaycan məktəbliləri 11 qızıl, 33 gümüş, 66 bürünc olmaqla ümumilikdə 99 medal qazanıblar. Əhalisinin sayının az olmasına baxmayaraq, medalların sayına görə Azərbaycan dünya ölkələri arasında ilk onluqda yerini qoruyub saxlayır.

Məktəbdənkənar təhsil müəssisələrinin yetirmələri də müxtəlif səviyyəli yarışlarda əhəmiyyətli nailiyyətlər əldə edib. Yalnız 2009-cu ildə Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələri respublika birinciliyi, çempionat və digər yarışlarda 287 qızıl, 194 gümüş, 1181 bürünc olmaqla, ümumilikdə 1662 medal, Avropa, dünya birinciliyi və çempionatlarında və digər beynəlxalq yarışlarda 57 qızıl, 51 gümüş, 60 bürünc olmaqla, ümumilikdə 168 medal qazanıb.

Təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib. Ölkənin ümumtəhsil məktəbləri İKT ilə təmin edilib, hər 20 şagirdə bir kompyuter nisbəti təmin olunub. Halbuki 2004-cü ildə hər 1063 şagirdə bir kompyuter düşürdü. İnzibati, pedaqoji və texniki heyət əhatə olunmaqla 54 min nəfər müvafiq treninqlərdən keçərək İKT bacarıqlarına yiyələnib. Təhsil tariximizdə ilk dəfə olaraq fənlər üzrə elektron tədris resursları hazırlanıb məktəblərə verilib, 20 ümumi təhsil müəssisəsində «elektron məktəb» layihəsi həyata keçirilməyə başlanılıb. I-XI siniflər üçün «İnformatika» dərslikləri hazırlanıb, bütün siniflərdə informatikanın tədrisinə başlanılıb. 1000 məktəb genişzolaqlı sürətli internetlə təmin olunub. İnternetə qoşulmuş məktəblərin nisbəti 2004-cü ildəki 1,5 faizdən 2010-cu ildə 22 faizə yüksəlib. Yaradılmış DATA mərkəz, elektron tədris resursları bazası, vahid təhsil portalı səmərəli idarəetməni təmin edir.

Bir şagirdə bir kompyuter konsepsiyasının reallaşdırılması məqsədilə İntel şirkəti ilə birlikdə 400 şagirdə noutbuklar verilib. «Xalq kompyuteri» layihəsi çərçivəsində 9000 müəllim kompyuterlə təmin olunub.

«2005–2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı» başa çatdırılıb, ümumilikdə 6179 müəllim stimullaşdırıcı tədbirlər tətbiq edilməklə respublikanın ucqar kənd məktəblərinə göndərilib, ucqar kənd məktəblərində kadra olan kəskin ehtiyac ödənilib. Respublikanın ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu sahəsində yeni mexanizmlərin tətbiqinə başlanılıb. Ölkə üzrə müəllimlərin işə qəbulu elektron vasitələr əsasında, ikimərhələli müsabiqə mexanizmi tətbiq olunmaqla həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli, 163 nömrəli qərarı ilə "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı bir istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası" təsdiq edilib. Həmin sənəddə ilk dəfə olaraq əlavə təhsilin bütün istiqamətləri üzrə məzmununun çərçivəsi, təhsilin təşkili, təhsilə cəlb olunanlar, monitorinq və qiymətləndirmə, verilən təhsil sənədi, maliyyə mənbəyi və digər məsələlər qaydalar şəklində müəyyən olunub.

Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı

səviyyəsinin yüksəldilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal iştirakının təmin edilməsi vəzifəsini daşıyır. İxtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə, kadrların təkmilləşdirilməsi məsələlərini əhatə edən əlavə təhsil təkrar ali və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini də özündə birləşdirir.

Yeni qaydalarda modul-kredit sisteminə əsaslanan ixtisasartırma təhsilinin tətbiqi nəzərdə tutulub. Modul-kredit sistemi ixtisasartırma təhsilinin 3 modul üzrə (təhsilin əsasları, ixtisas sahələri, təhsildə innovasiyalar və yeni tendensiyalar) təşkilini nəzərdə tutur. Təsadüfi deyil ki, 2010-2011-ci tədris ilində I siniflərdə dərs deyəcək ibtidai sinif müəllimlərinin cəlb olunduğu fənn kurikulumunun tətbiqi üzrə təlimlər yeni ixtisasartırma modelinə uyğun təşkil edilmişdir.

Modul-kredit sisteminə əsaslanan, rəqabət mühitinin yaradılmasını, proqramların akkreditasiyasını, stimullaşdırıcı vasitələrin tətbiqini, karyera inkişafını nəzərdə tutan yeni ixtisasartırma təhsili modeli hazırlanıb və ibtidai sinif müəllimlərinin yeni kurikulum üzrə hazırlığı sahəsində tətbiq edilib.

De-institutlaşma Proqramına əsasən Dövlət Uşaq Müəssisələrinin Transformasiyası üzrə Baş Plan hazırlanıb və 2009-cu ilin aprelində təsdiq edilib. Plana əsasən 9 ümumtəhsil internat məktəb ümumtəhsil məktəbinə çevrilib və dövlət uşaq müəssisələrinin sayı 55-dən 46-ya enib. Təhsil tariximizdə ilk dəfə olaraq Bərdə, Mingəçevir, Bakı şəhərinin Suraxanı, Xəzər və Sabunçu rayonlarında günərzi qayğı və reabilitasiya-inkişaf mərkəzləri yaradılıb. Mərkəzlərin binaları əsaslı təmir edilib, inkişafetdirici təlim materialları, reabilitasiya yönümlü avadanlıqlarla təmin olunub. YUNİSEF-in Bişkek şəhərində keçirilən konfransında Azərbaycanda de-institutlaşdrma sahəsində həyata keçirilən Transformasiya Planı digər ölkələr üçün nümunə kimi qəbul edilib.

Təhsil sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlərlə yanaşı, müstəqillik illərində dövlət səviyyəsində təhsil işçilərinin fəaliyyətinin maddi və mənəvi stimullaşdırılması sahəsində əhəmiyyətli addımlar atılıb. Təhsil tariximizdə ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən «Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında» 4 sentyabr 2007-ci il tarixli sərəncam imzalanıb, 2008, 2009 və 2010-cu illərdə «Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» müsabiqələri keçirilib. Həmin illərdə «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi olmuş 150 təhsil müəssisəsinin hər birinə 10000 manat, «Ən yaxşı müəllim» müsabiqəsinin qalibi olmuş 300 müəllimin hər birinə 5000 manat məbləğində birdəfəlik pul mükafatı verilib. Bu müsabiqə məktəb və müəllimlər arasında sağlam rəqabəti, innovativ fəaliyyəti gücləndirməklə təhsilin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir.

Azərbaycanda təhsilə, təhsil işçilərinə diqqət və qayğının parlaq təzahürüdür ki, 2003-2010-cu illərdə elm və təhsilin inkişafındakı xidmətlərinə görə 1000-dən çox təhsil işçisi yüksək dövlət təltiflərinə, fəxri adlara və fərdi təqaüdlərə layiq görülüb.

Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramına əsasən regionlarda 2 Peşə Tədris Mərkəzi yaradılıb, 2008–2010-cu illərdə 11 texniki peşə təhsili müəssisəsi əsaslı təmir edilib və müasir avadanlıqla təmin olunub. Son 20 ildə müxtəlif peşələr üzrə ilk dəfə olaraq 8 adda dərslik hazırlanıb. YUNESKO, Avropa Komissiyası, Cənubi Koreyanın DAEWOO şirkəti, Heydər Əliyev Fondu və yerli qeyri-hökumət təşkilatları ilə birgə layihələrin icrasına başlanılıb.

Ali təhsilin inkişafı sahəsində mühüm nailiyyətlər əldə olunub, 2005-ci ildə Azərbaycan Boloniya prosesinə qoşulub, Avropa təhsil məkanına inteqrasiya istiqamətində əhəmiyyətli addımlar atılıb. YUNESKO və digər beynəlxalq qurumların sənədlərinə, habelə beynəlxalq təsnifat strukturuna uyğun olaraq ali təhsilin bakalavr səviyyəsi ixtisaslarının (proqramlarının) yeni siyahısı hazırlanıb və təsdiq edilib. 23 ali təhsil müəssisəsi akkreditasiyadan keçib, Təhsil Nazirliyi sistemindəki bütün ali təhsil müəssisələrində kredit sistemi tətbiq edilib. Yeni konsepsiya və strategiya əsasında ibtidai sinif müəllimlərinin hazırlığına başlanılıb.

Ölkənin 7 aparıcı ali təhsil müəssisəsinə (Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət

İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti) muxtariyyət hüququ verilib. Ali təhsil müəssisələrinin infrastrukturunun inkişafı sahəsində əhəmiyyətli işlər görülüb, bütün universitetlərin maddi-texniki bazası əsaslı şəkildə yeniləşdirilib.

«2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın icrası istiqamətində ölkə Prezidenti tərəfindən 10 fevral 2010-cu il tarixli «Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə» fərman imzalanıb. Fərmanda qeyd edildiyi kimi, sürətli dəyişikliklərin baş verdiyi hazırkı vaxtda cəmiyyətin sosial-iqtisadi tərəqqisində, rəqabətədavamlı insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan bilik iqtisadiyyatının qurulmasında ali təhsilin müstəsna rolu vardır. Qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə hər bir ölkənin dinamik inkişafı, uğurlu gələcəyi, inkişaf etmiş ölkələr sırasına daxil olması təhsilin səviyyəsi ilə müəyyən olunur. Bu baxımdan ölkənin malik olduğu təbii sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsi ali təhsilin qarşısında duran əsas vəzifədir. Bütün bu amillər respublikada ali təhsil sahəsində islahatların istiqamətinin dünyada ali təhsilin inkişaf tendensiyalarına uyğun müyyənləşdirilməsi zərurətini qarşıya qoyur.

Həmin amillər nəzərə alınaraq 2010–2011-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrində büdcə vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında həyata keçirilir, dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi ilə ali təhsil müəssisələrində kadr hazırlığının adambaşına maliyyələşdirmə prinsipi tətbiq edilir.

Neft gəlirlərinin insan kapitalının inkişafına yönəldilməsi baxımından «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində həyata keçirilən tədbirlər xüsusilə diqqəti cəlb edir. 2007–2010-cu illərdə 700-dən artıq istedadlı azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib. Onlar Azərbaycan üçün zəruri olan tibb, təbabət elmləri – genetika, mikrobiologiya, mühəndislik, kompyuter elmləri kimi ixtisaslar üzrə təhsil alırlar.

Dünyanın aparıcı universitetlərində müxtəlif mənbələr hesabına 10000-dən çox azərbaycanlı gənc təhsil alır. Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin sayı isə 7000-i ötüb.

Dünya Bankı ilə son 10 ildə təhsil sahəsində səmərəli əməkdaşlıq və həyata keçirilən uğurlu islahatlar nəzərə alınaraq Azərbaycan pilot ölkə kimi müəyənləşdirilib. Digər ölkələrə Azərbaycan təcrübəsinin öyrənilməsi tövsiyə olunub. Əgər əvvəllər təhsil islahatları sahəsində təcrübə qazanmaq üçün xarici ölkələrə təlim səfərləri edilirdisə, 2010-cu ildən başlayaraq Dünya Bankının tövsiyəsinə əsasən xarici ölkələrdən Azərbaycana təlim səfərlərinə gəlirlər.

Son illər ali məktəb elmi sahəsində bir sıra uğurlar əldə edilib. Ali məktəb əməkdaşları tərəfindən 2009-cu ildə 33 doktorluq, 145 namizədlik dissertasiyası müdafiə olunub. Ali məktəblərdə çalışan alimlər tərəfindən 323 monoqrafiya, 308 dərslik, 522 dərs vəsaiti, 1285 adda proqram və metodik ədəbiyyat nəşr etdirilib. Ötən il xarici jurnallarda alimlərin 1736 məqaləsi, beynəlxalq konfransların materiallarında 1279 məruzə tezisi çap olunub. Elmi İnformasiya İnstitutu (Institute for Scientific Information) tərəfindən tərtib edilmiş, təsir əmsalı (impakt faktoru) olan jurnallarda ölkəmizin ali məktəb alimləri tərəfindən 200-dək elmi məqalə dərc edilib.

Ən mühüm hadisələrdən biri – 2009-cu ildə «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi oldu. Qanunun qəbul edilməsi zərurəti, ilk növbədə, ölkədə və dünyada dinamik inkişaf tendensiyaları, o cümlədən təhsil sahəsində əsaslı dəyişikliklərin olması, Azərbaycanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyması, Avropa və dünya təhsil məkanına inteqrasiya istiqamətində mühüm addımlar atması ilə bağlıdır. Təbiidir ki, bütün bu proseslər təhsil qanunvericiliyində, ən vacibi isə «Təhsil haqqında» yeni Qanunda öz əksini tapmalı idi. Bu səbəbdən, qəbul edilmiş Qanun, ölkəmizdə təhsil siyasəti və strategiyasının əsas istiqamətlərini əks etdirməklə yanaşı, ilk növbədə, xalqımıza, Azərbaycanda təhsilin inkişafına xidmət edəcək, milli təhsil sisteminin dünya, Avropa təhsil sisteminə inteqrasiyasını təmin edəcək.

Qanunda 5 yaşlıların məktəbəqədər təhsilə cəlbinin zəruriliyi, hər təhsil pilləsinə qəbul zamanı

məzunların əvvəlki təhsil pilləsindəki nəticələrinin nəzərə alınması, ixtisasartırma təhsilinin nəticələrinin stimullaşdırılması, təhsil sistemində çalışanların yaş senzinin müəyyənləşdirilməsi, təhsil müəssisələrinin maliyyələşdirilməsinin hər təhsilalana düşən xərc normaları nəzərə alınmaqla həyata keçirilməsi, ali təhsilin üçpilləli strukturu və digər yeni məsələlər öz əksini tapıb. Qanunun icrası istiqamətində Təhsil Nazirliyində hazırlanmış 40 adda normativ sənəd Nazirlər Kabineti tərəfindən təsdiq edilib.

Sosial-iqtisadi tərəqqisinə görə Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın dinamik inkişaf göstəriciləri BMT-nin və digər beynəlxalq qurumların müvafiq hesabatlarında da əksini tapır. Belə ki, BMT-nin 2010-cu il üzrə «İnsan inkişafı hesabatı»nda göstərilir ki, 2005–2010-cu illər ərzində Azərbaycan insan inkişafı sahəsində ən sürətli irəliləyişə nail olub. Belə ki, 2005-ci ildə 101-ci yerdə olan Azərbaycan İnsan İnkişafı İndeksinin 1,77 orta illik artım tempi ilə keçmiş sovetlər məkanında öncül mövqeyə çıxıb. Müqayisə üçün qeyd edək ki, Çin və Hindistan kimi ölkələrin İnsan İnkişafı İndeksinin orta illik artım tempi müvafiq olaraq 1,57 və 1,66-ya bərabər olub. BMT-nin 2010-cu il üzrə «İnsan inkişafı hesabatı»nda 34 pillə irəliləyərək 169 ölkə arasında 67-ci pilləyə yüksələn Azərbaycanda əhalinin savadlılıq səviyyəsi isə 99,5 faiz təşkil edir. Bütün bunlar ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların və uğurlu təhsil siyasətinin parlaq təzahürüdür.

Göründüyü kimi, müstəqil Azərbaycanın dövlət siyasətində təhsil ən prioritet istiqamətlərdən biridir. Odur ki, məqsədyönlü dövlət siyasəti sayəsində təhsil sisteminin inkişaf tempinin günbəgün daha intensiv xarakter alması göz önündədir.

Təhsil sahəsindəki çoxillik fəaliyyətim zamanı onu da yəqin etdim ki, milli təhsil quruculuğunda tarixilik, varislik, müasirlik prinsipinə əsaslanmaqla, yəni ötən əsrlərdə xalqımızın təhsil sahəsindəki malik olduğu zəngin irsi, maarifçi ziyalıların və görkəmli şəxsiyyətlərin mütərəqqi ideya və fikirlərini öyrənməklə, onlardan müasir dövrün tələblərinə uyğun bəhrələnməklə böyük nailiyyətlər qazanmaq mümkündür. Çünki milli-ənənəvi təcrübə ümumbəşəri təcrübə ilə inteqrasiyada müasirlik mahiyyəti daşıyır. Ona görə də biz ilkin olaraq təhsil tariximizi, təlim və tərbiyə təcrübəsini mükəmməl öyrənməli, milli qaynaqları üzə çıxarmalıyıq. Bu da səbəbsiz deyil. Belə ki, təhsil sahəsində apardığımız yeniləşmə və təkmilləşmə, ilk növbədə, milli zəmin üzərində qurulmalıdır. Bununla yanaşı, təhsildə köklü məzmun islahatları apararkən yalnız öz bilik və təcrübəmizə deyil, həm də bəşəriyyətin yaratdığı təcrübəyə, dünyagörüşünə və həyat fəlsəfəsinə söykənməliyik. Bəşəriyyətin bu sahədəki təcrübəsi zəngin mənəviyyat xəzinəsidir. Həmin xəzinənin mənəvi sərvətlərinin qiymətli bir hissəsini xalqımızın ta qədimdən bu günə qədər təhsil və tərbiyə ilə bağlı yaratdığı nəzəriyyə və konsepsiyalar, eləcə də onların əməli fəaliyyətləri təşkil edir.

Əlbəttə, danılmaz faktdır ki, sələflərimiz şərəfli bir tarix yaradıblar. Biz onların millətin təkamülündəki xidmətlərini araşdırıb indiki və gələcək nəsillərə çatdırmaq və bu şərəfli yolu davam etdirməyə çalışmaqla öz mənəvi borcumuzu yerinə yetirmiş oluruq.

Beləliklə, oxuculara təqdim olunan bu kitabda ümumi və yığcam şəkildə maarif və təhsilimizin təxminən son bir əsrdəki inkişafında və təkmilləşdirilməsində, ümumi təhsil, texniki peşə, ali və orta ixtisas məktəbləri şəbəkələrinin yaranmasında dövlət qurumu olaraq nazirlik, komissarlıq və komitələrin rolu açıqlanır.

Kitabda Azərbaycan təhsilinin hazırkı səviyyəyə yüksəlməsində bu sahəyə müxtəlif vaxtlarda rəhbərlik etmiş şəxslərin rolunu nəzərə alaraq xalqın maariflənməsi yolunda atılan addımlardan söhbət açılır.

Ümummilli inkişafımızın təməli olan, milli dəyərlərimizin qorunmasında mühüm əhəmiyyət kəsb edən təhsilimizdən, təhsil tariximizdən, təhsil sahəsinə rəhbərlik edən şəxslərin həyat yolundan, fəaliyyətindən bəhs edən bu kitabın hazırlanıb ərsəyə gətirilməsi xüsusi tarixi-pedaqoji, ictimai-mədəni əhəmiyyətə malikdir.

**Misir Mərdanov,**
*Azərbaycan Respublikasının təhsil naziri,*
*əməkdar elm xadimi, professor*

# AZƏRBAYCANIN XALQ MAARİFİ VƏ DİNİ ETİQAD NAZİRLƏRİ



NƏSİB BƏY YUSİF BƏY OĞLU
YUSİFBƏYLİ
(1881—1920)

**Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olub**

**1906-cı ildə Krımın Bağçasaray şəhərinə köçüb, böyük tatar mütəfəkkiri və publisisti İsmayıl bəy Qaspıralının (1851–1914) «Tərcüman» qəzetində çalışıb**

**Xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb (1918–1919)**

Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olub.

Qədim milli və tarixi ənənələr yaşadılan Gəncədə elin hörmət və ehtiramını qazanmaq hər ailəyə, hər kəsə qismət olmayıb. XIX əsrin 80-ci illərində belə nüfuzlu ailələrdən biri də Nəsib bəyin atası Yusif bəy Yusifbəylinin ocağı idi. Sankt-Peterburqda ali təhsil almış Yusif bəy Yusifbəylinin həyat yoldaşı Cəmilə xanım məşhur Xanbudaqovlar nəslindən idi. Onun atası Böyük bəy Xanbudaqov 1840-cı illərdə Şəkidən Gəncə yaxınlığındakı Borsunlu kəndinə köçərək orada məskunlaşıb.

Gəncə klassik gimnaziyasını bitirdikdən sonra 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olan Nəsib bəy Yusifbəyli təhsil almaqla bərabər, həm də milli azadlıq hərəkatına qoşulub, azərbaycanlı tələbələrin «Həmyerlilər» təşkilatının rəhbərlərindən birinə çevrilib. Universitetdə baş verən hadisələrə görə tədris ocağı bağlanır, fəal tələbələr ciddi təqiblərlə üzləşirlər. Nəsib bəy Yusifbəyli çar xəfiyyələrinin təqibindən yaxa qurtarmaq üçün 1906-cı ildə Krımın Bağçasaray şəhərinə köçüb, böyük tatar mütəfəkkiri və publisisti İsmayıl bəy Qaspıralının (1851–1914) «Tərcüman» qəzetində çalışıb. İctimai-siyasi mövzulu məqalələri ilə oxucu auditoriyası qazanan Nəsib bəy Yusifbəyli Qaspıralının qızı Şəfiqə xanımla (1886–1975) ailə qurub. Bu nikahdan Niyazi və Zəhra adlı iki övladı olan Nəsib bəy buradakı təqiblərdən yaxa qurtarmaq üçün İstanbula köçüb (1908), publisistik fəaliyyətilə bərabər, həm də «Türk dərnəyi» cəmiyyətinin təşkili ilə məşğul olub. Bir il sonra Vətənə dönüb, Gəncə şəhər bələdiyyəsində çalışıb. 1911-ci ildə «Mədrəseyi-ruhaniyyə» məktəbində çalışıb, «Molla Nəsrəddin» jurnalına və qəzetlərə məqalələr göndərib, «Müsəlman xeyriyyə cəmiyyəti», «Müsəlmanların maariflənməsi cəmiyyəti», «Aktyorlar cəmiyyəti»nin fəaliyyətində



Nəsib bəy Yusifbəyli ən yaxın məsləkdaşları ilə birlikdə

yaxından iştirak edib. Bu zaman Məmməd Əmin Rəsulzadə ilə tanış olub və ictimai-siyasi fəaliyyətə başlayıb.

Bu illər ərzində, sözün həqiqi mənasında, qısa bir ömrə sığmayan ictimai-siyasi işlər görüb. Mirzə Fətəli Axundovun anadan olmasının 100 illiyi münasibətilə Gəncədə Azərbaycan dilində ilk kitabxana təsis edib. «Türk Sosial-Federalist İnqilabi Komitəsi» adı ilə fəaliyyətə başlamış (1905) təşkilatın əsasında qardaşı Həmid bəy Yusifbəyli, Ələkbər bəy Rəfibəyli, Ələsgər bəy Xasməmmədovla birlikdə «Qeyrət» təşkilatını yaradıb.

**Nəsib bəy Yusifbəyli Həmid bəy Yusifbəyli, Ələkbər bəy Rəfibəyli, Ələsgər bəy Xasməmmədovla birlikdə «Qeyrət» təşkilatını yaradıb**

Azərbaycanın taleyində son dərəcə mühüm rol oynayan Gəncə Milli Komitəsinin sədri kimi fəaliyyət göstərib. Mühüm hadisələr tarixi kimi, onun həyatında 1917-ci ilin izi qalıb. Belə ki, fevral burjua inqilabından sonra dərin siyasi-hüquqi təfəkkür sahibi olan Nəsib bəy «Türk Ədəmi-Mərkəziyyət» partiyasını yaradıb.

**Nəsib bəy Yusifbəyli 1918-ci il aprelin 22-də elan olunmuş Zaqafqaziya Demokratik Federativ Respublikasının xalq maarifi naziri təyin edilib**

Rusiya Müəssislər Məclisinə (Parlamentinə) Gəncədən üzv seçilən Nəsib bəy Yusifbəyli 1918-ci il aprelin 22-də elan olunmuş Zaqafqaziya Demokratik Federativ Respublikasının xalq maarifi naziri təyin edilib. Həmin il mayın 27-də Tiflisdə yaradılmış Milli Şuranın üzvü olan Nəsib bəy, Fətəli xan Xoyskinin təşkil etdiyi Hökumət Kabinetində də məhz xalq maarifi və dini etiqad naziri vəzifəsini icra edib.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Nəsib bəy Yusifbəyli çağdaş milli dövlətçilik tarixinə «Müstəqil Azərbaycan» ideyasının müəllifi və onu gerçəkləşdirən görkəmli siyasi və dövlət xadimlərindən biri kimi daxil olmuşdur. O, həm də XX əsr Azərbaycan təhsil, elm və mədəniyyəti tarixinə şanlı səhifələr yazmış böyük maarifçi, gələcək nəsillərə örnək olan əsl milli ziyalı kimi tanınmışdır. Milli hökumətə bir ilə yaxın rəhbərlik etmiş Nəsib bəyin adı Xalq Cümhuriyyətinin banilərindən olan Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev kimi məşhur dövlət xadimlərinin adları ilə yanaşı çəkilir. Məşhur 1918-ci il 28 may tarixli «İstiqlal Bəyannaməsi»ni imzalayan səkkiz istiqlal



Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü Hökumət Kabinetinin rəhbəri Nəsib bəy Yusifbəyli (birinci sırada ortada) hökumət üzvləri ilə birlikdə (1919)

**Nəsib bəyin təklifi ilə Bakı Dövlət Universiteti açılıb, 100 nəfər azərbaycanlı gənc xaricdə oxumağa göndərilib**

mücahidindən, Milli Şura üzvlərindən biri olan Nəsib bəyin Xalq Cümhuriyyətinin qurulmasındakı tarixi xidmətlərindən danışarkən Məmməd Əmin Rəsulzadə hələ 1929-cu ildə yazırdı: «Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir... Bu, Nəsib bəy ismini (adını) Azərbaycan tarixində ölməz və unudulmaz bir isim halına qoymaq üçün kafidir...»

1919-cu ilin mart ayında yeni hökumətin rəhbərliyinə keçdiyi üçün xalq maarifi və dini etiqad naziri vəzifəsindən kənarlaşsa da, bu sahəni diqqətdən kənarda qoymayıb. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət istefaya gedəndən sonra yeni hökumət təşkil edən baş nazir Nəsib bəy Yusifbəyli daxili işlər naziri vəzifəsini də icra edib. 1920-ci ilin martına qədər dünyanın böyük dövlətləri Azərbaycanın istiqlaliyyətini tanıyıb, çoxminli ordu formalaşdırılıb, Nəsib bəyin təklifi ilə Bakı Dövlət Universiteti açılıb, 100 nəfər azərbaycanlı gənc xaricdə oxumağa göndərilib, torpaq islahatı haqqında qanun layihəsi hazırlanıb, Azərbaycanın milli pulu dövriyyəyə buraxılıb. Azərbaycan Müəllimlərinin III Qurultayının keçirilməsində də Nəsib bəyin xüsusi rolu qeyd olunmalıdır.

Milli hökumətin Tiflisdən Gəncəyə gəlişinin ilk günlərindən aktiv milli təhsil siyasəti və quruculuğuna girişən maarif naziri, böyük ziyalı Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Xalq Maarifi və Dini Etiqad Nazirliyinin strukturu təsdiq edilir, ölkədə fəaliyyət göstərən bütün maarif və mədəniyyət ocaqları, məktəblər onun tabeçiliyinə verilir. Nəsib bəyin maarif sahəsində atdığı ilk addımlardan biri yüksək vəzifələrə azərbaycanlıları irəli çəkməsi olub. Qaynaqlar göstərir ki, 1918-ci ilin təkcə avqust ayı ərzində azərbaycanlıların sıx yaşadığı Gəncə, Şuşa, Cavanşir, Zəngəzur qəzalarının xalq maarifi müfəttişliyində çalışan milliyyətcə erməni və rus rəhbər maarif işçiləri vəzifələrindən azad edilib, onların yerinə milli kadrlar təyin olunub.



Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının iclası (1918)

Nəsib bəy Yusifbəylinin nazir olduğu müddətdə xalq maarifinin milli konsepsiya əsasında təşkili ön plana çəkilib, ümumi icbari təhsil layihələri hazırlanıb, kənd və şəhərlərdə yeni məktəblər açılıb, milli məktəblər üçün müəllim hazırlanması probleminin həllinə diqqət artırılıb, Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Firidun bəy Köçərlinin təşəbbüsü və səyi ilə Qazaxa köçürülüb fəaliyyətə başlaması reallaşdırılıb.

Təhsildə milliləşmə prosesində yaranan çətinlikləri nəzərə alan Nəsib bəy nazirliyin təklifi ilə şəhərlərdə Dövlət dilini məcburi fənn kimi tədris etmək şərtilə paralel olaraq rus bölmələrinin yaradılmasına razılıq verir. Həmin dövrdə azərbaycanlı uşaqların yalnız milliləşdirilmiş məktəblərdə təhsil almaları tələb edilirdi. Lakin müstəsna hallarda ana dilində danışa bilməyən uşaqlar Xalq Maarifi Nazirliyinin xüsusi razılığı ilə rusca təhsilə buraxıla bilərdi.

Tarixi ədalət naminə deməliyik ki, təhsildə bu cür milliləşmə siyasəti milli təhsil tarixində müstəsna rolu olan tarixi addım oldu. Məhz Nəsib bəy Yusifbəylinin birbaşa rəhbərliyi ilə hazırlanıb həyata keçirilən həmin qərarlar sayəsində Azərbaycanda ümumi təhsil müəssisələrində tədrisin təşkilinin ana dilində aparılmasına dair milli maaifçilərin yüz illərlə arzuladıqları milli ideya gerçəkləşdi. Azərbaycan türkcəsi Dövlət dili statusu qazandı, ana dilimiz əsas təlim-tərbiyə, təhsil dilinə çevrildi.

1919-cu ildə Azərbaycanda dövlət orta təhsil müəssisələrinin sayı 23-ə çatdırılıb, 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 «Müqəddəs Nina» qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi fəaliyyət göstərib. Bakı Qadın Seminariyası Kişi Seminariyasına çevrilib, orada təhsil alanlar üçün pansion açılıb.

**Nəsib bəy Yusifbəylinin nazir olduğu müddətdə xalq maarifinin milli konsepsiya əsasında təşkili ön plana çəkilib, ümumi icbari təhsil layihələri hazırlanıb, kənd və şəhərlərdə yeni məktəblər açılıb, milli məktəblər üçün müəllim hazırlanması probleminin həllinə diqqət artırılıb**



Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə qarşılanması (1918)

**1918–1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirilib, Bakıda darülmüəllimin və darülmüəllimat, Nuxada darülmüəllimin açılıb, Zaqatala, Ağdam və Şuşada belə müəssisələrin yaradılması qərara alınıb**

1918–1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirilib, Bakıda darülmüəllimin[1] və darülmüəllimat[2], Nuxada darülmüəllimin açılıb, Zaqatala, Ağdam və Şuşada belə müəssisələrin yaradılması qərara alınıb. Milliləşdirilmiş məktəblərdə ümumi türk tarixi, təlim rus dilində olan tədris ocaqlarında həftədə 3–4 saat Azərbaycan dili keçirilirdi. Orta təhsilin milliləşdirilməsi reallaşdırılıb, Abdulla Şaiqin təşəbbüsü ilə bütün dərslər rus dilində keçilən Bakı I realnı məktəbində Azərbaycan dili üzrə üçaylıq kurs açılıb.

Bir tərəfdən elmi və pedaqoji kadrlar hazırlamaq üçün ali və orta ixtisas məktəbləri açılıb, o biri tərəfdən nəşriyyat-tərcümə komissiyasının köməyi ilə dərsliklər hazırlanıb çap etdirilib. Həmin dövrdə «Türk əlifbası və ilk qiraət», «Türk qiraəti», «Yeni məktəb», «Rəhbəri-sərf», «Tazə elmül-hesab», «Ədəbiyyat dərsləri», «Son türk əlifbası», «Hesab məsələləri məcmuəsi», «Rəhbəri-cəbr», «Milli qiraət», «Müntəxəbat», «Türk ədiblərindən nümunələr» və digər dərsliklər nəşr olunub.

1920-ci ilin martına qədər baş nazir vəzifəsində çalışmış Nəsib bəy Yusifbəyli Aprel çevrilişindən sonra Parlamentin axırıncı iclasından qayıdıb ailəsi ilə son görüşündə: «Fələk məni çox yüksəltdi. Fəqət mən dünyanın ən bədbəxt insanıyam» — söyləyib. Həmin il may ayının əvvəllərində Nəsib bəy Yusifbəyli ölkədəki xaos və özbaşınalıqdan istifadə edən quldurlar tərəfindən qətlə yetirilib.

İnanırıq ki, «Müstəqil Azərbaycan» ideyasının və təhsil sisteminin milliləşdirilməsi konsepsiyasının müəllifi, böyük maaifçi Nəsib bəy Yusifbəylinin ruhu bu gün şaddır. Çünki onun arzuladığı müstəqil Azərbaycan Respublikası hazırda dünyanın iqtisadi-siyasi və mədəni cəhətdən inkişaf etmiş ölkələri sırasında layiqli yer tutur. Uğrunda mübarizə apardığı anadilli təhsil sistemi çoxdan reallığa çevrilib, hazırda Azərbaycan təhsili sürətlə dünya təhsil sisteminə inteqrasiya olunmaqdadır...

[1] **darülmüəllimin**— ərəb sözüdür, kişi müəllimlər hazırlayan müəssisə

[2] **darülmüəllimat**—ərəb sözüdür, qadın müəllimlər hazırlayan müəssisə



RƏŞİD XAN ZAVİD OĞLU
QAPLANOV
(1883–1937)

**Rəşid xan Zavid oğlu Qaplanov 1883-cü ildə Dağıstanın Xasavyurd qəzasının Ağsay kəndində anadan olub**

**Xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb (1919)**

**Onun rəhbərliyi ilə Bakıda və Azərbaycanın bir çox şəhərlərində yeni məktəblər fəaliyyətə başlayıb**

Rəşid xan Zavid oğlu Qaplanov 1883-cü ildə Dağıstanın Xasavyurd qəzasının Ağsay kəndində anadan olub.

Milliyyətcə Şimali Qafqazda yaşayan qumuq türklərindən olan Rəşid xan Qaplanov Vladiqafqazda realnı məktəbdə oxuyub, Parisdəki Sorbonna Universitetinin hüquq fakültəsini bitirib.

Ali təhsil aldıqdan sonra İstanbula (Türkiyə) dəvət olunub, 1913-cü ilə qədər burada pedaqoji fəaliyyət göstərib. O, bu müddətdə Osmanlı tarixini və ədəbiyyatını dərindən öyrənib.

1913-cü ildə Vladiqafqaza qayıdan Rəşid xan Qaplanov şəhər dairə məhkəməsində andlı müvəkkil müavini vəzifəsində çalışıb.

Rusiya imperiyasını sarsıdan Fevral burjua inqilabından sonra Şimali Qafqazda güclənən siyasi hadisə və proseslərdə fəallıq göstərib, Çərkəz–Dağıstan və Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətlərində müxtəlif nazir vəzifələrində çalışıb.

1919-cu ildən Bakıda yaşayan Rəşid xan Qaplanov Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğunda fəal iştirak edib. 4-cü Hökumət Kabinetində xalq maarifi və dini etiqad naziri vəzifəsinə təyin olunub. Onun rəhbərliyi ilə Bakıda və Azərbaycanın bir çox şəhərlərində yeni məktəblər fəaliyyətə başlayıb, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti təhsil sahəsində uğurlu addımlar atıb. Bakı Dövlət Universitetinin açılmasında yaxından iştirak edib, eyni zamanda burada «Osmanlı ədəbiyyatı tarixi»ndən dərs deyib.

O, 100 nəfər azərbaycanlı gəncin xaricdə ali təhsil almağa göndərilməsini təşkil edib. Həmin dövrdə Bakıda Azərbaycan müəllimlərinin III qurultayı keçirilib. Ümumi təhsilin məzmunu sahəsində islahatlar üzrə Hökumət Komissiyası yaradılıb, nəhayət, əlifba islahatı sahəsində Dövlət Komissiyası fəaliyyətə başlayıb.

Azərbaycanın müstəqilliyə qovuşması digər milli-mənəvi dəyərlərlə yanaşı, XX əsr təhsil tarixinin, o cümlədən milli tariximizin mühüm bir sahəsi olan Bakı Dövlət Universitetinin həqiqi tarixinin yazılmasına tarixi imkan və şərait yaradıb. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, «...universitetinin tarixini ədalətli, düzgün yazmaq üçün indi gözəl şərait yaranmışdır. Amma bu, təkcə universitetin tarixi deyil, bu, Azərbaycan xalqının tarixidir, Azərbaycan Respublikasının tarixidir, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tarixidir. Ona görə də onu təhrif etmək olmaz...»

Bu mənada Bakı Dövlət Universitetinin təsis edilməsi ilə bağlı bəzi tarixi məqamlara yenidən işıq salmaq, tarixi həqiqətləri ictimaiyyətə düzgün təqdim etmək olduqca faydalıdır.

Doğrudur, Cümhuriyyətin 4-cü Hökumət Kabinetinin proqramında Tiflisdəki Zaqafqaziya Universitetinin Bakıya köçürülməsi nəzərdə tutulub, nazir müavini Həmid bəy Şahtaxtinskinin rəhbərliyi ilə Tiflis hökuməti ilə intensiv danışıqlar aparılıb. Bu barədə Vasili İvanoviç Razumovski yazırdı: «1919-cu ilin əvvəlində Azərbaycan Cümhuriyyəti xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtinski Tiflis şəhərinə gəldi. O, rus universitetini Bakıya köçürmək təklifi ilə gəlmişdi, ...yaxşı binalar, maddi təminat və s. vəd etdi...»

Universitet rəhbərliyi bu təklifi qəbul etsə də, ermənilərin qeyri-konstruktiv mövqeyi bu məsələnin həllinə imkan vermədi. Belə olan halda, Cümhuriyyət hökuməti Bakıda müstəqil universitet yaratmaq qərarına gəlir. Hökumətin tapşırığı ilə Zaqafqaziya Universitetinin rektoru Vasili İvanoviç Razumovski Bakıya dəvət edildi. Həmin il aprelin sonunda Bakıya gələn Vasili İvanoviç Razumovski xalq maarifi naziri Rəşid xan Qaplanov və onun müavini Həmid bəy Şahtaxtinski ilə geniş müzakirələr apararaq Bakıda universitet təsis edilməsi işinə rəhbərliyi öz üzərinə götürdü. Hökumət 1919-cu il mayın 19-da Xalq Maarifi Nazirliyi yanında Universitet Komissiyası haqqında Əsasnaməni və komissiyanın tərkibini təsdiq etdi. Komissiyanın ilk iclasında maarif naziri Rəşid xan Qaplanov Universitet Komissiyası üzvləri qarşısında çıxış edərək, universitetin açılışı barədə Azərbaycan hökumətinin qəti qərarını onların nəzərinə çatdırdı. Xatırladaq ki, həmin komissiyaya geniş hüquqlar verilmişdi. Belə ki, komissiya üzvləri hökumət başçısınadək hər bir yüksək vəzifə sahibinə müraciət edə bilirdilər. Hökumət 1919-cu il iyunun 16-da Universitet Komis-

**Bakıya gələn Vasili İvanoviç Razumovski xalq maarifi naziri Rəşid xan Qaplanov və onun müavini Həmid bəy Şahtaxtinski ilə geniş müzakirələr apararaq Bakıda universitet təsis edilməsi işinə rəhbərliyi öz üzərinə götürüb**

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ali təhsil almaq üçün xaricə göndərdiyi tələbələrdən bir qrupu (1919)



**Bakıda universitetin təsis edilməsi ilə bağlı Qanun layihələri Parlamentin 1919-cu il 21 avqust tarixli 67-ci iclasının gündəliyinə salınıb**

siyasının ştatlarını təsdiq edib, işçilərin maaşlarını müəyyənləşdirdi. Komissiyaya qısa müddətdə universitetin təsis edilməsi, nizamnaməsi və universitetin 1919–1920-ci dərs ili üçün ştat və xərclər smetası haqqında Qanun layihələrinin hazırlanması tapşırıldı. Komissiya tezliklə həmin Qanun layihələrini hazırlayıb hökumətə təqdim etdi. Azərbaycan hökumətinin 1919-cu il 7 iyul tarixli qərarı ilə həmin Qanun layihələrini bəyənərək Parlamentin müzakirəsinə təqdim etdi. Təxminən iki aya yaxın müddətdə həmin Qanun layihələri Parlamentin müxtəlif komissiyalarında ətraflı müzakirə olundu.

Çox gərgin mübahisə və qızğın müzakirələrdən sonra Bakıda universitetin təsis edilməsi ilə bağlı Qanun layihələri Parlamentin 1919-cu il 21 avqust tarixli 67-ci iclasının gündəliyinə salındı. Bu tarixi iclasa sədrlik edən böyük maarifçi Sultan Məcid Qənizadə Qanun layihələrinin müzakirəsinə başlamağı təklif etdi. Katib Mehdi bəy Hacınski həmin sənədlərin məzmunu ilə Parlament üzvlərini tanış edir. Parlamentdə ilk söz alan «İttihad» fraksiyasının rəhbəri Qara bəy Qarabəyov universitetdə tədrisin rus dilində aparılacağını əsas gətirərək, Qanun layihələrinin müzakirəsinin dayandırılmasını, layihələrin yenidən komissiyalara qaytarılmasını təklif edir və məsələnin səsə qoyulmasını tələb kimi irəli sürür. Parlamentdə səsə qoyulan təklif səs çoxluğu ilə qəbul edilir və universitetin təsis olunması ilə bağlı məsələ gündəlikdən çıxarılır. Universitetin 1919–1920-ci dərs ilinin əvvəlində açılması haqqında hökumətin planları və Universitet Komissiyasının gördüyü işlər təhlükə altına düşür. Əvvəla, Bakıda universitet təsis etmək istəyənlər yaxşı dərk edirdilər ki, bu məsələ yeni dərs ilinin əvvəlinə kimi həll edilməsə, mütləq uzanacaq, bu müqəddəs işin sonrakı taleyi isə bilinməyəcəkdir. Bu narahatlığı və təhlükəni Parlamentdəki çıxışında maarif naziri Rəşid xan Qaplanov belə ifadə edirdi: «Layihəyi bərayi-tədqiq (araşdırmaq məqsədilə) fraksiyalara göndərərsək, vaxt qeyb olacaq. Əmin olun ki, darülfünun bu sənə (il) açılmayacağı kimi, gələcək sənə də açılmayacaq...»

Digər tərəfdən, ölkə daxilində siyasi vəziyyət mürəkkəbləşmiş, ingilis qoşunları avqustun əvvəlində Azərbaycanı tərk etmiş, Şimal təhlükəsi isə Vətənin başı üzərində «Damokl qılıncı» kimi asılmışdı. Məsələ çox ciddi idi: universitetin yaradılması mütləq indi həll edilməli idi. Əks halda, bu məsələ də bir ideya olaraq tarixin arxivinə düşə bilərdi. Bütün bu tarixi reallığı və universitet açılmasının milli dövlətçiliyimiz, elm, təhsil və mədəniyyətimizin tərəqqisi üçün böyük əhəmiyyətini dərindən dərk edən Parlamentin bir çox üzvləri – siyasi, dövlət və maarif xadimləri Bakıda universitetin təsis edilməsinə dair Qanun layihələrinin iclasın gündəliyindən çıxarılması haqqında qərara qəti etiraz səslərini ucaltdılar. Parlamentdə böyük nü-

fuzu və çoxlu tərəfdarları olan Məmməd Əmin Rəsulzadə ilk olaraq söz aldı və milli təhsil tariximiz üçün çox önəmli bir tarixi çıxış etdi. Onun ardınca maarif naziri Rəşid xan Qaplanov, Səmədağa Ağamalıoğlu, Mustafa Məmmədov və başqaları çıxış edərək, Bakıda universitet açılmasının ümummilli, ümumdövlət və ümumbəşəri əhəmiyyətini əsaslandırdıqdan, dörd saatdan artıq sürən gərgin müzakirələrdən sonra Parlament öz qərarına yenidən baxmaq və universitetin təsisinə dair Qanun layihələrinin müzakirəsinə başlamaq haqqında qərar qəbul etmək məcburiyyətində qaldı.

Sonralar Vasili İvanoviç Razumovski bu tarixi hadisələri xatırlayaraq həmin məsələnin müsbət həllində fədakarlıq, əsl vətənpərvərlik nümunəsi göstərən insanları «universitetin və maarifin həqiqi dostları» adlandırır, onlar içərisində Məmməd Əmin Rəsulzadəni, Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Rəşid xan Qaplanov, Həsən bəy Ağayev, Səmədağa Ağamalıoğlu və başqalarının əməyini xüsusi olaraq nəzərə çatdırırdı. Həqiqət naminə deməliyik ki, Bakıda «universitetin və maarifin həqiqi dostları» həmin elm-təhsil ocağını milli müstəqilliyin, demokratik, dünyəvi dövlətin əsas atributlarından biri sayır, bunun xalqın intellektual potensialının, elm, təhsil və mədəniyyətinin, milli özünüdərkinin inkişaf etdirilməsinə, millətimizin müstəqil və azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etməyə xidmət edəcəyinə inanırdılar.

**Bakı Dövlət Universitetini yaradanlar bu tədris ocağını milli müstəqilliyin, demokratik, dünyəvi dövlətin əsas atributlarından biri sayır, bunun xalqın intellektual potensialının, elm, təhsil və mədəniyyətinin, millətimizin müstəqil və azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etməyə xidmət edəcəyinə inanırdılar**

Maarif naziri Rəşid xan Qaplanov parlamentdəki çıxışında bu haqda demişdi: «Biz məsələni dövlətin mənafeyi nöqteyinəzərindən tədqiq və mülahizə etməliyik. Biz cahana elan edirik ki, hürr yaşamağa haqlı müstəqil millətik, bunu yalnız elanımız kafi deyildir. Təzahürati-milliyyəmizi (milli varlığımızı) daha ziyadə təhdid etmək və onu atiyə (gələcəyə) hazırlamaq lazımdır. Biz millətin ruhunu bu surətlə yüksəldərsək, əmin olalım ki, istiqbalda (gələcəkdə) fənalıqların (çətinliklərin) önünü almış və millətimizi fəlakətdən qurtarmış oluruq. İştə, o ruhu yüksəldəcək bir elm ocağı lazımdır ki, o da darülfünundan başqa bir şey deyildir. Darülfünunun mövcudiyyəti ilə biz Vətənimizi daha başqa surətdə Avropaya qarşı göstərəcək və yaşamağa layiq bir millət olduğumuzu da bu surətlə isbat edəcəyik...»

Rəşid xan Qaplanov Parlamentdəki çıxışının sonunda böyük uzaqgörənliklə demişdir: «Elm məbədinə dərəcəyi-hörmətlə, camelərə, məscidlərə girərkən ayaqqabılarımızı çıxaran kimi, bu elm məbədinə də girərkən mülahizəti-şəxsiyyə (şəxsi mülahizələri), siyasiyyə və firqə nizayilərini (siyasi maraqları) unudaraq girməliyik. Əminəm ki, bu darülfünuna istiqbalimilliyəmizi (millətin xoşbəxt gələcəyini) təminedici bir məbəd, elm nəzəri ilə baxacağıq...»

Azərbaycan Xalq Cümhuriyyətinin 5-ci Hökumət Kabinetində Rəşid xan Qaplanov maliyyə naziri təyin olunub,

**Azərbaycan Xalq Cümhuriyyətinin 5-ci Hökumət Kabinetində Rəşid xan Qaplanov maliyyə naziri təyin olunub, dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərib**

dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərib.

O, 1920-ci il fevralın əvvəlində Bakı bonlarının Zaqafqaziya pullarına dəyişdirilməsini dayandırmaq barədə qərar verdi. Aprel işğalından (1920) bir həftə əvvəl Batuma ixrac edilən neft və neft məhsulları üçün rüsumların yalnız Azərbaycan pulu ilə ödənilməsi haqqında sərəncam imzaladı.

1920-ci ilin iyununda Bakıda həbs olunaraq, əvvəlcə Vladiqafqaza, sonra isə Moskvaya göndərildi. Uzun sürən istintaq və işgəncələrdən sonra azadlığa çıxan Rəşid xan Qaplanov 1920–1930-cu illərdə Moskvadakı Şərq Xalqları Universitetində «Osmanlı imperiyası tarixi»ndən dərs deyib, eyni zamanda, vəkil kimi fəaliyyət göstərib.

Sonra Rəşid xan Qaplanov yenidən repressiyaya məruz qalıb, 1937-ci ildə dünyasını dəyişib.



HƏMİD BƏY XƏLİL OĞLU
ŞAHTAXTİNSKİ
(1880–1944)

**Həmid bəy Xəlil oğlu Şahtaxtinski 1880-ci il martın 12-də Azərbaycanın Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olub**

**Naxçıvan 3-cü dərəcəli şəhər məktəbində təhsilini başa vurduqdan sonra İrəvan Müəllimlər Seminariyasında oxuyub**

**Xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb (1919–1920)**

Dövrünün tanınmış siyasi və ictimai xadimi Həmid bəy Xəlil oğlu Şahtaxtinski 1880-ci il martın 12-də Azərbaycanın Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olub.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimlərindən olan Həmid bəy Şahtaxtinskinin adı XX əsr Azərbaycan dövlətçiliyi və təhsili tarixində şərəfli yerlərdən birini tutur. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş Milli Şuranın üzvü olan Həmid bəy İstiqlal Bəyannaməsinin qəbuluna səs vermiş, 1918-ci il dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü kimi milli dövlətçilik tarixinə imza atmış böyük tarixi şəxsiyyətlərdən biridir. O, həm görkəmli təhsil təşkilatçısı, böyük maarifçi kimi də milli təhsil tariximizə öz şərəfli adını həkk edib, Xalq Cümhuriyyətinin 2, 3, 4-cü hökumət kabinetlərində maarif nazirinin müavini, 5-ci Hökumət Kabinetində isə (24.12.1919–01.04.1920) maarif və dini etiqad naziri kimi Azərbaycanın milli təhsil salnaməsinə şanlı səhifələr yazmışdır.

Həmid bəy Xəlil oğlu Şahtaxtinski ilk təhsilini mollaxanada alıb. Naxçıvan 3-cü dərəcəli şəhər məktəbini bitirən Həmid bəy İrəvan Müəllimlər Seminariyasına daxil olub, 1899-cu ildə oranı uğurla bitirib. Yüksək istedadı ilə seçilən Həmid bəy seminariyada saxlanılıb, rus və Azərbaycan dilləri müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. Seminariyadakı pedaqoji fəaliyyətlə yanaşı, o, Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü kimi azərbaycanlılar arasında maarifin yayılmasına köməklik göstərib.

Ali təhsil almaq arzusu ilə Odessaya gedən Həmid bəy Şahtaxtinski, oradakı Novorossiysk Universitetinin hüquq fakültəsinə daxil olub. Təhsil illərində həmin universitetdə azərbaycanlı tələbələr tərəfindən yaradılmış «Azərbaycan Həmyerliləri» təşkilatının (xatırladaq ki, vaxtilə bu təşkilatda Nəsib bəy Yusifbəyli, Nəriman Nərimanov, Xosrov bəy Sultanov və başqaları fəaliyyət göstəriblər) rəhbərlərindən biri kimi siyasi fəaliyyətə başlayıb. 1912-ci ildə həmin universitetin hüquq fakültəsini bitirən Həmid bəy Gəncəyə gəlib, şəhərin ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edib.

1914-cü ildə Gəncə quberniyasının xalq məktəbləri inspektoru vəzifəsinə təyin edilən Həmid bəy maarifçiliklə yanaşı, Gəncə şəhər dairə məhkəməsində andlı müvəkkilin yardımçısı (müavini) vəzifəsində vəkilliklə də məşğul olub. O, 1916-cı ildə Bakıya köçərək, şəhər dairə məhkəməsində eyni vəzifədə vəkillik fəaliyyətini davam etdirib.

1917-ci ildə Rusiyada baş verən Fevral çevrilişindən sonra Həmid bəy həmin ilin payızında yaradılan «İttihadi-İslam» («İslam Birliyi») partiyasına üzv olub. Həmin ilin avqustundan Cənubi Qafqaz Təhsil Dairəsi üzrə inspektor kimi təhsilin idarə olunmasında fəal iştirak edib.

Həmid bəy Şahtaxtinski Azərbaycanda Xalq Cümhuriyyəti qurulduqdan və Müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçdükdən sonra (16.06.1918) ölkənin maarif və dini etiqad naziri vəzifəsindən istefa verənədək (05.04.1920) Azərbaycanın maarif sisteminə rəhbərlik edənlərdən biri kimi təhsil müəssisələrinin milliləşdirilməsinə, ölkənin şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına böyük əmək sərf edib. Azərbaycanın ümumtəhsil məktəbləri üçün milli dərsliklərin hazırlanması, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə hökumət komissiyalarının sədri olmuş Həmid bəy yeni Azərbaycan Əlifbası üzrə Dövlət Komissiyasının üzvü kimi də təhsil quruculuğu və əlifba islahatları işinə əvəzsiz töhfələr verib.

**Həmid bəy Şahtaxtinski Azərbaycanda təhsil müəssisələrinin milliləşdirilməsinə, ölkənin şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına böyük əmək sərf edib**

Məktəb islahatı sahəsində məsələləri müzakirə etmək, müəyyən təkliflər hazırlayıb hökumətə təqdim etmək məqsədilə Nazirlər Şurasının qərarı ilə 1919-cu il avqustun 20-dən sentyabrın 1-dək Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin III qurultayına maarif nazirinin müavini Həmid bəy Şahtaxtinski rəhbərlik edib, qurultayda geniş nitq söyləyib.

**Azərbaycan müəllimlərinin III qurultayına maarif nazirinin müavini Həmid bəy Şahtaxtinski rəhbərlik edib, qurultayda geniş nitq söyləyib**

Qurultayın Xalq Maarifi Nazirliyinə təqdim etdiyi təkliflər əsasında məktəb islahatı, o cümlədən ümumi təhsilin məzmunca milliləşdirilməsini nəzərdə tutan proqram və dərslik islahatı üzrə Dövlət Proqramı hazırlamaq məqsədilə 1919-cu il noyabrın 7-də Xalq Maarifi Nazirliyi yanında Həmid bəy Şahtaxtinskinin sədrliyi ilə Hökumət Komissiyası yaradılıb. Həmin Komissiya yeni məzmunlu milli dərsliklərin hazırlanması işinə böyük töhfələr versə də, Aprel işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu səbəbindən həmin islahat proqramını axıradək reallaşdırmaq mümkün olmayıb.

Həmid bəy Şahtaxtinski bunlarla yanaşı, Bakı Dövlət Universitetinin yaradılmasında xüsusi xidmətlər göstərib, universitetdə rus dili və ədəbiyyatından dərs deyib, bir müddət prorektor kimi tədrisin təşkilinə böyük əmək sərf edib.

Sovet hakimiyyəti illərində də Həmid bəy universitetdə prorektor (1920–1925) kimi fəaliyyətini davam etdirib, Bakı Xalq Maarifi şöbəsinin nəzdindəki ikiillik Müəllimlər İnstitutunda dərs deyib. O, 1928-ci ildə Tiflisdəki Zaqafqaziya Universitetinin tibb fakültəsini bitirib, Azərbaycan Tibb İnstitutunda (1930–1940) professor kimi çalışıb.

Həmid bəy əslən Şahtaxtı kəndindən olan xalası qızı Səkinə xanımla evlənib, bu izdivacdan 4 qız övladı (Məsmə, Leyla, Aliyə və Səidə) dünyaya göz açıb. Onların hamısı yüksək təhsil alıb və Bakıda yaşayıblar. Hazırda Leyla xanımın qızı, Səkinə xanımın isə oğlu Bakıda yaşayırlar.

Məlum olduğu kimi, Azərbaycan tarixində Şahtaxtinski soyadını daşıyan ziyalıların özünəməxsus yeri və böyük xidmətləri vardır. Bu məşhur nəslin nümayəndələri görkəmli

dövlət xadimi, ictimaiyyətçi, diplomat, hərbçi, həkim, müəllim kimi və digər sahələrdə doğma xalqa hər zaman layiqincə xidmət ediblər. Onlardan İsa Sultan Şahtaxtinski, Məhəmmədağa Şahtaxtlı, Əbülfət Şahtaxtinski, Leyla xanım Şahtaxtinskaya, Baxşəli ağa Şahtaxtinski, Behbud bəy Şahtaxtinski, Həbibulla bəy Şahtaxtinski, Elmira xanım Şahtaxtinskaya, Toğrul Şahtaxtinski, Məhəmməd Şahtaxtinski və Aleksis Şahtaxtinski nəinki Azərbaycanda, eləcə də dünyada xalqımızı layiqincə təmsil edərək, öz dövrlərinin nüfuzlu simalarından olublar.

Repressiya dalğası onu 1941-ci ildə yaxalayıb. Həmid bəy Şahtaxtinski 1944-cü il fevralın 3-də Arxangelsk vilayətində dünyasını dəyişib.



NURMƏHƏMMƏD BƏY ƏDİLXAN OĞLU
ŞAHSUVAROV
(1883–1958)

**Nurməhəmməd bəy Ədilxan oğlu Şahsuvarov 1883-cü ildə Azərbaycanın Zəngəzur qəzasının Minkənd kəndində anadan olub**

**Xalq maarifi və dini etiqad naziri vəzifəsində çalışıb (1920)**

Nurməhəmməd bəy Ədilxan oğlu Şahsuvarov 1883-cü ildə Zəngəzur qəzasının (indiki Laçın rayonunun) Minkənd kəndində anadan olub.

İbtidai təhsilini kənd məktəbində başa vurmuş Nurməhəmməd bəy Şahsuvarov 1899–1903-cü illərdə Qori Müəllimlər Seminariyasında oxuyub. Bir müddət Gəncədə rus dili müəllimi işlədikdən sonra 1912-ci ildə Tiflis Aleksandr Müəllimlər İnstitutunu bitirib. Həmin il Kiyev Universitetinin hüquq fakültəsinə daxil olub və ali məktəbi eksternat yolu ilə 1915-ci ildə bitirib. Dağıstan Vilayəti Xalq Maarifi İdarəsi üzrə Teymurxanşura (indiki Buynaksk) şəhərinə inspektor təyin edilib.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı zamanı bitərəf Nurməhəmməd bəy Şahsuvarov siyasi hadisələrdə yaxından iştirak edib. 1918-ci ilin yayında Şimali Qafqazda yaşayan xalqların milli azadlıq hərəkatı nəticəsində yaradılan Dağlı Respublikasının xalq maarifi naziri təyin olunub.



Nurməhəmməd bəy Şahsuvarov Dağlı Respublikasının xalq maarifi naziri vəzifəsində işləyərkən (1918)

1919-cu il iyunun əvvəlində Bakıya gələn Nurməhəmməd bəy Şahsuvarov Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının sədri, 4-cü Hökumət Kabinetində xalq maarifi və dini etiqad nazirinin müavini vəzifəsini icra etməyə başlayıb. O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlərin həyata keçirilməsində böyük əmək sərf edib. Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universitetinin təşkilində Nurməhəmməd bəy Şahsuvarov xüsusi xidmət göstərib.

**O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlərin həyata keçirilməsində böyük əmək sərf edib**

«İttihad» partiyasının üzvü Nurməhəmməd bəy Şahsuvarov Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin 2-ci Hökumət Kabinetində xalq maarifi və dini etiqad naziri təyin olunub, 25 gün sonra – martın 30-da bütün kabinet ilə birlikdə istefa verib.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Nurməhəmməd bəy Şahsuvarov Azərbaycan SSR xalq maarifi komissarının müavini təyin olunub. O, həmin dövrlərdə Bakıda pedaqoji və Səmədağa Ağamalıoğlu adına torpaq və geodeziya texnikumlarında rus dilindən dərs deyib. Sonralar Bakı Dövlət Universitetində rus dili kafedrasının müdiri, Azərbaycan Neft və Kimya İnstitutunda isə rus dili müəllimi işləyib.

Keçmiş Sovetlər Birliyində 1930-cu illərdə tüğyan edən repressiya dalğası ondan da yan keçməyib. 1940-cı ildə qondarma ittihamlarla həbs olunan və Krasnodar diyarına sürgünə göndərilən Nurməhəmməd bəy Şahsuvarov orada da öz ixtisası üzrə dərs deyib. Üç il sonra – 1943-cü ildə sürgündən Bakıya qayıdıb, Azərbaycan Tibb İnstitutunda rus dili kafedrasının müdiri və müəllimi işləyib. Azərbaycanda rus dili sahəsində bir mütəxəssis kimi məşhur olub.

Nurməhəmməd bəy Şahsuvarov Feona Kuzmişina adlı xanımla ailə həyatı qurub, bu izdivacdan Cahangir adlı oğlu dünyaya gəlib. Cahangir bəy Şahsuvarov Moskvada yaşayıb, ali təhsil alıb, Moskva Yerin Fizikası İnstitutunda çalışıb, fizika-riyaziyyat elmləri doktoru olub. Onun da xatırladaq ki, Nurməhəmməd bəyin təmsil olunduğu Şahsuvarlılar nəslindən çoxsaylı alimlər çıxıb. Onun qardaşı Mürsəl bəy Azərbaycan Xalq Cümhuriyyətinin xaricə təhsil almağa göndərdiyi 100 azərbaycanlı tələbədən biri olub.

Öz dövrünün tanınmış şəxsiyyətlərindən biri olan Nurməhəmməd bəy Şahsuvarov 1958-ci il avqustun 11-də Bakıda vəfat edib.

# AZƏRBAYCANIN XALQ MAARİFİ KOMİSSARLARI



DADAŞ XOCA OĞLU
BÜNYADZADƏ
(1888–1938)

**Dadaş Xoca oğlu Bünyadzadə 1888-ci ilin aprel ayında Bakının Fatmayı kəndində anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1920–1922)**

**Dadaş Bünyadzadə Azərbaycanda maarif işində tez bir zamanda yüksəliş əldə etmək üçün müəllim hazırlığını, məktəblə ictimaiyyət arasında üzvi əlaqə yaradılmasını ən mühüm vəzifə hesab edirdi**

Görkəmli dövlət xadimi Dadaş Xoca oğlu Bünyadzadə 1888-ci ilin aprel ayında Bakının Fatmayı kəndində anadan olub.

1908-ci ildə 8 aylıq pedaqoji kursa daxil olan Dadaş Bünyadzadə, eyni zamanda gecə kursunda rus dilini öyrənib. Elə həmin ildən bolşevik partiyasının üzvü olub. 1908-ci ildə İran inqilabçılarına yardım üçün Təbrizdə olub. İrandan qayıdan kimi Tiflisdə həbs edilib. Üç ay sonra həbsdən azad olunaraq Bakıya gəlib. 1911-ci ildə yenidən həbs olunaraq Türküstana sürgün edilib. 1918-ci ildə Həştərxana gedən Dadaş Bünyadzadə quberniya komitəsinə üzv seçilib, tatar dilində çıxan «Tartış» («Mübarizə») qəzetinin redaktoru olub. 1918-ci və 1921-ci illərdə Moskvada Leninlə görüşüb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Dövlət Plan Komissiyasının sədri, ZSFSR xalq torpaq komissarı, Azərbaycan SSR XKS-nin sədri və digər mühüm vəzifələrdə çalışıb.

Dadaş Bünyadzadə Azərbaycan K(b)P MK-nın, YİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin, Azərbaycan SSR, ZSFSR və SSRİ MİK-in üzvü seçilib.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra yaradılan Maarif Komissarlığı bəzi sənədlərdə Xalq Maarifi Fəhlə-kəndli Müfəttişliyi Komissarlığı kimi qeyd olunub.

1920–1922-ci illərdə bu komissarlığa Dadaş Bünyadzadə başçılıq edib. Sovet Azərbaycanının ilk xalq maarifi komissarı olan Dadaş Bünyadzadə 1920-ci il mayın 23-də respublika hökuməti adından xalq maarifi sahəsində dövlətin əsas prinsiplərini elan edib.

Dadaş Bünyadzadə ötən əsrin 20-ci illərində nəşr olunan «Xalq maarifi» jurnalının 1-ci nömrəsində dərc olunmuş «Maarif və dövlət» adlı məqaləsində maarif komissarı olaraq yazırdı: «Şuralar hökumətinin başlıca və əsaslı qanunlarından biri də elmi, maarifi və sənayeni dirçəltməkdir. Bundan sonra oxumaq, yazmaq, bilmək, sənət öyrənmək hamıya borcdur. Belə ki, elmsiz və sənətsiz bir adam tapılmayacaqdır».

Dadaş Bünyadzadə Azərbaycanda maarif işində tez bir zamanda yüksəliş əldə etmək üçün müəllim hazırlığını, məktəblə ictimaiyyət arasında üzvi əlaqə yaradılmasını ən mühüm vəzifə hesab edirdi. O yazırdı: «Azərbaycanda istənilən dərəcədə elm və maarifi inkişaf etdirmək üçün 25 min müəllim, 10 min mürəbbi lazımdır. Halbuki bütün Azərbaycanda ancaq 2500 müəllim və 1000 mürəbbi vardır… Belə bir mühüm və müqəddəs işi meydani-icraiyyəyə qoymaq üçün kəndlilərin və fəhlələrin özləri iştirak etməlidir, özləri işə girişməlidir… Bu işdə zəhmətkeşlər iştirak etməsələr, bunların hamısı bir parça kağız üzərində qalacaqdır».

Respublikada müəllimə olan ehtiyacı ödəmək üçün XMK 1920–1922-ci illərdə qısamüddətli kurslar açır, müəllimlərin

mədəni-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə bir sıra qərarlar qəbul edir.

Maarif komissarı Dadaş Bünyadzadənin imzaladığı bir Dekretdə göstərilirdi ki, maarif xadimləri birinci növbədə ərzaqla təmin olunacaq, maarif işçiləri tutduqları evlərdən çıxarılmayacaqlar. Həmçinin sənəddə maarif xadimlərinə və onların ailələrinə aid əşyaların müsadirə edilməyəcəyi, onların maarif işlərindən və iməcilikdən başqa digər əmək işlərinə cəlb olunmayacağı, vilayət, qəza və yerli hökumətin maddi cəhətdən maarif xadimlərinə müavinət verəcəyi əksini tapır.

**Respublikada müəllimə olan ehtiyacı ödəmək üçün XMK 1920–1922-ci illərdə qısamüddətli kurslar açır, müəllimlərin mədəni-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə bir sıra qərarlar qəbul edir**

1920-ci ildə Dadaş Bünyadzadənin imzası ilə XMK bir sıra mühüm qərarlar qəbul edib. Azərbaycan dilində məktəb sənədlərinin aparılması, Azərbaycan Dövlət Universiteti haqqında, universitet işçilərinin əmək haqqı barəsində, şagird ictimai təşkilatlarına dair, orta məktəblərin quruluşunun dəyişdirilməsi, məktəb işlərinin əsasları, tədris planları haqqında, özünüidarə, qüsurlu uşaqlar haqqında və digər qərarlar onun xalq maarifi komissarı işlədiyi dövrün ölkənin təhsil həyatındakı mühüm rolunu əks etdirir.

Azərbaycan müəllimlərinin IV qurultayındakı çıxışında vurğulayıb: «… bu gün müəllimlərimiz bir yandan kəndliləri maarifləndirməli, digər tərəfdən …onlara təsərrüfat savadı verməlidirlər».

Azərbaycan XKS-nin sədri Dadaş Bünyadzadə 25–27 yanvar 1931-ci ildə keçirilmiş Azərbaycan müəllimlərinin V qurultayındakı məruzəsində yeni əlifbaya keçilməsini ən böyük nailiyyət adlandırıb.

Dadaş Bünyadzadə repressiyaya məruz qalıb, 1938-ci ildə dünyasını dəyişib.



MUSTAFA ZƏKƏRİYYƏ OĞLU
QULİYEV
(1893–1938)

**Mustafa Zəkəriyyə oğlu Quliyev 1893-cü ildə Nuxa (indiki Şəki) şəhərində anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1922–1927)**

**1923-cü ildə Mustafa Quliyevin səyi nəticəsində müəllim hazırlayan 9 tədris müəssisəsi (texnikum və institut) açılıb**

Mustafa Zəkəriyyə oğlu Quliyev 1893-cü ildə Nuxa (indiki Şəki) şəhərində anadan olub.

1913-cü ildə Tiflis gimnaziyasını bitirib. Sonra Kiyev Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olub. 1918-ci ildə Kiyevdə bolşevik partiyası sıralarına qoşulub, çox keçmədən RK(b)P Kiyev Komitəsi müsəlman bölməsinin sədri seçilib. 1919-cu ildə Bakıya gəldikdən sonra gizli siyasi fəaliyyət göstərib, RK(b)P-nin XI qurultayında (1922) Leninlə görüşüb.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra o, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinə, Azərbaycan K(b)P MK-ya, Bakı Komitəsinə üzv seçilib.

Mustafa Quliyev bir müddət Lənkəranda qəza inqilab komitəsinin sədri (1920), Azərbaycan Kommunist (bolşevik) Partiyası Qaraşəhər rayon komitəsinin katibi (1921–1922) vəzifələrində çalışıb.

Moskvada Kommunist Akademiyasını bitirən Mustafa Quliyev Qarayazı MTS siyasi şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Sonralar Qazaxıstanın Çimkənd Şəhər Partiya Komitəsinin katibi, Odessa Vilayət Partiya Komitəsinin şöbə müdiri olub.

1923–1926-cı illərdə «Maarif və mədəniyyət», 1929–1932-ci illərdə «İnqilab və mədəniyyət» jurnalının məsul redaktoru vəzifəsində fəaliyyət göstərib. Bir sıra elmi-publisistik əsərlər yazıb.

1922–1927-ci illərdə Azərbaycanın xalq maarifi komissarı vəzifəsində çalışıb. O, «Maarif və mədəniyyət» jurnalında nəşr olunmuş məqaləsində (№3, 1923) yazırdı: «Hazırda hökumətimiz öz varidatının yarısını maarif işinə xərc edir…».

1920-ci illərdə XMK-nın qarşısında bir sıra mühüm vəzifələr dururdu. Bunlardan ən mühümü ibtidai məktəblər açmaq və savadlı müəllimlər yetişdirmək idi. Çünki 1922-ci ildə məktəbyaşlı uşaqların yalnız 27 faizi (80814 nəfər) məktəbə cəlb edilmişdi. Məktəbyaşlı qızların isə 10 faizi məktəbdə oxuyurdu. Bunun əsas səbəbi lazımi ibtidai məktəblərin yalnız altıda birinin mövcud olması idi.

Mustafa Quliyev «Müəllimlərin hazırlığı» məqaləsində («Maarif və mədəniyyət» jurnalı, 1923, №10, səh.3) göstərirdi ki, Azərbaycanda 1100 məktəbdə 1450 azərbaycanlı müəllim var. Bunlardan 73 nəfəri ibtidai təhsilə, 320-si orta təhsilə, 50 nəfəri isə ali təhsilə malikdir. Məhz bu çatışmazlığı aradan qaldırmaq məqsədilə 1923-cü ildə Mustafa Quliyevin səyi nəticəsində müəllim hazırlayan 9 tədris müəssisəsi (texnikum və institut) açılıb.

1925-ci ildə Azərbaycan sovet müəllimlərinin I qurultayı çağrılıb. Həmin qurultayda Mustafa Quliyev xalq maarifi

sahəsindəki müvəffəqiyyətlər və qarşıda duran vəzifələr haqqında məruzə edib.

1925-ci ildə 1376 məktəbdə 140334 şagird təhsil alırdı. 13 pedaqoji məktəbdə 1816, iki ali pedaqoji məktəbdə 4529 tələbə müəllimlik ixtisasına yiyələnirdi.

**1925-ci ildən ümumi ibtidai icbari təhsilə keçilib**

1925-ci ildə 320 yeni məktəb binası tikilib. Bu dövrün mühüm xarakterik xüsusiyyətlərindən biri də müəllimlərin savadsızlığın ləğvində müştərək yardım komitələrində, kooperativlərdə, qırmızı əsgər dərnəklərində və müxtəlif ictimai işlərdə fəal iştirak etmələridir. Xalq maarifi komissarı Mustafa Quliyev bu məsələlərdən bəhs edərək yazırdı: «Müəllimlərin vəzifəsi, təbiidir ki, bundan sonra rəsmi tədris hüdudundan, məktəb dairəsindən xaricə çıxır; müəllim məmləkətin ictimai və iqtisadi həyat məsələləri ilə maraqlanmalı və xüsusən yaşadığı rayonun haqqında daima xəbərdar olmalıdır».

1922–1927-ci illərdə maarif sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib. 1923-cü ildə Vahid əmək məktəbinin əsasnaməsi təsdiq edilib, tədris planı və proqramları, yeni dərsliklər yazılıb. 1924-cü ildə fəhlə fakültələri haqqında əsasnamə hazırlanıb, 1925-ci ildən ümumi ibtidai icbari təhsilə keçilib. 1926-cı ildən məktəblər yeni proqramlara keçib, 1927-ci ildə savadsızlıqla mübarizə geniş vüsət alıb, məktəblərin sayı 1478-ə çatıb.

Mustafa Quliyev həm də bir ədəbiyyatşünas kimi ədəbi tənqidimizin inkişafında müəyyən yer tutur. Onun Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Cəfər Cabbarlı və başqaları barədə ədəbi-tənqidi məqalələri vardır. «Mədəni inqilab və İslam», «Türk qadınının yolu» və digər əsərləri dövrünün aktual problemlərindən bəhs edir. Firidun bəy Köçərli, Hüseyn Əfəndi Qayıbov kimi görkəmli şəxsiyyətlərin ədəbiyyat tariximizlə bağlı əlyazmalarının 1920-ci illərdə nəşr olunmasında bir maarif komissarı kimi onun rolu danılmazdır.

Mustafa Quliyev repressiyaya məruz qalıb, 1938-ci ildə vəfat edib.



RUHULLA ƏLİ OĞLU
AXUNDOV
(1897–1938)

**Ruhulla Əli oğlu Axundov 1897-ci il yanvarın 13-də Bakının Şüvəlan kəndində müəllim ailəsində anadan olub**

**1923-cü ildən yeni əlifbanın tətbiqi məsələsində fəallıq göstərən Ruhulla Axundov bu mövzuda bir sıra məqalələrlə çıxış edib**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1927–1930)**

**O, Azərbaycan K(b)P-nin VIII qurultayında (1927) xalq maarifi haqqında məruzə edib**

Ruhulla Əli oğlu Axundov 1897-ci il yanvarın 13-də Bakının Şüvəlan kəndində müəllim ailəsində anadan olub.

Dörd yaşı olanda atası vəfat edib, çətinliklərlə böyüyüb. Əvvəlcə kənd məktəbində təhsilə başlayan, sonra Bakı şəhər I realnı məktəbində oxuyan sakittəbiətli, mütaliəyə meyilli Ruhulla Axundov 1916-cı ildən mətbəədə korrektor və tərcüməçi işləyib.

1917–1920-ci illərdə inqilabi mübarizədə iştirak edib, bolşevik partiyası sıralarına qoşulub. O, «Bakıətrafı fəhlə, əsgər və matros deputatları şurasının əxbarı» (1918), «Hürriyyət» (1919), Azərbaycan dilində çıxan gizli bolşevik «Kommunist» qəzetlərinin (1919) redaktoru olub. 1920–1921-ci illərdə Moskvada V.İ.Leninlə görüşüb. Sonralar AK(b)P BK-nın katibi, AK(b)P MK katibi, «Azərnəşr»in direktoru, ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin katibi kimi mühüm vəzifələrdə çalışıb.

Marksizm-leninizm klassiklərinin əsərlərinin, Kommunist Partiyasının ikinci proqramının Azərbaycan dilinə tərcüməsində iştirak edib, «Kənd füqərası», «Bakinski raboçi», ikicildlik «Rusca-türkcə lüğət»in redaktoru olub. Azərbaycan SSR və SSRİ MİK-in üzvü, ÜİK(b)P-nin bir neçə qurultayına, Kominternin II konqresinə nümayəndə seçilib. Lenin ordeni ilə təltif edilib.

1927–1930-cu illərdə Azərbaycanın xalq maarifi komissarı olan Ruhulla Axundov hələ Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdə yazırdı ki, tarix Azərbaycanın öhdəsinə Yaxın Şərq zəhmətkeşlərinin avanqardı olmaq kimi bir vəzifə qoyulub. Bəs, savadsız Azərbaycan lazımi mədəni səviyyəyə çatmadan Şərq ölkələrinin rəhbəri ola bilərmi?

1923-cü ildən yeni əlifbanın tətbiqi məsələsində fəallıq göstərən Ruhulla Axundov Yeni Əlifba Komitəsinin orqanı olan «Yeni yol» qəzetinin səhifələrində bu mövzuda bir sıra məqalələrlə çıxış edib.

Xalq maarifi sahəsində məktəbəqədər tərbiyə müəssisələrinə özək kimi dəyər verən Ruhulla Axundov tədris plan və proqramlarının keyfiyyətini yaxşılaşdırmağı vacib sayırdı.

O, Azərbaycan K(b)P-nin VIII qurultayında xalq maarifi haqqında məruzə edib, bu sahədəki nailiyyətlərdən danışıb, məcburi pulsuz təhsili həyata keçirməyin, məktəbəqədər tərbiyə müəssisələrinin, kənd yerlərində yeddiillik məktəblərin sayının artırılması zəruriliyini göstərib. Ruhulla Axundov həmin qurultayda stabil tədris proqramları, ideyaca daha sağlam dərsliklər yaratmaq, texniki təhsilə diqqəti artırmaq, müəllimlərin maddi vəziyyətini yaxşılaşdırmaq və s. mühüm məsələlərdən də bəhs edib.

Ruhulla Axundov Azərbaycan xalq maarifi komissarı olarkən SSRİ XKS və ÜİK(b)P MK-nın qərarı ilə əlaqədar kənd məktəblərində kənd təsərrüfatı təmayülü üzrə geniş tədbirlər həyata keçirilir, şagirdlərə aqronomluq və zootexnik ixtisasları üzrə minimum biliklər verilən məktəblər üçün torpaq sahələri ayrılır, şagirdlərin ictimai-faydalı əməyinə xüsusi diqqət yetirilir.

1929-cu ildə savadsızlıqla mübarizə daha da güclənir, Azərbaycan XMK bu məqsədlə bir sıra tədbirlər həyata keçirir: kurslar təşkil edir, kitabların qiymətini ucuzlaşdırır. 1929–1930-cu illərdə Azərbaycanda ümumtəhsil məktəblərinin sayı təxminən 2000-ə çatdırılır. Bütün bu tədbirlərdə xalq maarifi komissarı, ictimai xadim, vətənpərvər alim kimi Ruhulla Axundov fəal iştirak edib.

Azərbaycanda yeni əlifbanın tətbiqini böyük nailiyyətlərdən sayan Ruhulla Axundov Azərbaycan ədəbi dilinin inkişafına böyük qayğı göstərib. 1928-ci ilin yanvarında maarif komissarının təşəbbüsü ilə I Ümumazərbaycan imla konfransı keçirilib, imlanın təkmilləşdirilməsi, vahid imla prinsiplərinin tətbiqi kimi məsələlər geniş müzakirə edilib.

Gəncləri sevən, onlara qayğı ilə yanaşan görkəmli maarif xadimi və istedadlı alim Ruhulla Axundov bədii ədəbiyyat sahəsinə gələn gənclərin yaradıcılığına istiqamət verib, onları hər cür qərəzkar hücumlardan qoruyub.

O, həyatının son illərində Partiya Tarixi İnstitutunda, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında rəhbər vəzifələrdə çalışıb.

Ruhulla Axundov repressiyaya məruz qalıb, 1938-ci ildə vəfat edib.

**1929-cu ildə savadsızlıqla mübarizə daha da güclənir, Azərbaycan XMK bu məqsədlə bir sıra tədbirlər həyata keçirir: kurslar təşkil edir, kitabların qiymətini ucuzlaşdırır**

**Ruhulla Axundov Azərbaycan ədəbi dilinin inkişafına böyük qayğı göstərib**



MAQSUD MƏMMƏD OĞLU
MƏMMƏDOV
(1897–1938)

**Maqsud Məmməd oğlu Məmmədov 1897-ci ilin dekabrında İrəvan şəhərində anadan olub**

**1930–1931-ci illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb**

Maqsud Məmməd oğlu Məmmədov 1897-ci ilin dekabrında İrəvan şəhərində anadan olub.

İrəvan kişi gimnaziyasını bitirib. Azərbaycan Politexnik İnstitutunda, Yakov Sverdlov adına Kommunist İnstitutunda təhsil alıb. 1936-cı ildə Moskvada Qırmızı Professura İnstitutunun üçüncü kursunda oxuyarkən Bakıya çağırılıb.

Maqsud Məmmədov 1916-cı ildən ictimai və siyasi həyatda fəal iştirak edib. 1917-ci ilin Fevral inqilabından sonra şagird komitəsi təşkil edərək proletar və zəhmətkeş ailələrdən olan şagirdləri ətrafına toplayıb. Komitə tez-tez nümayişlər təşkil edib və şagird qəzetinin nəşrinə nail olub. 1920-ci ilin sentyabrından Azərbaycan Kommunist Partiyası sıralarına qoşulub.

Əmək fəaliyyətinə 1915-ci ildə İrəvan şəhərində müəllim kimi başlayıb. 1920–1923-cü illərdə Bakı Şəhər Xalq Ərzaq Komissarlığı İdarəsinin rəisi vəzifəsində çalışıb. 1925–1927-ci illərdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Xalq Maliyyə



Maqsud Məmmədov həyat yoldaşı ilə birlikdə (1921)




Maqsud Məmmədov Azərbaycan Dövlət Universitetinin rektoru olarkən (1930)

**Respublikanın həyatında fəal iştirak edən Maqsud Məmmədovun həmin dövrdə gördüyü işlər mətbuat səhifələrində öz əksini tapıb, onun müxtəlif məsələlərlə bağlı çıxışlarına geniş yer verilib**

Komissarlığında işləyib, 1929–1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) rektoru olub.

1930–1931-ci illərdə Azərbaycan xalq maarifi komissarı vəzifəsində çalışıb. Maqsud Məmmədov Azərbaycan xalqının təhsil və mədəni səviyyəsinin yüksəlməsinə yönəlmiş partiya kursunun uğurla həyata keçirilməsi üçün böyük güc və enerji sərf edib.

1931-ci ildə Azərbaycan K(b)P MK-nın katibi təyin edilən Maqsud Məmmədov 1933-cü ilə kimi bu vəzifədə çalışıb. 1933–1934-cü illərdə Azərbaycan Partiya Tarixi İnstitutunun direktoru olub.

Partiya işində zəngin təcrübəsini nəzərə alaraq onu yenidən Mərkəzi Komitədə işləməyə dəvət edirlər. 1936–1937-ci illərdə Azərbaycan K(b)P MK-nın şöbə müdiri işləyib, 1937-ci il iyulun 29-dan sentyabrın 19-na qədər «Azərnəşr»in direktorunun səlahiyyətlərini icra edib. Respublikanın həyatında fəal iştirak edən Maqsud Məmmədovun həmin dövrdə gördüyü işlər mətbuat səhifələrində öz əksini tapıb, onun müxtəlif məsələlərlə bağlı çıxışlarına geniş yer verilib.

Marksizm-leninizm ideyalarının fəal təbliğatçısı olan Maqsud Məmmədov Azərbaycan K(b)P MK-nın büro üzvü seçilib, 1933-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında ilk dəfə Azərbaycan dilində nəşr olunan «V. İ. Lenin. Seçilmiş əsərləri» altıcildliyinin redaksiya heyətinin tərkibinə daxil edilib. Həmçinin V. İ. Leninin Azərbaycan dilində nəşr olunmuş digər seçilmiş əsərlərinin redaktor və tərcüməçilər qrupunun tərkibində təmsil olunub.

1925–1927-ci illərdə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin, 1930–1934-cü illərdə Azərbaycan K(b)P Bakı Komitəsinin, 1931-ci ildən Azərbaycan K(b)P MK-nın, 1931–1933-cü illərdə Ümumittifaq K(b)P Zaqafqaziya Diyar Komitəsinin üzvü seçilib.

O, 1937-ci ilin sentyabrında Xalq Daxili İşlər Komissarlığı tərəfindən həbs olunub, repressiyaya məruz qalıb.

Maqsud Məmmədov 1938-ci ildə vəfat edib.



AĞA İSMAYIL OĞLU
SULTANOV
(1901–1936)

**Ağa İsmayıl oğlu Sultanov 1901-ci ildə Bakı şəhərində anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1931–1933)**

**Ağa Sultanov məktəb tikintisi, tədris ocaqlarının maddi-texniki təchizatı sahəsində dönüş yaratmağa nail olub**

Ağa İsmayıl oğlu Sultanov 1901-ci ildə Bakı şəhərində anadan olub.

Güzəranın ağırlığına görə ibtidai təhsildən sonra dəmirçi yanında şagird kimi sənət öyrənməyə başlayıb. 1917-ci ildə inqilabi hərəkata qoşulub, 1919-cu ildə bolşevik partiyası sıralarına qəbul edilib.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Hacıqabul və Şamxor (indiki Şəmkir) qəza inqilab komitələrinin sədri (1920–1933), Azərbaycan diviziyasında şöbə rəisi və partiya komissiyasının katibi, Stalin rayon Partiya Komitəsi təşkilat şöbəsinin müdiri, Gəncə mahal Partiya Komitəsinin katibi, AK(b)P MK-nın ikinci katibi vəzifələrində çalışıb.

1931-ci ildə Ağa Sultanov Azərbaycan Sovet Sosialist Respublikasının xalq maarifi komissarı təyin edilir. Bu dövr respublika tarixində çox mürəkkəb bir dövr idi. Ümumtəhsil məktəblərinin sayı artırılmalı, pedaqoji kadr hazırlığı kəmiyyət və keyfiyyətcə yaxşılaşdırılmalı, elmi-metodik təminat istiqamətində köklü işlər görülməli idi. Sələflərinin başladıqları işi davam etdirməklə yanaşı, Ağa Sultanov yeni uğurlar naminə Xalq Maarifi Komissarlığı əməkdaşlarının imkanlarını səfərbərliyə almış, məktəb tikintisi, tədris ocaqlarının maddi-texniki təchizat sahələrində nailiyyətlər qazanılmasına çalışmışdır.

1933-cü ildə Gürcüstana göndərilib, Axalsix rayon Partiya Komitəsinin katibi vəzifəsində çalışıb. Gürcüstan K(b)P MK və ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin üzvü olub. Gürcüstan SSR və ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilib.

Ağa Sultanov 1936-cı ildə dünyasını dəyişib.



MAHMUD SƏFƏR OĞLU
AĞAYEV
(1897–1937)

**Mahmud Səfər oğlu Ağayev 1897-ci ildə Bakıda anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1934)**

**İbtidai, natamam orta və orta məktəbdə tədris işinin təşkili və daxili intizam haqqında qərar qəbul edib**

Mahmud Səfər oğlu Ağayev 1897-ci ildə Bakıda anadan olub.

1910-cu ildə ibtidai rus-tatar (rus-Azərbaycan) məktəbini bitirib. Atası ilə İrana gedib, bir müddət orada yaşayıb. 1912-ci ildə Azərbaycana qayıtdıqdan sonra dərzi sənətinə yiyələnib.

Fəal ictimai işlərə qoşulub, 1917-ci ildə bolşevik partiyasının üzvlüyünə qəbul olunub. 1922–1925-ci illərdə Moskvada Kommunist Universitetində, 1929–1933-cü illərdə isə Qırmızı Professura Ədəbiyyat İnstitutunda oxuyub.

Dövrünün mötəbər ali məktəblərində təhsil almış Mahmud Ağayev Azərbaycana qayıtdıqdan sonra əvvəlcə AK(b)P MK-nın orqanı olan «Bolşevik» jurnalının redaktoru vəzifəsində çalışıb. Sonra o, «Kommunist» qəzetinə redaktor təyin edilib. Mətbuat sahəsindən AK(b)P Bakı Komitəsinə şöbə müdiri göndərilib, respublika marksizm-leninizm kurslarının direktoru vəzifəsində çalışıb. AK(b)P MK və Azərbaycan SSR MİK-in üzvü olub.

Mahmud Ağayev 1934-cü ildə Azərabycanın xalq maarifi komissarı vəzifəsində çalışıb.

1934-cü il sentyabr ayının 3-də SSRİ XKC və ÜİK(b)P MK ibtidai, natamam orta və orta məktəbdə tədris işinin təşkili və daxili intizam haqqında qərar qəbul edib. Bundan sonra hər bir sinifdə dərslərin miqdarı müəyyənləşdirilir, məktəblərə qəbul, sinifdən sinfə keçmə, şagirdləri rəğbətləndirmə və cəzalandırma, şagird bileti, şagirdlər üçün qaydalar və s. haqqında mühüm tədbirlər həyata keçirilib.

1934-cü ildə xalq maarifi sahəsində ən mühüm məsələ ibtidai və orta məktəblərin quruluşundakı dəyişikliklərlə bağlı idi. XKS və ÜİK(b)P MK-nın 15 may 1934-cü il tarixli qərarına əsasən ibtidai məktəblər 4 sinifdən (I–IV), natamam orta məktəblər 7 sinifdən (I–VII) və orta məktəblər 10 sinifdən (I–X) ibarət təşkil edilib.

Mahmud Ağayev xalq maarif komissarı işlədiyi dövrdə məktəblərdə bədən tərbiyəsi dərsləri, davamiyyət, şagirdlərin ictimai işləri, dərsin müddəti, tənəffüslər, ev tapşırıqlarının həcmi, məktəblərdə dərsin başlanması və s. məsələlərlə əlaqədar mühüm sənədlər qəbul edilib.

Mahmud Ağayev 1937-ci ildə vəfat edib.



MƏMMƏD İSMAYIL OĞLU
CUVARLİNSKİ (CUVARLI)
(1902–1937)

**Məmməd İsmayıl oğlu Cuvarlinski 1902-ci ildə Qaryagin qəzasının Cuvarlı kəndində anadan olub**

**1930-cu ildə Azərbaycan Maarif İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin məsul katibi kimi fəaliyyət göstərib**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1934–1935)**

Məmməd İsmayıl oğlu Cuvarlinski 1902-ci ildə Qaryagin qəzasının (indiki Füzuli rayonu) Cuvarlı kəndində anadan olub.

Həyatın ağrı-acısını çox tez dadıb. 1911-ci ildə ikisinifli kənd məktəbinə daxil olan Məmməd maddi çətinliklərlə bağlı təhsilini yarımçıq qoyaraq atası kimi fərdi təsərrüfat sahələrində çalışıb, ailəsinə kömək edib. Qəlbində oxuyub-öyrənməyə böyük həvəs və istəklə 1916-cı ildə Gəncə əmək məktəbinə gedib. Peşə qazanmaq arzusu da baş tutmayıb. Əvvəl şəhər idarəsində, sonra isə quberniya komissarlığında gözətçi işləyib.

Məmməd Cuvarlinski sosial-demokratların bolşevik fraksiyasına meyil edib, inqilabi təbliğat və təşviqatla məşğul olub, əhali arasında intibahnamələr yayıb. Bolşeviklərin ideyalarını öyrənən Cuvarlinski siyasi dünyagörüşünü genişləndirib.

Böyük Oktyabr sosialist inqilabı, Bakıda baş verən tarixi hadisələr onun ictimai şüuruna güclü təsir göstərir. Gəncə yerli hökuməti onu bolşevik olduğuna görə işdən çıxarır. Məmməd Cuvarlinski 9 aya qədər fəhləlik etdikdən sonra doğma kəndinə qayıdıb, Qaryagin qəzasındakı kəndlərdə kəndliləri yadelli istismarçılara, yerli zülmkarlara qarşı mübarizəyə çağıran təbliğat işi aparıb.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Məmməd Cuvarlinski komsomol təşkilatçısı kimi fəallığına görə 1920-ci ilin sentyabrında bolşevik partiyasına qəbul edilib. Qaryagin Qəza İnqilab Komitəsinin təlimatçısı təyin edilən Cuvarlinski bir il sonra Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin sovet-partiya məktəbinə göndərilir, oranı bitirdikdən sonra Azərbaycan K(b)P Qaryagin Qəza İnqilab Komitəsinin təbliğat-təşviqat şöbəsinə rəhbərlik edib.

Moskvada ÜİK(b)P MK yanındakı partiya işçiləri hazırlayan kurslarda hazırlıq keçib, 1926–1929-cu illərdə Gəncə,



Sovet şairi Maksim Qorki Bakıda olarkən (1928)
Şəkildə (soldan). Birinci sıra: 2. Məmməd Cuvarlinski, 3. Maksim Qorki və başqaları

sonra Quba dairə komitəsində təşkilat şöbələrində müdir işləyib, 1930-cu ildə Azərbaycan Maarif İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin məsul katibi kimi fəaliyyət göstərib.

Sonralar Sabirabad rayon Partiya Komitəsində katib, Dövlət Plan Komitəsində bölmə rəisi, Azərbaycan K(b)P MK-nın sovet ticarət şöbəsi müdirinin müavini, «Partiya işçisi» jurnalının məsul redaktoru kimi çalışıb. O, eyni zamanda pedaqoji işlə məşğul olub, 1932–1934-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun sosialist təsərrüfatı nəzəriyyəsi kafedrasına rəhbərlik edib. Sosialist təsərrüfatı və partiya quruculuğu məsələlərindən dərs deyən Məmməd Cuvarlinski 1933-cü ildə dosent elmi adına layiq görülüb.

**Məmməd Cuvarlinski ümumtəhsil məktəb şəbəkəsinin yaradılması, pedaqoji kadr hazırlığının yaxşılaşdırılması və s. istiqamətlərdə tədbirlərin həyata keçirilməsində əməyini əsirgəməyib**

Məmməd Cuvarlinski həyatı boyu Azərbaycanda maarifin inkişafına layiqli töhfələr verib. Belə ki, xalq maarifi komissarının müavini kimi o, Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun yaradılmasına böyük əmək sərf edib.

Azərdaycanda ictimai mövzuda məqalələrlə dövri mətbuatda mütəmadi çıxış edib, məktəb və maarif haqqında bir kitabça, iyirmiyə qədər məqalə yazıb. 1934–1935-ci illərdə Azərbaycanın xalq maarifi komissarı işlədiyi zaman Məmməd Cuvarlinski ümumtəhsil məktəb şəbəkəsinin yaradılması, pedaqoji kadr hazırlığının yaxşılaşdırılması və s. istiqamətlərdə tədbirlərin həyata keçirilməsində biliyini, bacarığını, qüvvə və əməyini əsirgəməyib.

Mədəniyyət və maarifin inkişafında xalq maarifi komissarı kimi özünəməxsus xidmətləri olan Məmməd Cuvarlinski «Bakinski raboçi» qəzetinin 15 yanvar 1931-ci il tarixli nömrəsində dərc edilən məqaləsində kənddə mədəni-maarif işlərinin təşkilində, inkişafında kənd müəllimlərinin rolunu ayrıca qiymətləndirib. O yazırdı ki, kənd müəllimi təbliğatçıdır, mühazirəçidir, maliyyə işçisidir, sözün geniş mənasında,



Məmməd Cuvarlinskinin xatirəsinə həsr olunmuş tədbir zamanı (1987)
Səkildə (soldan): 1. Aben Kərimov – Məmməd Cuvarlinskinin tələbəsi, professor, 2. Şura Cuvarlı – Məmməd Cuvarlinskinin qızı

**Xalq maarifi komissarı işləyərkən musiqi sənətinin inkişafı ilə də yaxından maraqlanıb.**

kənd ictimaiyyətçisidir. Kənd müəllimi – bizim sovet müəllimi – kənddə partiya və sovet hökumətinin fəal bələdçisidir.

Xalq maarifi komissarı işləyərkən musiqi sənətinin inkişafı ilə də yaxından maraqlanıb. Bir faktı qeyd etmək yerinə düşərdi ki, böyük Azərbaycan bəstəkarı Müslüm Maqomayev xalq maarifi komissarı Məmməd Cuvarlinskiyə yazdığı məktubunda özünün yeni operası haqqında məlumat verib: «İndi yeni türk (Azərbaycan – *red.*) operası üzərində işləyirəm». Məmməd Cuvarlinski cavab olaraq bəstəkarın fikrini alqışlayıb, ona uğurlar diləyib.

Fövqəladə enerjili, narahat təbiətli, prinsipial şəxsiyyət Məmməd Cuvarlinski qısa ömrünü maarif və mədəniyyətimizin inkişafına sərf edib.

Onun təşəbbüskarlığı, xalqına bağlılığı, ağır repressiya illərində acı nəticələrini verib. Mir Cəfər Bağırov tərəfindən millətçi adlandırılan Məmməd Cuvarlinski 1937-ci ildə Azərbaycan Kommunist Partiyası MK-nın bürosundan və partiya işindən xaric olunub. Bu haqsızlığa etiraz edən Məmməd Cuvarlinski Moskvaya şikayətə getsə də, onu qabaqlayan Mir Cəfər Bağırovun göstərişi ilə həbs edilərək Bakıya qaytarılıb.

Məmməd Cuvarlinski repressiyaya məruz qalıb, 1937-ci ildə dünyasını dəyişib.



MÜSEYİB ƏLİ OĞLU
ŞAHBAZOV
(1898–1937)

**Müseyib Əli oğlu Şahbazov 1898-ci ildə Mahaçqala şəhərində anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1935–1936)**

Müseyib Əli oğlu Şahbazov 1898-ci ildə Mahaçqala şəhərində anadan olub.

İlk təhsilini kənd məktəbində alan Müseyib atası ilə Həştərxana gedib, bir müddət sonra Dərbənddəki realnı məktəbdə təhsilini davam etdirib. Həmin dövrdə burada təhsil alan Məzahir Rzayev, İsay Yakimoviç, Kərim Məmmədbəyov və başqaları ilə tanışlıq onda ictimai işlərə maraq yaradıb.

«İşıq» dərnəyində inqilabi fəaliyyətlə maraqlanıb, Marks və Engelsin nəzəri fikirləri ilə tanış olub, 1917-ci il Fevral inqilabından sonra «Hümmət» təşkilatı ilə sıx əlaqə saxlayıb, kəndlilər, ordudan tərxis olunan əsgərlər arasında təbliğat aparıb. Dərbənddə realnı məktəbini bitirərək Həştərxana qayıdıb, Rusiya Kommunist (bolşevik) Partiyası sıralarına daxil olub.

Siyasi işçilər hazırlayan kursu bitirən Müseyib Şahbazov xüsusi tapşırıqlarla XIII orduya göndərilib. O, Xarkov quber-



Müseyib Şahbazov (şəkildə solda) Dərbənd realnı məktəbində oxuyarkən (1912)

niyasında kənd inqilab komitələri və partiya özəklərinin fəaliyyətinin möhkəmləndirilməsində bilik və bacarığını əsirgəməyib.

Həştərxana qayıtdıqdan sonra onu Bakıya göndəriblər. XI ordunun tərkibində Azərbaycana gələn Müseyib Şahbazov, sonradan RK(b)P Dağıstan Vilayət Komitəsinin sərəncamına göndərilib, Cənubi Dağıstan üzrə məsul büro katibi kimi işə başlayıb. 1920-ci ilin noyabrında Qaytaq-Tabasaran mahal komitəsinin məsul katibi vəzifəsində işə başlayıb.

Prinsipial və genişqəlbli xüsusiyyəti ilə fərqlənən Müseyib Şahbazov 1921-ci ilin aprel ayında Azərbaycan K(b)P MK-nın xahişi ilə Bakıya göndərilib, Gəncə Qəza İcraiyyə Komitəsinin sədri, Kirovabad dairə Komitəsinin məsul katibi, ADU-nun rektoru vəzifələrində çalışıb. Sonradan o, Azərbaycan K(b)P MK-nın şöbə müdiri işləyib.

Moskvada Qırmızı Professura Ədəbiyyat İnstitutunu bitirən Müseyib Şahbazov hərtərəfli hazırlığa malik bir ziyalı



Müseyib Şahbazov həyat yoldaşı
Lyubov Şahbazova
ilə birlikdə (1921)

**Müseyib Şahbazov latın əlifbasına keçməyin əhəmiyyəti mövzusunda məqalələrlə çıxış edib**



Müseyib Şahbazov (şəkildə ikinci sırada soldan üçüncü) Dərbənd şəhərində Həmkarlar İttifaqı işçilərinin toplantısında (1927)

olaraq maarif və mədəniyyət məsələlərinə aid bir sıra kitab və məqalələr müəllifi kimi tanınıb.

O, «Yeni yol» qəzetinin redaktoru olarkən bu istiqamətdə fəalyyətini daha da genişləndirib, tükənməz enerji ilə çalışıb.

AK(b)P MK üzvü, Azərbaycan MİK və Zaqafqaziya MİK-in üzvü seçilən Müseyib Şahbazov ÜİK(b)P XIV qurultayının nümayəndəsi olub, Zaqafqaziya Həmkarlar İttifaqları Şurasına və Maarif İşçiləri Həmkarlar İttifaqı MK-ya üzv seçilib, 1936-cı ildə «Qırmızı Əmək Bayrağı» ordeni ilə təltif olunub.

1935–1936-cı illərdə Azərbaycanın xalq maarifi komissarı işləmiş Müseyib Şahbazov latın əlifbasına keçməyin əhəmiyyəti mövzusunda məqalələrlə çıxış edib, xalq maarifinin inkişafı məsələlərinə geniş yer verib.

Dövrünün tanınmış publisistlərindən olan Müseyib Şahbazov yeni insan tərbiyəsi məsələsinə xüsusi diqqət yetirib, bu baxımdan maarif orqanlarının vəzifələrini açıqlayıb.

**Xalq maarifi komissarı işlədiyi iki il ərzində ümumtəhsil məktəb şəbəkəsinin genişləndirilməsi, tədris müəssisələrinin pedaqoji kadrlarla təmin olunması, təhsilin məzmununun təkmilləşdirilməsi istiqamətində xeyli iş görməyə müvəffəq olub**

Xalq maarifi komissarı işlədiyi iki il ərzində sələfləri olan xalq maarifi komissarlarının başladıqları işləri davam etdirərək ümumtəhsil məktəb şəbəkəsinin genişləndirilməsi, tədris müəssisələrinin pedaqoji kadrlarla təmin olunması, təhsilin məzmununun təkmilləşdirilməsi istiqamətində xeyli iş görməyə müvəffəq olub.

Müseyib Şahbazov 1937-ci ildə vəfat edib.



MƏMMƏDSADIQ ƏHMƏD OĞLU
ƏFƏNDİYEV
(1902–1942)

**Məmmədsadıq Əhməd oğlu Əfəndiyev 1902-ci ildə Türkmənistanın Aşqabad şəhərində anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1937)**

Məmmədsadıq Əhməd oğlu Əfəndiyev 1902-ci ildə Türkmənistanın Aşqabad şəhərində anadan olub.

İlk təhsilini Nuxada (indiki Şəki) alan Məmmədsadıq Əfəndiyev 12 yaşında anasını, 5 il sonra isə atasını itirib. 1913-cü ildə Nuxa klassik kişi qimnaziyasına daxil olub. Maddi çətinliklər ucbatından 1919-cu ildən təhsilini davam etdirməklə yanaşı, həm də mətbəədə çalışıb və Nuxa Bolşevik Təşkilatına üzv yazılıb. Ordu sıralarında olarkən Bakıda hərbi məktəbdə oxuyub. Sovet hərbi məktəbinin ilk məzunlarından olan Məmmədsadıq Əfəndiyev 1920-ci ildən hərbi sahədə çalışmağa başlayıb.

1920-ci ilin ortalarından 1925-ci ilə qədər Ümumittifaq Fövqəladə Komissiyası orqanlarında çalışıb. Xüsusi xidmət orqanlarının təcrübəli işçisi kimi Azərbaycanda və İranda mühüm tapşırıqlar yerinə yetirib. Peşəkarlığına və nümunəvi fəaliyyətinə görə Dövlət Təhlükəsizlik Komitəsinin Kollegiya üzvü seçilib, qızıl silahla təltif edilib.

Səhhətindəki problemlərlə bağlı 1925-ci ildə istefaya çıxdıqdan sonra Bakı Türk Fəhlə Teatrının direktoru, Dövlət Opera və Balet Teatrının direktor müavini, Teatr Texnikumunun direktoru, Azərbaycan Tamaşa Müəssisələri İdarəsinin direktoru və direktor müavini vəzifələrində uğurla fəaliyyət göstərib, Moskva Dövlət Kinematoqrafiya İnstitutunda, Çaykovski adına Moskva Dövlət Konservatoriyasında və Pokrovski adına Kommunist Universitetində işləyib.

1931-ci ildə Moskva Qırmızı Professura Ədəbiyyat İnstitutuna qəbul olub. Elmi tədqiqat mövzusu üzərində işə başlasa da, Mərkəzi Komitə tərəfindən yeni vəzifəyə təyin olunduğuna görə dissertasiyasını müdafiə edə bilməyib.

1935–1937-ci illərdə Azərbaycan SSR Baş Siyasi İdarəsinin rəisi, Azərbaycan KP MK-nın təbliğat və təşviqat, mətbuat və nəşriyyat şöbələrinin müdiri vəzifələrində çalışıb.

1937-ci ildə xalq maarifi komissarı təyin edilib. Bir ilə yaxın Azərbaycan təhsilinə uğurla rəhbərlik edib.

1938-ci ildə haqsız olaraq həbs edilib. Uzun sürən araşdırmalardan sonra 1940-cı ildə həbsdən azad olunub.

Sonralar Azərbaycan SSR Xalq Komissarları Sovetinin sosial-mədəni qrupunun rəhbəri, Karl Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun direktoru və Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru işləyib.

Məmmədsadıq Əfəndiyev 1942-ci ildə cəbhəyə göndərilib və həmin il həlak olub.



MİRZƏ RƏHİM OĞLU
MƏMMƏDOV
(1909–1973)

**Mirzə Rəhim oğlu Məmmədov 1909-cu ildə Lerikin Siodi kəndində anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1938–1942; 1954–1959)**

Mirzə Rəhim oğlu Məmmədov 1909-cu ildə Lerikin Siodi kəndində anadan olub.

Lerikdən xoş güzəran ümidi ilə Bakıya yola düşən ailələrdən biri də Mirzənin atası Rəhim Məmmədovun ailəsi idi. Dörd nəfərdən ibarət olan ailə Bakıda gördüklərindən dəhşətə gəlir, 1918-ci ilin mart soyqırımı ən ağrılı hadisə kimi Mirzənin yaddaşında həkk olunur. Sabunçu qəsəbəsində bir nəfər onun böyük qardaşını xidmətçi götürür. Siodiyə qayıdandan sonra atası, bir qədər sonra isə anası dünyasını dəyişir. Tənhalıq və kimsəsizlikdən cana doyan Mirzə Bakıya, qardaşının yanına gəlir.

Onu Alxas adlı bir şəxs himayəsinə götürür. Arıq cüssəli uşaq diribaşlığı, əməksevərliyi ilə özünü sevdirir, yaşamaq üçün bütün əzablara dözür.

Bakıdakı 1 nömrəli uşaq evinə gələn Mirzə burada təhsil almaqla, özü kimi taleyin məşəqqətlərini dadmış uşaqları da oxumağa həvəsləndirib. Sonralar ədəbiyyatşünas alim kimi tanınmış alovlu vətənpərvər Abbas Zamanov yazırdı: «Mirzə ilə Bakıdakı uşaq evində tanış olub dostlaşdıq. Bizi oxumağa həvəsləndirirdi. Uşaq evində böyümüş uşaqların çoxu həyatda nail olduğumuz yaxşı nə varsa, hamısına görə Mirzəyə borcludur».

14 yaşında komsomola qəbul edilən fəal, çalışqan, mehriban Mirzə Məmmədov 1926-cı ildə 2 nömrəli uşaq evinə pioner baş dəstə rəhbəri göndərilib. 3 il sonra Moskvadakı Kommunist Tərbiyəsi Akademiyasına daxil olub.

Moskvadan Azərbaycana qayıtdıqdan sonra Mirzə Məmmədov Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsində 5 il (1932–1937) çalışıb, «Gənc bolşevik» və «Pioner» jurnallarının redaktoru olub. O, həm partiya, həm də dövlət işində zəngin təcrübə toplayıb, xeyirxahlığı unutmayıb, haqqın, ədalətin tərəfdarı kimi tanınıb.




Mirzə Məmmədov 81 nömrəli məktəbin istehsalat təlimi sinfinin müəllim və şagirdləri arasında (1958)

Lənkəran Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışanda da (katib olarkən bu regiondan SSRİ Ali Sovetinin Millətlər Sovetinə deputat seçilib), 1942–1944-cü illərdə Azərbaycan KP MK-nın katibi işləyəndə də, 1944–1946-cı illərdə İranda vitse-konsul olanda da Mirzə Məmmədov daim xalq arasında olub, adamların dərdinə qalmağı bacarıb, ən çətin anlarda vəziyyətdən çıxmağın yollarını tapıb, israfçılığa qarşı amansız olub. O, müharibə illərində Səməd Vurğun, Rəsul Rza, Heydər Hüseynov və başqaları ilə ön cəbhəyə gedərək əsgərləri qələbəyə ruhlandırıb.

**Mirzə Məmmədov xalq maarifi komissarı vəzifəsində çalışdığı 4 il ərzində də yüksək vətənpərvərlik nümunəsi göstərib, milli ideallara bağlılığını çəkinmədən nümayiş etdirib, idarəçilikdə yerli kadrlara üstünlük verib**

İranda diplomatik xidmətdən dönəndən sonra Azərbaycan KP Bakı Şəhər Komitəsində, Respublika Ticarət Nazirliyində, Nazirlər Sovetində məsul vəzifələrdə şərəflə, məsuliyyətlə çalışıb.

Mahir təşkilatçı kimi ürəklərdə xoş xatirələri qalan Mirzə Məmmədov üçün xalq maarifi ən çox sevdiyi, ürəkdən bağlandığı bir sahə olubdur. 1938-ci ildə Azərbaycan SSR xalq maarifi komissarı təyin olunan Mirzə Məmmədov bu vəzifədə çalışdığı 4 il ərzində də yüksək vətənpərvərlik nümunəsi göstərib, milli ideallara bağlılığını çəkinmədən nümayiş etdirib, idarəçilikdə yerli kadrlara üstünlük verib.

O vaxt belə bir qondarma qayda qoyulmuşdu ki, Bakı şəhər xalq maarifi şöbəsinin müdiri azərbaycanlı ola bilməz. Xalq maarifi komissarı Mirzə Məmmədov bu qaydanı pozur. Moskvada Ali Partiya Məktəbini bitirmiş gənc pedaqoq Çimnaz Aslanovanı 1938-ci ildə Bakı şəhər xalq maarifi şöbəsinə müdir təyin edir. Buna görə Mircəfər Bağırov onu yanına çağırsa da, elə bir ciddi problem yaranmır. O, 1942-ci ildə İrana diplomatik işə göndərilir.

1954-cü ildə yenidən Azərbaycanın xalq maarifi komissarı təyin edilən Mirzə Məmmədov ümumi təhsilin inkişafı, məktəblərin tədris-maddi bazasının möhkəmləndirilməsi, bağça və ümumtəhsil məktəblərinin tərbiyəçi və müəllim kadrla-



Mirzə Məmmədov respublika elmi-praktik konfransında (1965)
Şəkildə (soldan): 2. Rəfiqə Hüseynova – Ali məktəb, elmi idarə və maarif işçiləri Respublika Həmkarlar Komitəsinin sədri; 3. Mirzə Məmmədov – Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutunun direktoru; 4. Mehdi Mehdizadə – xalq maarifi naziri; 5. Məmmədəli Zeynalov – xalq maarifi nazirinin birinci müavini və başqaları

**Mirzə Məmmədov pedaqogikanın tarixi və nəzəriyyəsinin aktual problemlərinə cəsarətlə müdaxilə edib, orijinal fikir və ideyaları sayəsində elmi ictimaiyyət arasında böyük nüfuz qazanıb**

rına olan ehtiyacların ödənilməsi istiqamətlərində mövcud problemlərin həlli üçün əsl fədakarlıq göstərib.

1959-cu ildə xalq maarifi komissarı olarkən icbari ümumi təhsil sahəsində gördüyü işləri, elmi araşdırmalarını nəzəri cəhətdən ümumiləşdirərək «Azərbaycan SSR-də icbari təhsilin inkişafı» adlı namizədlik dissertasiyasını müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır. Elə həmin ildə Mirzə Məmmədov pedaqoq, psixoloq və müxtəlif fənlər üzrə metodist alimlərin pərvazlandıqları Azərbaycan Elmi Tədqiqat Pedaqogika İnstitutuna (indiki Təhsil Problemləri İnstitutu) direktor göndərilir.

İnstituta rəhbərlik etdiyi illər ərzində hər biri 15 çap vərəqi həcmində olan «Azərbaycan dilinin metodikası», habelə ikicildlik «Ədəbiyyatın tədrisi metodikası» hazırlanaraq nəşr olunur. Yaradıcılıq diapazonu geniş olan Mirzə Məmmədov pedaqogikanın tarixi və nəzəriyyəsinin aktual problemlərinə cəsarətlə müdaxilə edib, orijinal fikir və ideyaları sayəsində elmi ictimaiyyət arasında böyük nüfuz qazanıb.

Pedaqoji elmlərin bir çox sirlərinə dərindən bələd olan geniş erudisiyalı alim kimi Mirzə Məmmədovun dəyərli məsləhət və tövsiyələri elm yolunda olan gənc tədqiqatçılar üçün böyük əhəmiyyət daşıyıb, bir növ mayak rolunu oynayıb. Azərbaycanda pedaqoji və elmi-pedaqoji kadr hazırlığında müstəsna xidmətləri olan görkəmli alimin ürəyinin hərarətindən, gözünün nurundan, yüksək intellektindən onlarca tədqiqatçıya pay düşüb. Aktuallığı, miqyası ilə seçilən bu tədqiqatlardan əldə olunan nəticələr və elmi yeniliklər pedaqogikanın nəzəri-təcrübi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Mirzə Məmmədov Moskva, Daşkənd və Tbilisidə milli kadrların doktorluq dissertasiyalarının müdafiəsini təşkil edib. Ömrünün sonunadək Azərbaycan Elmi Tədqiqat Pedaqogika İnstitutuna rəhbərlik etmiş Mirzə Məmmədov bu elm ocağının davamlı inkişafı, yüksəlişi üçün əlindən gələni əsirgəməyib.

«Qırmızı Əmək Bayrağı», «Şərəf nişanı» ordenləri və medallarla təltif olunub, SSRİ və Azərbaycan SSR Ali Sovetinə deputat seçilib.

Mirzə Məmmədov 1973-cü il mayın 5-də dünyasını dəyişib, İkinci Fəxri xiyabanda dəfn olunub.



MİRZƏ ƏJDƏR OĞLU
İBRAHİMOV
(1911–1993)

**Mirzə Əjdər oğlu İbrahimov 1911-ci il oktyabr ayının 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olub**

**Fabrik-zavod sagirdliyi məktəbində, Neft sənaye texnikumunda oxuyub, ali təhsil alıb**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1942–1946)**

**İlk tənqidi, publisistik məqalələrini, hekayə və oçerklərini ötən əsrin 30-cu illərində yazıb**

Mirzə Əjdər oğlu İbrahimov 1911-ci il oktyabr ayının 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olub.

1918-ci ildə anası və bacısı aclıqdan öləndən sonra atası və böyük qardaşı ilə Bakıya gələn Mirzə onları da itirib, dayısının himayəsində böyüyüb. Yaşamaq üçün özgə qapılarında çalışıb, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra fabrik-zavod sagirdliyi məktəbində, Neft sənaye texnikumunda oxuyub, ali təhsil alıb.

O, bədii yaradıcılığa Zabrat fəhlə ədəbiyyat dərnəyinin üzvlüyündən başlayıb. Onun «Qazılan buruq» adlı ilk şeiri 1930-cu ildə «Aprel alovları» məcmuəsində dərc olunub. Leninqradda aspiranturanı bitirdikdən sonra Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

İlk tənqidi, publisistik məqalələrini, hekayə və oçerklərini ötən əsrin 30-cu illərində yazıb. 1932-ci ildə sosialist sənayesinin inkişaf sürətini öyrənmək üçün Ukraynanın Donbas şaxtalarında, Dnepropetrovsk sənaye müəssisələrində olub, «Giqantlar ölkəsi» oçerklər kitabını qələmə alıb. Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun ikiillik hazırlıq şöbəsində təhsil aldıqdan sonra Naxçıvan MTS siyasi şöbəsində «Sürət» qəzetinin redaktoru (1933) vəzifəsinə göndərilib.

Mirzə İbrahimov söz sənəti tariximizdə özünəməxsus yeri olan yaradıcı şəxsiyyətlərdəndir. O, Azərbaycan ədəbiyyatını «Həyat», «Madrid», «Məhəbbət», «Kəndçi qızı», «Yaxşı adam», «Közərən ocaqlar» pyesləri, «Gələcək gün», «Böyük dayaq», «Pərvanə» romanları, «Güləbətin», «Fırtına quşu», «Xosrov Ruzbeh» povestləri, «Cənub hekayələri» silsiləsi və s. əsərləri ilə zənginləşdirib. «Böyük demokrat», «Həyat və ədə-



Azərbaycan Yazıçılarının II qurultayının bir qrup istirakçıları (1954)
Şəkildə (soldan).
Birinci sıra: 1. Aleksandr Makarov – sovet yazıçısı, 2. Səməd Vurğun – xalq şairi, 3. Konstantin Simonov – sovet yazıçısı, 4. Mirzə İbrahimov – xalq yazıçısı, 5. Süleyman Rəhimov – xalq yazıçısı.
İkinci sıra: 1. Raçiya Koçar – publisist, 2. Mehdi Hüseyn – xalq yazıçısı, 6. Əli Vəliyev – xalq yazıçısı və başqaları

biyyat», «Azərbaycan dili», «Xəlqilik və realizm cəbhəsindən», «Aşıq ədəbiyyatında realizm» kimi tədqiqat əsərlərinin müəllifidir. Vilyam Şekspirin «Kral Lir», «On ikinci gecə», Molyerin «Don Juan», Anton Çexovun «Üç bacı» pyeslərini, Nikolay Qavriloviç Çernışevskinin «Nə etməli» romanını və digər əsərləri Azərbaycan dilinə tərcümə edib.

**1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilib**

**Azərbaycan müəllimlərinin VI qurultayında (26–28 avqust 1946-cı il) respublika məktəblərində təlim-tərbiyənin keyfiyyətini yaxşılaşdırmaq haqqında məruzə ilə çıxış edib**

Böyük Vətən müharibəsi illərində sovet ordusu sıralarında İranda olub, müşahidələr aparıb, «Vətən yolunda» qəzetinin redaktoru kimi fəaliyyət göstərib. Topladığı fakt və apardığı müşahidələr əsasında bir sıra dəyərli əsərlərini qələmə alıb. Onun tarixi mövzuda yazdığı «Pərvanə» romanı ədəbiyyatşünaslıqda xüsusilə yüksək dəyərləndirilir.

1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilib. O, dəyərli tədqiqat əsərləri ilə yanaşı, həm də Xaqani Şirvani, Səməd Vurğun, İsmayıl Şıxlı və başqa sənətkarlar barədə sanballı məqalələrin müəllifidir.

Mirzə İbrahimov 1942–1946-cı illərdə xalq maarifi komissarı vəzifəsində çalışıb.

Böyük Vətən müharibəsi illərində xüsusən humanitar və ictimai fənlərin məzmunu səfərbərlik ruhunda, vətənpərvərlik kontekstində dəyişdirilmişdi. Dərslik, dərs vəsaitləri çatışmırdı. Bu problemlərin həlli istiqamətində əməyini əsirgəməyən Mirzə İbrahimov müharibədən bir il sonra Azərbaycan müəllimlərinin VI qurultayında (26–28 avqust 1946-cı il) respublika məktəblərində təlim-tərbiyənin keyfiyyətini yaxşılaşdırmaq haqqında məruzə ilə çıxış etmişdi. Akademik Mirzə İbrahimov məruzəsində respublika məktəblərində təlim-tərbiyənin keyfiyyətini yaxşılaşdırmaq haqqında fikirlərini söyləyərək, müharibənin od və alovları içərisində xalq müəlliminin fədakar əməyinin özünü göstərdiyini vurğulamış, ümumi icbari təhsil qanununun yerinə yetirilməsi sahəsində vəziyyəti faktlarla



Mirzə İbrahimov sovet yazıçılarının IV qurultayının nümayəndələri arasında (1967)
Şəkildə (soldan): 1. İmran Qasımov – xalq yazıçısı, 2. Konstantin Simonov – sovet yazıçısı, 3. Mirzə İbrahimov – xalq yazıçısı, 4. Kamal Talıbzadə – professor, 6. İsmayıl Şıxlı – xalq yazıçısı və başqaları

nəzərə çatdırmışdı. «Balalarımızı başdan-başa savadlı etmədən, əsl elm və mədəniyyət yoluna çıxarmadan xalqımızın və Vətənimizin gələcəyini təmin edə bilmərik, əsrlə ayaqlaşa bilmərik: həyat və mübarizə isə tərəqqi ilə, inkişafla ayaqlaşa bilməyənləri kənara atır», – deyən xalq maarifi komissarı müşahidələrini belə ümumiləşdirib: «İşi elə qurmaq, elə bir ilham və ürəklə uşağa yaxınlaşmaq lazımdır ki, o, dərsə getmədikdə, məktəbdən ayrıldıqda darıxsın, ürəyi sıxılsın. Bunun üçün də xadimədən tutmuş mühasibə qədər bütün məktəb işçilərində və birinci növbədə, müəllimdə məhəbbətlə dolu bir ürək və heç zaman, hətta gündəlik işlərin adiliyi altında belə sönməyən bir ilham lazımdır». Məruzədə imtahanların yekunları, təhsilin keyfiyyəti məsələləri də təhlil olunub, müəllimlərin ixtisası, pedaqoji elmlərin tədqiqi problemləri, məktəbə rəhbərlik və məktəb müfəttişlərinin vəzifə səlahiyyətləri kimi motivlər belə nəzərdən qaçırılmayıb.

Pedaqoq alimlər etiraf edirlər ki, Mirzə İbrahimovun maarif işçiləri qarşısındakı məruzə və çıxışları, mətbuatda dərc



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev xalq yazıçısı Mirzə İbrahimova Sosialist Əməyi Qəhrəmanı döş nişanını təqdim edərkən (1981)

olunmuş məqalələri öz elmi dəyərini, aydın ideya istiqamətini hər vaxt saxlayan qiymətli nümunələrdir. Maarif işindən ayrıldıqdan sonra da müntəzəm olaraq müəllim və onun əməyi, məktəb və onun müqəddəs vəzifəsi, ana dilinin tədrisi və öyrənilməsi, şəxsiyyətin mərifəti barəsində mülahizələr söyləyib, pedaqoji mətbuat səhifələrində vaxtaşırı çıxışlar edib.

Akademik Mirzə İbrahimov Azərbaycan tarixini, Azərbaycan pedaqoji dəyərlərini yaxşı bilən alim kimi klassik pedaqoji fikrin ənənələrini davam və inkişaf etdirərək, «təlim-tərbiyə insanı xeyirxah etməlidir» – hikmətli kəlamını vurğulayaraq hər kəs üçün bu işin hələ uşaqlıqdan başlanmasını zəruri sayıb. Onun qənaətinə görə, «insanın vətənpərvərlik duyğusu, ürəyində kamil vətəndaş olmaq üçün qüdrətli və ehtiraslı bir arzu və meylin oyanması» təlim və tərbiyə işi ilə, onun səviyyəsi ilə bağlıdır.

Mirzə İbrahimov Azərbaycan pedaqoji fikrinin görkəmli nümayəndəsi, ilk «Pedaqogika» dərsliyinin müəllifi, məşhur müdərris, Ordubadda «Əxtər», Naxçıvanda «Tərbiyət» məktəblərinin banisi Məhəmməd Tağı Sidqinin məktəbin vəzifələri haqqında dediyi fikirləri daha da inkişaf etdirərək yazır: «Şagirdin yalnız məktəb divarları arasında deyil, məktəbdən xaricdə, evdə, ailədə, küçədə, qonşuda və həyətdə də məktəbli olduğu, məktəb təlim və tərbiyəsi gördüyü bilinməlidir. Nəcib hərəkətləri, oturuşu, duruşu, sual və cavabları, aydın və təmiz danışığı, parlaq və düzgün anlayışından onun məktəbli olduğunu, yaxud məktəb təlim və tərbiyəsi gördüyünü hər kəs sezməlidir».

Mirzə İbrahimov sələflərindən daha irəli gedərək işlədiyi illərdə əsl pedaqoji yenilik olan və hazırda təlim-tərbiyə işində əsas sayılan tələblər irəli sürüb. Bunlar şagirdlərə müstəqillik və idrakını inkişaf etdirmək, müqayisə edə bilmək, nəticə

**Mirzə İbrahimovun maarif işçiləri qarşısındakı məruzə və çıxışları, mətbuatda dərc olunmuş məqalələri öz elmi dəyərini, aydın ideya istiqamətini hər vaxt saxlayan qiymətli nümunələrdir**

**Onun qənaətinə görə, «insanın vətənpərvərlik duyğusu, ürəyində kamil vətəndaş olmaq üçün qüdrətli və ehtiraslı bir arzu və meylin oyanması» təlim və tərbiyə işi ilə, onun səviyyəsi ilə bağlıdır**



Görkəmli yazıçı, Sosialist Əməyi Qəhrəmanı Mirzə İbrahimov Texniki Peşə Təhsili Komitəsinin rəhbər işçiləri arasında (1982)
Şəkildə (soldan).
Birinci sıra: 1. Vera Vilkova – Bakı Şəhər Texniki Peşə Təhsili İdarəsinin metodisti, 2. Mirzə İbrahimov – xalq yazıçısı, 3. Ramiz Məmmədzadə – Texniki Peşə Təhsili Komitəsinin sədr müavini.
İkinci sıra: 1. Əli İsmayılov – Texniki Peşə Təhsili Komitəsinin şöbə müdiri, 2. Zülfüqar Abdullayev – Texniki Peşə Təhsili Komitəsinin sədr müavini, 3. Böyükağa Aslanov – Lenin ordenli istehsalat təlimi ustası, 4. Mahmud Quliyev – Bakı Şəhər Texniki Peşə Təhsili İdarəsinin metodisti

**Mirzə İbrahimov «uşağın şüurunu hərəkətə gətirməyi, ona düşünməyi, mühakimə ilə iş görməyi öyrətməyi» məktəbin və müəllimin əsas vəzifəsi hesab edirdi**

**Mirzə İbrahimovun xalq maarifinin təşkili və idarə edilməsi sahəsindəki fəaliyyəti, zəngin pedaqoji fikirləri maarif və pedaqoji fikrimizin inkişafında mühüm yer tutur**

çıxarmaq, biliyini tətbiq etmək bacarıqlarının aşılanmasıdır. Mirzə İbrahimov «uşağın şüurunu hərəkətə gətirməyi, ona düşünməyi, mühakimə ilə iş görməyi öyrətməyi» məktəbin və müəllimin əsas vəzifəsi hesab edirdi. Çünki uşaq yaşına görə özünün və başqalarının hərəkətinə xeyirli və zərərli, lazımlı və lazımsız olması nöqteyi-nəzərindən qiymət verməyə alışdırılmalıdır. Mirzə İbrahimov qeyd edirdi ki, məktəb uşaqlarda insan həyatının yaradıcısı olan əməyə qarşı müqəddəs bir məhəbbət və etiqad oyatmalı, onda çalışmaq, həm də səmərəli çalışmaq vərdişi tərbiyə etməli, şagirdlərə həqiqi bilik verməli, uşaqların hərtərəfli, ahəngdar inkişafını təmin etməli, əsl vətənpərvərlər, vətəndaşlar yetişdirməlidir.

Mirzə İbrahimovun xalq maarifinin təşkili və idarə edilməsi sahəsindəki fəaliyyəti, zəngin pedaqoji fikirləri maarif və pedaqoji fikrimizin inkişafında mühüm yer tutur. O, dünya pedaqoji fikrinin görkəmli nümayəndələrinin irsini diqqətlə öyrənib, mütərəqqi nə varsa, onu müasirlik ruhu ilə Azərbaycan pedaqogikasına gətirməyə çağırıb. Mətbu çıxışlarında tez-tez antik pedaqogikaya, Henrix Pestalotsi, Konstantin Dmitriyeviç Uşinski, Həsən bəy Zərdabi, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq və Məhəmməd Hadinin əsərlərinə müraciət etməsi onun ən yaxşı pedaqoji ənənələri, fikirləri yaşatmaq və inkişaf etdirmək meyli ilə bağlıdır.

Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini (1946–1950), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1954–1958), Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri (1946–1954), birinci katibi (1965–1975), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1965–1975), Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri olub.

Azərbaycanın xalq yazıçısı (1961), SSRİ (1950) və Azərbaycan SSR Dövlət mükafatı laureatı (1965), əməkdar incəsənət xadimi (1941), Beynəlxalq Nehru mükafatı laureatı (1979) Mirzə İbrahimov Lenin (iki dəfə), «Oktyabr inqilabı», «Qırmızı Əmək Bayrağı» və «Şərəf nişanı» ordenləri ilə təltif edilib. Dəfələrlə SSRİ və Azərbaycan SSR Ali Sovetinə deputat seçilib. 1981-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

1993-cü ildə vəfat edən görkəmli yazıçı, dramaturq, alim, ictimai və dövlət xadimi Mirzə İbrahimov Fəxri xiyabanda dəfn olunub.



MƏMMƏD HƏMİD OĞLU
ƏLƏKBƏROV (ƏLƏKBƏRLİ)
(1899–1959)

**Məmməd Həmid oğlu Ələkbərov (Ələkbərli) 1899-cu ildə Lənkəranda anadan olub**

**Xalq maarifi komissarı vəzifəsində çalışıb (1946–1952)**

**Məmməd Ələkbərov ötən əsrin 50-ci illərində Nazirlər Soveti sədrinin müavini, Azərbaycanın ilk mədəniyyət naziri olub**

Məmməd Həmid oğlu Ələkbərov (Ələkbərli) 1899-cu ildə Lənkəranda anadan olub.

1909-cu ildə atası Məşədi Həmidin ölümündən sonra qohumlarının himayəsində yaşayıb, Lənkərandakı «Behcət» rus-tatar (Azərbaycan – *red.*) məktəbində oxuyub, lakin təhsilini başa vura bilməyib.

1920-ci ilə qədər əmisi oğlunun balıq təsərrüfatında çalışıb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra müəllim hazırlığı kursunu bitirərək Astraxanbazardakı (indiki Cəlilabad) I dərəcəli məktəbə müəllim göndərilib.

1921-ci ildə Lənkəran şəhərindəki 5 nömrəli məktəbdə çalışmağa başlayıb. 1923–1926-cı illərdə Pedaqoji İnstitutda (Bakı) oxuyub. Ali təhsilli mütəxəssis kimi Məmməd Ələkbərov Balaxanıda, Borçalının Başkeçid bölgəsində müəllimlik edib. Quba Qəza Xalq Maarifi Şöbəsinin müdiri işləyib.

1928-ci ildə Xalq Maarifi Komissarlığı aparatına işə qəbul olunub, metodist, məsul icraçı, ibtidai və orta məktəb idarəsi rəisinin müavini vəzifələrində çalışmaqla yanaşı, Azərbaycan Dövlət Elmi Tədqiqat Məktəblər İnstitutunda, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda əvəzçilik qaydasında işləyib.

1939–1943-cü illərdə Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktor müavini vəzifəsində fəaliyyət göstərib. Sonra Azərbaycan Xalq Maarifi Komissarlığında kadrlar idarəsinin rəisi təyin olunub.

Məmməd Həmid oğlu Ələkbərov 1946-cı ildə Azərbaycan xalq maarifi komissarı təyin olunub, 6 il bu vəzifədə çalışıb, dövrün və ictimai qurumun qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün bilik və bacarığını əsirgəməyib.

Məmməd Ələkbərov ötən əsrin 50-ci illərində Nazirlər Soveti sədrinin müavini, Azərbaycanın ilk mədəniyyət naziri olub.

Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası mövzusunda məqalələr yazıb. «Natamam orta və orta məktəblərdə yazı işləri» (1940), «İbtidai məktəbdə oxu metodikası» (1940) və s. kitabları nəşr edilib.

O, «Əməkdar müəllim» fəxri adına layiq görülüb, 1950-ci ildə elmlər namizədi alimlik dərəcəsi alıb.

Məmməd Ələkbərov 1959-cu ildə vəfat edib.

# AZƏRBAYCANIN
# XALQ MAARİFİ
# NAZİRLƏRİ



MEHDİ MƏMMƏD OĞLU
MEHDİZADƏ
(1903–1984)

**Mehdi Məmməd oğlu Mehdizadə 1903-cü ildə Cəbrayıl qəzasının Daşkəsən kəndində anadan olub**

**1952–1954-cü illərdə xalq maarifi komissarı və 1961–1980-ci illərdə isə xalq maarifi naziri vəzifəsində çalışıb**

Mehdi Məmməd oğlu Mehdizadə 1903-cü ildə Cəbrayıl qəzasının Daşkəsən kəndində anadan olub.

1914-cü ildə təlim rus dilində olan ibtidai məktəbdə oxuyub. 1920-ci ildə Daşkəsən kənd qiraət komasının müdiri kimi fəaliyyət göstərib. Cəbrayıldakı pedaqoji kursu bitirdikdən sonra doğma kəndində çalışıb.

1923-cü ildə Mehdi Mehdizadənin müdir olduğu birinci dərəcəli məktəbdə Azərbaycan Xalq Maarifi Komissarlığı tərəfindən yoxlama aparılıb. Bir qədər sonra səmərəli fəaliyyətlərinə görə qəzanın 6 nəfər müəllimi mükafatlandırılıb ki, onlardan biri də gənc pedaqoq Mehdi Mehdizadə olub.

1923-cü ildə Mehdi Mehdizadə qəza xalq maarifi şöbəsinin icazəsi ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun hazırlıq kursuna daxil olub, sonra fizika-riyaziyyat fakültəsində oxuyub. Ali təhsilli fizika-riyaziyyat müəllimi kimi Cəbrayıl qəzasının Qaryagin (indiki Füzuli) şəhərindəki ikinci dərəcəli məktəbdə pedaqoji fəaliyyətini davam etdirib.

Qəza metodbürosuna sədrlik ona tapşırılıb. Məktəblərdə ümumpedaqoji və metodik istiqamətlərdə iş aparıb, qəza məktəblərində çalışan müəllimlərin fəaliyyətinin səmərəliliyini artırmaq üçün bilik və bacarığını əsirgəməyib.

1930-cu ilin martında Azərbaycan SSR Xalq Maarifi Komissarlığı İctimai Tərbiyə Baş İdarəsinin elmi katibi, daha sonra xalq maarifi komissarının birinci müavini Ayna Sulta-

Mehdi Mehdizadə tələbə yoldaşları ilə birlikdə (1925)






Xalq maarifi naziri Mehdi Mehdizadə YUNESKO-nun toplantısında (1960)

novanın köməkçisi təyin edilən Mehdi Mehdizadə Azərbaycan Dövlət Elmi Tədqiqat Məktəblər İnstitutunun aspiranturasına daxil olub. Elə həmin vaxtdan ali məktəbdə – Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi-pedaqoji fəaliyyətə başlayıb, pedaqogika tarixinə, müasir təlim-tərbiyə məsələlərinə aid məqalələrlə dövri mətbuatda çıxış edib.

1941-ci ildə ibtidai təhsilin məzmununa həsr olunmuş namizədlik dissertasiyası müdafiə edib. 1941–1945-ci illər müharibəsində iştirak edən Mehdi Mehdizadə ordudan tərxis olunduqdan sonra APİ-yə qayıdıb, burada kafedra müdiri, dekan, elmi işlər üzrə direktor müavini, direktor (rektor – *red.*) vəzifələrində çalışıb.

**1941-ci ildə ibtidai təhsilin məzmununa həsr olunmuş namizədlik dissertasiyası müdafiə edib**

**Mehdi Mehdizadə ordudan tərxis olunduqdan sonra APİ-yə qayıdıb, burada kafedra müdiri, dekan, elmi işlər üzrə direktor müavini, direktor (rektor – *red.*) vəzifələrində çalışıb**




Xalq maarifi naziri Mehdi Mehdizadə SSRİ nümayəndə heyətinin tərkibində YUNESKO-nun toplantısında

**Onun yaxından iştirakı və həmmüəllifliyi ilə iki hissədən ibarət «Pedaqogika» dərs vəsaiti hazırlanıb**



Azərbaycan xalq maarifi naziri Mehdi Mehdizadə rayon maarif şöbələrinin müdirləri ilə birlikdə
Şəkildə (soldan).
Birinci sıra: 2. Alməmməd Alməmmədov – əməkdar müəllim, 4. Mehdi Mehdizadə – xalq maarifi naziri, 7. Hüseyn Hüseynov – əməkdar müəllim və başqaları

1956-cı ildə pedaqoji elmlər doktoru alimlik dərəcəsi alıb, onun elmi-pedaqoji fəaliyyəti müxtəlif respublikaların görkəmli alimləri tərəfindən yüksək dəyərləndirilib.

1941, 1958–1959-cu illərdə onun yaxından iştirakı və həmmüəllifliyi ilə iki hissədən ibarət «Pedaqogika» dərs vəsaiti hazırlanıb nəşr olunub. Mehdi Mehdizadənin əsərlərinin əksəriyyəti bilavasitə təlimin təşkili, dərsin qurulması və aparılması

Xalq maarifi naziri Mehdi Mehdizadə Azərbaycan müəllimlərinin IV qurultayının nümayəndələri arasında (1960)





Xalq maarifi naziri Mehdi Mehdizadə SSRİ Pedaqoji Elmlər Akademiyasının sessiyasının iştirakçıları arasında (1972)

məsələlərinə, məktəb və pedaqoji fikir tarixinin araşdırılmasına, Azərbaycanda ümumi təhsilin uğurlarının elmi-pedaqoji təhlilinə həsr olunub.

1952-ci ildə Azərbaycanın xalq maarifi komissarı təyin olunan Mehdi Mehdizadə iki ildən sonra yenidən APİ-yə qayıdıb, müəllim və elmi-pedaqoji kadrların hazırlanmasında bir pedaqoq, alim, elmi rəhbər, opponent kimi bilik, bacarıq və köməyini əsirgəməyib.

**Mehdi Mehdizadə təhsil sahəsində beynəlxalq əlaqələrin inkişafı sahəsində böyük işlər görüb**

1961-ci ildə respublikanın xalq maarifi naziri seçilərək, səmərəli fəaliyyət göstərib. SSRİ PEA-nın həqiqi üzvü olan (1967) Mehdi Mehdizadə təhsil sahəsində beynəlxalq əlaqələrin inkişafı sahəsində böyük işlər görüb, YUNESKO-nun təhsil üzrə komitələrindən birinin üzvü olub. «Azərbaycan məktəbi», «Советская педагогика», «Народное образование» və başqa jurnallarda, SSRİ-nin digər respublikalarının pedaqoji mətbuat səhifələrində məqalələrlə çıxış edib.

Akademik Mehdi Mehdizadənin «Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr» («Azərbaycan və rus dillə-



Mehdi Mehdizadə xalq maarifinin inkişafına həsr olunmuş müşavirədə çıxış edərkən (1974)
Şəkildə (soldan):
3. Zəhra Əliyeva – Xalq Maarifi Nazirliyi Baş məktəblər idarəsinin rəisi, 4. Mehdi Mehdizadə – xalq maarifi naziri, 5. Həmid Fərzəlibəyli – Gəncə Pedaqoji İnstitutunun kafedra müdiri, professor və başqaları



Qazax rayon Baş Salahlı kənd orta məktəbinin 100 illik yubiley mərasimi (1975)

**Akademik Mehdi Mehdizadənin irihəcmli monoqrafiyaları və yüzdən artıq məqaləsi Azərbaycan pedaqogika elminin inkişafında sanballı yer tutur**

rində, Bakı:1959; Moskva, 1962), «Azərbaycan xalq maarifi yeni yüksəlişdə» (Bakı, 1967), «Azərbaycan xalq maarifinin sürətli inkişafı» (Azərbaycan və rus dillərində, Bakı, 1980), «Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin yolları» (Bakı, 1982) kimi irihəcmli monoqrafiyaları və yüzdən artıq məqaləsi Azərbaycan pedaqogika elminin inkişafında sanballı yer tutur.

Alimin «Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları» monoqrafiyası məktəblilərin fəal həyat və idrak mövqeyi məsələlərini, onlarda ictimai və əmək fəallığının formalaşdırılması yollarını, təlim metodlarının təkmilləşdirilməsi və şagirdlərin müstəqil işinin səmərəli təşkili təcrübəsini əks etdirir.

Onun elmi əsərlərinin bir qismi Azərbaycanda 1920-ci iləqədərki məktəb quruculuğu məsələlərinə, təhsilin təşkilinə,



Xalq maarifi naziri Mehdi Mehdizadə ziyalılarla birlikdə

ayrı-ayrı pedaqoqların pedaqoji fəaliyyətinin öyrənilməsinə həsr edilib. Mehdi Mehdizadə ilk dəfə olaraq Azərbaycanda, eləcə də bütün Qafqazda fəaliyyət göstərən, təlim rus dilində olan məktəblərin açılmasını çar Rusiyasının siyasi məqsədləri, istilaçılıq niyyəti ilə əlaqələndirib, eyni zamanda, rus məktəblərinin mütərəqqi rolunu da göstərib.

Onun ən böyük xidmətlərindən biri Azərbaycanda məktəb tarixinin 1920-ci ildən sonrakı dövrünün öyrənilməsi ilə bağlıdır. Xüsusilə ötən əsrin 20–30-cu illərindəki təhsil quruculuğu axtarışları, birinci və ikinci dərəcəli məktəblərdən vahid əmək politexnik məktəblərə doğru inkişaf, müxtəlif təlim metodlarının tətbiqi, kompleks proqramlar və digər mühüm pedaqoji məsələlərin həlli onun tədqiqatlarının aparıcı qollarını təşkil edir.

**Mehdi Mehdizadənin ən böyük xidmətlərindən biri Azərbaycanda məktəb tarixinin 1920-ci ildən sonrakı dövrünün öyrənilməsi ilə bağlıdır**

**Azərbaycan müəllimlərinin qurultaylarının üçünün (VII, VIII və IX) keçirilməsi Mehdi Mehdizadənin xalq maarifi komissarı və xalq maarifi naziri olduğu illərə təsadüf edir**

Azərbaycan müəllimlərinin qurultaylarının üçünün (VII, VIII və IX) keçirilməsi Mehdi Mehdizadənin xalq maarifi komissarı və xalq maarifi naziri olduğu illərə təsadüf edir. Həmin qurultaylar xalq maarifi naziri və alim kimi onun pedaqoji sahədə dərin bilik və təhlil qabiliyyətini bir daha sübuta yetirir.

1980-ci ildə təqaüdə çıxan akademik sırf elmi yaradıcılıqla məşğul olub, «Məktəb və məktəbli şəxsiyyətinin hərtərəfli inkişafı» adlı irihəcmli əsərini tamamlayıb nəşr üçün SSRİ Pedaqoji Elmlər Akademiyasına təqdim edib. Bunlarla kifayətlənməyib, Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda elmi məsləhətçi kimi elmi tədqiqat problemlərinin seçilməsi və planlaşdırılmasında yaxından iştirak edib, gənc alimlərə məsləhətlər verib, məzmunlu mühazirələr oxuyub, SSRİ PEA-nın müxtəlif komissiyalarına rəhbərlik işini uğurla yerinə yetirib.

Mehdi Mehdizadənin əməyi yüksək qiymətləndirilib. O, Lenin ordeni, üç dəfə «Qırmızı Əmək Bayrağı» ordeni, dörd dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri



Xalq maarifi naziri Mehdi Mehdizadə Ümumittifaq ali məktəb, elmi idarə və maarif işçiləri Həmkarlar Komitəsinin VIII qurultayının Azərbaycandan olan nümayəndələri arasında (1977)
Şəkildə (soldan). Birinci sıra: 1. Məsmə Atakişiyeva – Sosialist Əməyi Qəhrəmanı, Bakı şəhər 37 nömrəli məktəbin müəllimi, 2. Tamilla Axundova – SSRİ Ali Sovetinin deputatı, 3. Mehdi Mehdizadə – xalq maarifi naziri, 4. Maral Şirinova – Sosialist Əməyi Qəhrəmanı.
İkinci sıra: 4. Şahin Səfərov – «Azəbaycan müəllimi» qəzetinin baş redaktoru, 7. Zahid Şöyübov – SSRİ xalq müəllimi və başqaları



Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Leonid İliç Brejnev Bakıya səfəri zamanı Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə birgə təhsil sərgisinə baxarkən (1978)
Şəkildə (soldan): 1. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 2. Leonid İliç Brejnev – SSRİ Mərkəzi Komitəsinin Baş katibi, 3. Mehdi Mehdizadə – xalq maarifi naziri, 5. Sergey Kozlov – Azərbaycan KP MK-nın ikinci katibi və başqaları

fərmanı ilə və müxtəlif medallarla təltif edilib, «Əməkdar elm xadimi» fəxri adına layiq görülüb. Akademik xalq maarifinin inkişafı sahəsindəki xidmətlərinə görə SSRİ PEA-nın təsis etdiyi medal ilə də təltif edilib.

Görkəmli alimin əsərləri Azərbaycan pedaqoji elminin qiymətli incisi kimi bu gün də öz dəyərini qoruyub saxlayır.

Akademik Mehdi Mehdizadə 1984-cü ildə vəfat edib.



RƏHİM KƏRƏM OĞLU
RƏHİMOV
(1920–2009)

**Rəhim Kərəm oğlu Rəhimov 1920-ci ildə Naxçıvan MR Şərur rayonunun Qıvraq kəndində anadan olub**

**Xalq maarifi naziri vəzifəsində çalışıb (1959–1961)**

Rəhim Kərəm oğlu Rəhimov 1920-ci ildə Naxçıvan MR Şərur rayonunun Qıvraq kəndində anadan olub.

1941-ci ildə Naxçıvan Müəllimlər İnstitutunun fizika-riyaziyyat şöbəsini bitirib. 1941–1942-ci illərdə Naxçıvan MR-in Qarabağlar kənd orta məktəbində müəllim işləyib, hərbi xidmətini başa vurduqdan sonra isə Nehrəm kənd orta məktəbinə direktor təyin olunub.

1944-cü ildə Azərbaycan KP MK-nın nəzdində birillik partiya məktəbinə oxumağa göndərilib. Sonra Azərbaycan KP-nin Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı, Culfa rayon Partiya Komitəsinin ikinci katibi və Naxçıvan Vilayət Partiya Komitəsinin Təbliğat və Təşviqat Şöbəsinin müdiri vəzifələrində (1945–1948) çalışıb. 1948–1959-cu illərdə Naxçıvan MSSR Nazirlər Sovetinin sədrinin birinci müavini və Naxçıvan MSSR Nazirlər Sovetinin sədri vəzifələrində işləyib. 1949–1952-ci illərdə Sov.İKP MK yanında Ali Partiya Məktəbində təhsil alıb.

1959–1961-ci illərdə Ümumittifaq Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunun aspiranturasında oxuyub. 1962-ci ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi alıb.

1959-cu ilin mart ayında Azərbaycan SSR Ali Soveti Rəhim Rəhimovu xalq maarifi naziri təyin edib. 1961-ci ilin fevralına qədər bu vəzifədə çalışıb, respublikamızda elmin və təhsilin inkişafı üçün əhəmiyyətli işlər görməyə nail olub.



Təhsil naziri Misir Mərdanov və Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru Rəhim Rəhimov (2000)

1961–1981-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsində kollegiya üzvü və şöbə müdiri kimi fəaliyyət göstərib. Sonralar Azərbaycan Texnologiya Universitetinin rektoru (1981–1986), Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru (1986–2001) olub. 2001-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində çalışıb.

**Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru (1986–2001) olub**

Naxçıvan MSSR, Azərbaycan SSR Ali Sovetinin (IV çağırış) və SSRİ Ali Sovetinin (V çağırış) deputatı olub. Azərbaycan KP MK-nın üzvü seçilib. Azərbaycan Texnologiya Universitetinin və Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun yaradılmasında Rəhim Rəhimovun xüsusi əməyi vardır.

**2001-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində işləyib**

Əzmkarlığı, dəqiqliyi, işgüzarlığı ilə fərqlənən Rəhim Rəhimov «Böyük Vətən müharibəsi», «Qırmızı Əmək Bayrağı» ordenləri və 10-dan artıq medalla təltif olunub. SSRİ Təhsil Nazirliyi və Azərbaycan SSR-nin Təhsil Nazirliyi tərəfindən Fəxri fərmanlara layiq görülüb.

1999-cu ildə Azərbaycan Ziyalılar Cəmiyyətinin «İlin fəxri ziyalısı» diplomu ilə təltif edilib. Respublika Ağsaqqallar Şurasının üzvü olub.

Azərbaycan SSR-in əməkdar iqtisadçısı, professor Rəhim Rəhimov 2009-cu ildə vəfat edib.



ELMİRA MİKAYIL QIZI
QAFAROVA
(1934–1993)

**Elmira Mikayıl qızı Qafarova 1934-cü ildə Bakıda anadan olub**

**Xalq maarifi naziri vəzifəsində çalışıb (1980–1983)**

Elmira Mikayıl qızı Qafarova 1934-cü ildə Bakıda anadan olub.

Bakı şəhərindəki 23 nömrəli orta məktəbdə təhsil alıb. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra aspiranturada oxuyub. 1961-ci ildə Elmira Qafarova dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 1961–1970-ci illərdə Azərbaycan KP MK-nın təlimatçısı, Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı MK-nın katibi və birinci katibi vəzifələrində çalışıb.

1970–1980-ci illərdə Azərbaycan KP MK mədəniyyət şöbəsinin müdir müavini, Bakı Şəhər Partiya Komitəsinin katibi işləyib.

Elmira Qafarova 1980-ci ildə xalq maarifi naziri təyin edilib, 3 il bu vəzifədə çalışıb.

Sov. İKP MK-nın Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi altında həmin illərdə respublika məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, təlimin məzmununun təkmilləşdirilməsi, pedaqoji kadrlarla təminatın yaxşılaşdırılması istiqamətlərində görülən işlərdə xalq maarifi naziri kimi təşkilatçılıq bacarığını əsirgəməyib. Respublika üzrə müxtəlif elmi-



Elmira Qafarova Azərbaycan KP MK-nın plenumunda
Şəkildə (soldan):
Birinci sıra: 1. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 2. Elmira Qafarova – xalq maarifi naziri, 3. Həsən Həsənov – Azərbaycan KP MK-nın katibi, 4. Həsən Seyidov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri və başqaları




praktik konfransların təşkilində, məktəblərdə pedaqoji mühitin yaxşılaşdırılmasında xüsusi fəallıq göstərib.

Elmira Qafarovanın təşəbbüsü ilə Estetik tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzi yaradılıb. Bununla bağlı nazirliyin işçiləri Zaqafqaziyanın mərkəzi şəhərlərinə dəfələrlə ezamiyyəyə göndərilib və nəhayət, mərkəzin səmərəli fəaliyyəti təmin olunub.

Həmin dövrdə müəllimlərin təltif olunması mərasimləri xüsusilə yaddaqalan olurdu. 1981-ci ildə Azərbaycanda orden-

8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən bayram tədbiri (1970)
Şəkildə (soldan). Birinci sıra:
2. Səidə İmanzadə – professor, 3. Qurban Xəlilov – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, 5. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 6. Elmira Qafarova – Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı MK-nın birinci katibi, 7. Əli İbrahimov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 8. Şamama Həsənova – Sosialist Əməyi Qəhrəmanı, 9. Züleyxa Hüseynova – ali və orta ixtisas təhsili naziri və başqaları



Elmira Qafarova ilk qadın kosmonavt Valentina Tereşkova ilə görüşdə (1970)
Şəkildə (soldan): 1. Nəbi Xəzri – xalq şairi, 3. Elmira Qafarova – Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı MK-nın birinci katibi, 4. Valentina Tereşkova – Sovet İttifaqı Qəhrəmanı



Elmira Qafarova Azərbaycan SSR KP MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi ilə keçirilən təhsilə həsr olunmuş respublika müşavirəsində (1981)
Şəkildə (soldan). Birinci sıra:
1. Qurban Xəlilov – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, 2. Elmira Qafarova – xalq maarifi naziri, 3. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 4.Həsən Seyidov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 5. Qurban Əliyev – ali və orta ixtisas təhsili naziri, 6. Həsən Abdullayev – Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti.
İkinci sıra: 1. Vaqif Hüseynov – Bakı Şəhər Partiya Komitəsinin katibi, 2. Həsən Həsənov – Azərbaycan KP MK-nın katibi, 3. Cahangir Müslümzadə – Azərbaycan LKGİ MK-nın birinci katibi, 4. Zakir Bağırov – mədəniyyət naziri və başqaları

medallara layiq görülmüş 305 maarif işçisinin Siyasi-Maarif Evində təltif olunması mərasiminə Heydər Əliyev də qatılıb və onlara orden, medalları şəxsən özü təqdim edib. Təhsil sahəsində də milli kadrların irəli çəkilməsinə xüsusi önəm verən Heydər Əliyevin təşəbbüsü ilə «SSRİ xalq müəllimi» fəxri adına namizədlər arasında azərbaycanlılara xüsusi yer verilirdi.

Orta məktəbi bitirənlərin qızıl, gümüş medalla təltif edilməsi adi məsələlərdən biri olsa da, Elmira Qafarova bunu



Bakıdakı 23 nömrəli orta məktəbdə görüş (1981)
Şəkildə (soldan). Birinci sıra:
1. Elmira Qafarova – xalq maarifi naziri, 2. Vladimir Yaqotkin – SSRİ xalq maarifi nazirinin müavini, 3.Valeriya Kurdyumova – Bakı şəhər 23 nömrəli məktəbin direktoru və başqaları

xeyli sərtləşdirib, bu işə nəzarəti gücləndirib. Eləcə də qəbul olunmuş qərara əsasən uşaqlar valideynlərinin müəllim işlədiyi məktəblərdə təhsil ala bilməzdilər.

Müsbət haldır ki, Elmira Qafarovanın dövründə xarici ölkələrlə təhsil sahəsindəki əlaqələr də xeyli canlandı. Xaricdə işləməyə gedən azərbaycanlı gənclərin sayı artdı. Azərbaycana Polşadan, Macarıstandan, Vyetnamdan, Bolqarıstandan, Finlandiyadan və başqa ölkələrdən nümayəndələr səfər edirdi.

Elmira Qafarovanın incəsənət işçiləri ilə sıx əlaqəsi var idi. Ən tanınmış mədəniyyət və incəsənət işçiləri nazirliyə tez-tez gəlirdilər.

**Orta məktəbi bitirənlərin qızıl, gümüş medalla təltif edilməsi adi məsələlərdən biri olsa da, Elmira Qafarova bunu xeyli sərtləşdirib, bu işə nəzarəti gücləndirib**



Xalq maarifi naziri Elmira Qafarova gənc istedadların əl işlərindən ibarət sərginin açılışında (1982)
Şəkildə (soldan). Birinci sıra:
1. Mürsəl Nəcəfov – xalq rəssamı,
2. Elmira Qafarova – xalq maarifi naziri və başqaları



Xarici işlər naziri Elmira Qafarova xarici qonaqları qəbul edərkən (1984)

**1983-cü ildə Azərbaycanın xarici işlər naziri təyin edilən Elmira Qafarova 4 ilə yaxın bu vəzifədə çalışıb**

O, qadınların rəhbər vəzifələrə irəli çəkilməsinə də müsbət yanaşırdı. Həmin illərdə Sabirabad, Balakən, Yevlax, Səbail, Nərimanov, Xaçmaz, Naftalan və başqa rayonlarda xalq maarifi şöbələrinə qadınlar müdir təyin olunmuşdu.

1983-cü ildə Azərbaycanın xarici işlər naziri təyin edilən Elmira Qafarova 4 ilə yaxın bu vəzifədə çalışıb. 1987-ci ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin sədr müavini vəzifəsinə təyin edilib.

SSRİ Ali Sovetinin və bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub.

Dağlıq Qarabağ hadisələrinin regionda ciddi ziddiyyətlər doğurduğu bir zamanda Elmira Qafarova Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri seçilib. Bu qurumun adı dəyişdiriləndən sonra isə 1991-ci ilə qədər Respublika Ali Sovetinin sədri vəzifəsində çalışıb.

Elmira Qafarova 1993-cü ildə vəfat edib.



KAMRAN NƏBİ OĞLU
RƏHİMOV
(1928–2007)

**Kamran Nəbi oğlu Rəhimov 1928-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qarabağlar kəndində dünyaya göz açıb**

**Xalq maarifi naziri vəzifəsində çalışıb (1983–1988)**

Kamran Nəbi oğlu Rəhimov 1928-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qarabağlar kəndində dünyaya göz açıb.

Qeyri-adi qabiliyyəti, elmə, biliyə marağı sayəsində Naxçıvan ikiillik Müəllimlər İnstitutunun tarix, dil-ədəbiyyat fakültəsinə qəbul edilib. 1945-ci ildə institutu fərqlənmə diplomu ilə bitirib, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olub, ali təhsilini başa vurduqdan sonra universitetin yeni tarix kafedrasında baş müəllim kimi saxlanılıb.

1954-cü ildə Kamran Rəhimov Partiya Tarixi İnstitutunun aspiranturasına qəbul olunub, Azərbaycan KP MK-nın nəzəri-siyasi jurnalı olan «Azərbaycan kommunisti»nə şöbə müdiri vəzifəsinə göndərilib. 1959–1962-ci illərdə Baş redaktorun müavini, 1962-ci ildən 1975-ci ilə qədər Baş redaktor vəzifəsində çalışıb.

Jurnalda işləyə-işləyə elmi və müəllimlik fəaliyyətini davam etdirib, universitetdə saathesabı mühazirələr oxuyub. 1958-ci ildə namizədlik, 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin böyük elmi şurasında, 1967-ci ildə isə SSRİ Ali Attestasiya Komissiyasının plenumunda doktorluq dissertasiyası müdafiə edib.

Kamran Rəhimov bir sıra monoqrafiya, dərslik, çoxsaylı elmi-nəzəri və publisistik məqalələrin müəllifidir.



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvanda yeni tikililərlə tanış olarkən (1978)



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvanda keçirilən yığıncağın rəyasət heyətində (1978)

Dəfələrlə Moskvanın, keçmiş müttəfiq respublikaların və bir sıra digər ölkələrin mətbuat orqanlarında aktual nəzəri mövzularda məqalələrlə çıxış edib. Azərbaycan Respublikasında yeganə alimdir ki, Moskvanın «Kommunist» jurnalında iki dəfə nəzəri-elmi məqaləsi dərc olunub.

Kamran Rəhimov Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi işlədiyi dövrdə (1975–1983) sənaye obyektləri, dəryaçalar, meyvə və üzüm bağları, heyvandarlıq kompleksləri tikilib istifadəyə verilib. Azərbaycan EA-nın Naxçıvan Elmi Mərkəzinin fəaliyyəti canlandırılıb.

**Kamran Rəhimov erməni və gürcü məktəblərində Azərbaycan tarixinin, Azərbaycan dilinin, ədəbiyyatının, coğrafiyasının tədris edilməsini təmin etmək məsələsini gündəmə gətirib**

Həmin illərdə mədəniyyət sahəsində də nəzərəçarpan işlər görülüb. Naxçıvan, Ordubad şəhərlərində, Şahbuz qəsəbəsində, vilayətin bir çox kəndlərində mədəniyyət sarayları tikilib istifadəyə verilib. Bütün rayonlarda ölkəşünaslıq muzeyləri yaradılıb, tariximizin qədim yadigarlarının ermənilər tərəfindən oğurlanıb aparılmasının qarşısı alınaraq eksponatlar həmin muzeylərdə cəmləşdirilib.

1983-cü ildə professor Kamran Rəhimov Azərbaycan Respublikasının xalq maarifi naziri vəzifəsinə təyin edilib. Xalq maarifi naziri kimi o, bir sıra layihələrin həyata keçirilməsi işinə başlayıb.

Kamran Rəhimov erməni və gürcü məktəblərində Azərbaycan tarixinin, Azərbaycan dilinin, ədəbiyyatının, coğrafiyasının tədris edilməsi məsələsini gündəmə gətirib. SSRİ Nazirlər Sovetinin 1962-ci il tarixli 230 nömrəli qərarına istinad edərək, erməni və gürcü məktəblərində həmin fənlərin tədris edilməsi

**Kamran Rəhimov bütün rayon məktəblərində kompyuter siniflərinin yaradılmasına xüsusi diqqət yetirib**



Naxçıvanda yeni məktəb binasının açılış mərasimi (1979)

haqqında göstəriş verilib, bu dərsliklərin erməni və gürcü dillərinə tərcümə edilməsinə başlanılıb. Yuxarı siniflər üçün «Azərbaycan tarixi» erməni dilinə tərcümə edilərək erməni məktəblərinə göndərilib.

1986-cı ildə SSRİ maarif işçiləri nümayəndə heyətinin rəhbəri kimi Kamran Rəhimov Belçikada olarkən ümumi təhsilin vəziyyəti, müəllim kadrların hazırlanması prosesi ilə ətraflı maraqlanıb. Belçika məktəblərinin kompyuterləşdirilməsi onun diqqətini xüsusilə cəlb edib. Bununla da ölkədə keçirilən məktəb islahatında tədris ocaqlarının kompyuterləşdirilməsi öz əksini tapıb. Kamran Rəhimov bütün rayon



**Qısa müddətdə bir çox ümumtəhsil məktəblərində Yaponiyadan və Moskvadan gətirilmiş kompyuterlər quraşdırılır**

Qazax rayon Xalq Maarifi Şöbəsində (1984)

məktəblərində kompyuter siniflərinin yaradılmasına xüsusi diqqət yetirib. Maarif Nazirliyinin tikinti tresti yanında müvafiq mütəxəssislərdən ibarət qrup yaradılır və həmin qrup lazımi avadanlıqlarla təchiz olunur, müəllimlər üçün kurslar təşkil edilir.

Qısa müddətdə bir çox ümumtəhsil məktəblərində Yaponiyadan və Moskvadan gətirilmiş kompyuterlər quraşdırılır. Təhsilin kütləvi kompyuterləşməsinin aktuallığını nəzərə alaraq, Bakı Radio Zavodunun orta məktəblər üçün kompyuter istehsalı üzrə ixtisaslaşdırılması məsələsi qaldırılır. Bu təşəb-

Xalq maarifi naziri Kamran Rahimov Qazaxda (1984)
Şəkildə (soldan): 1. Rüstəm Rüstəmov – Qazax rayon xalq maarifi şöbəsinin müdiri, 3. Kamran Rəhimov – xalq maarifi naziri və başqaları





Qazax Xalq Maarifi Şöbəsinə Keçici Qırmızı Bayraq verilərkən (1984)
Şəkildə (soldan): 1. Şahin Səfərov – «Azərbayca müəllimi» qəzetinin baş redaktoru, 2. Kamran Rəhimov – xalq maarifi naziri və başqaları

büs bəyənilərək müvafiq qərar qəbul edilir, Bakı kompyuterinin ilk nümunəsi hazırlanır.

1988-ci ildə respublikanın Maarif, Ali və Orta İxtisas Təhsili nazirlikləri, Texniki Peşə Təhsili Komitəsi vahid bir qurumda birləşdirilərək, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi yaradılır. Yeni nazirliyin strukturu müəyyənləşdirilərkən professor Kamran Rəhimov xalq təhsili nazirinin birinci müavini təyin olunur.

**1988-ci ildə respublikanın Maarif, Ali və Orta İxtisas Təhsili nazirlikləri, Texniki Peşə Təhsili Komitəsi vahid bir qurumda birləşdirilərək, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi yaradılır**

Kamran Rəhimov Milli Məclisin üzvü kimi Azərbaycan nümayəndə heyətlərinin tərkibində dəfələrlə xarici ölkələrdə səfərlərdə olub.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Kamran Rəhimov 2007-ci ildə vəfat edib.



TOFİQ İSMAYIL OĞLU
HACIYEV
(1936)

**Tofiq İsmayıl oğlu Hacıyev 1936-cı ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub**

**Xalq maarifi naziri vəzifəsində çalışıb (1993)**

**Onun elmi yaradıcılığında «Kitabi-Dədə Qorqud»la bağlı tədqiqatlar mühüm yer tutur**

Tofiq İsmayıl oğlu Hacıyev 1936-cı ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub.

Soltanlı kənd orta məktəbini bitirib. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunub, 1958-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib və dilçilik ixtisası üzrə aspiranturaya qəbul edilib.

1962-ci ilin martında «Azərbaycan dilinin Cəbrayıl şivəsi» mövzusunda namizədlik, 1969-cu ildə «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili» mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Onun «Sabir: qaynaqlar və sələflər» (1980), «Şeirimiz, nəsrimiz, ədəbi dilimiz» (1990), «Dədə Qorqud: dilimiz, düşüncəmiz» (1999) kitabları işıq üzü görüb. «Azərbaycan sovet ədəbiyyatı» (1988) dərsliyinin ərsəyə gəlməsində həmmüəllif kimi iştirak edib. Eyni zamanda «Azərbaycan ədəbi dili tarixi» (2-ci hissə, 1987) dərsliyinin, «Azərbaycan ədəbi dili tarixi» (1976), «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili tarixi» (1977), «Azərbaycan dili tarixi» (1983, Kamil Vəliyevlə birgə), «Azərbaycan dili» (1993, Zərifə Budaqova ilə birgə) kimi monoqrafiya və dərs vəsaitlərinin müəllifidir. Klassiklərimizin dili və üslubu ilə bağlı onlarca məqaləsi işıq üzü görüb, «Satira dili» (1975), «Yazıçı dili və ideya-bədii təhlil» (1979), «Molla Nəsrəddin»in dili və üslubu» (1983), «Füzuli: dil sənətkarlığı» (1994) kitabları çap olunub. Orta məktəblər üçün «Türk dili» (IX sinif, 1994, Əsgər Quliyev, Nizami Cəfərovla birgə), «Türk dili» (X–XI siniflər, 1994, Nizami Cəfərovla birgə) dərslikləri də nəşr edilib.



Elmi Şuranın iclasında (1979)
Şəkildə (soldan-sağa):
1. Tofiq Hacıyev – professor,
2. Məmmədağa Şirəliyev – akademik,
3. Rəhilə Məhərrəmova – professor



Tehran şəhərində Cənubi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın yubiley mərasimi (1994)
Şəkildə (soldan): 1. Kamal Talıbzadə – akademik, 2. Tofiq Hacıyev – AMEA-nın müxbir üzvü

O, mərhum professor Hadı Mirzəzadənin «Tarixi qrammatika» dərsliyini yenidən çapa hazırlayarkən kitabda olmayan «Zərf» və «Ədat» bəhslərini yazıb. Ümumiyyətlə, 20 kitabın, 400-dən çox elmi məqalənin müəllifidir. Kadr hazırlığı sahəsində də çox iş görüb, dil tarixi, dialektologiya üzrə respublikamız və başqa türk xalqları üçün xeyli sayda elmi işçi yetirib. Kişinyov, Almatı, Düşənbə, Bişkek, Nukus, Nalçik və başqa şəhərlərdə elmi konfrans və simpoziumlarda dil tarixi və dialektologiyanın aktual mövzularında məruzələr edib. Qayseri (1990), Tehran (1992, 1995), Antalya (1993) və Ankarada (1996) keçirilmiş elmi konfranslarda məruzələr oxuyub.

Onun elmi yaradıcılığında «Kitabi – Dədə Qorqud»la bağlı tədqiqatlar mühüm yer tutur. Tofiq Hacıyevin Kamil Vəliyevlə 1975 və 1976-cı illərdə Azərbaycan Dövlət Universitetində respublika səviyyəsində təşkil etdikləri «Dədə Qorqud» seminarı Azərbaycan qorqudşünaslığında bir dirçəliş yaratdı. Birinci seminarın materialları ADU-nun «Elmi əsər-



Türkiyədən gəlmiş dilçi alimlərlə birlikdə (1999)
Şəkildə (soldan): 1. Əhməd Ərcilasun – dilçi alim, 2. Tofiq Hacıyev – AMEA-nın müxbir üzvü, 3. Bəxtiyar Vahabzadə – xalq şairi, 4. Zeynəb Qorxmaz – dilçi alim



Gəncə şəhərində Mir Cəlal Paşayev adına Elmi Tədqiqat Mərkəzinin açılış mərasimi (2008)
Şəkildə (soldan). Birinci sıra: 2. Arif Paşayev – akademik, 3. Ədibə Paşayeva – dosent, 4. Nərgiz Paşayeva – professor, 5. Tofiq Hacıyev – AMEA-nın müxbir üzvü, 6. Eldar Əzizov – Gəncə Şəhər İH-nın başçısı, 7. Arif Mehdiyev – akademik, 8. Akif Hacıyev – akademik, 10. Təhsin Mütəllimov – professor və başqaları

**Professor Tofiq Hacıyev ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin hazırlanmasında təşkilatçı və müəllif kimi iştirak edib**

ləri»nin (dil və ədəbiyyat seriyası) 1976-cı il 4-cü nömrəsində çap olunub (İkinci seminarın materialları isə həmin jurnalın müxtəlif nömrələrində dərc edilib). Bu tədqiqat onun «Dədə Qorqud»la bağlı gələcək axtarışlarında ilk addımı idi. «Azərbaycan ədəbi dili tarixi» (1976) kitabında «Kitabi – Dədə Qorqud»dakı hadisələrin, obrazların tarixi, abidənin dili, poetikası, etnoqrafik xüsusiyyətləri haqqında geniş təhlil verib.

Professor Tofiq Hacıyev ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin hazırlanmasında təşkilatçı və müəllif kimi iştirak edib.

1993-cü ilin yayından payızına qədər Azərbaycan Respublikasının xalq maarifi naziri işləyib. Bu dövrdə orta ümumtəhsil məktəbləri üçün Azərbaycan dili dərsliklərinin tərtibi və redaktəsində səmərəli əmək sərf edib, müstəqil Azərbaycan maarifinin inkişafı naminə bir sıra layihələrin ideyasını irəli sürüb.

Lakin nazirliklərin yenidən birləşdirilməsi ilə əlaqədar olaraq BDU-nun türkologiya kafedrasına rəhbərliyə qayıdıb. Atatürk adına Dil Qurumunun həqiqi üzvü seçilən görkəmli professor Türkiyə Respublikasının «Ləyaqət» ordeni ilə təltif olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi Tofiq Hacıyev elmi-pedaqoji yaradıcılığını bu gün də uğurla davam etdirir.

# AZƏRBAYCAN DÖVLƏT TEXNİKİ PEŞƏ TƏHSİLİ KOMİTƏSİNİN SƏDRLƏRİ



ƏKBƏR ƏSGƏR OĞLU
ƏNNAĞIYEV
(1911–1967)

**Əkbər Əsgər oğlu Ənnağıyev 1911-ci ildə Naxçıvanda anadan olub**

**1927–1930-cu illərdə Zaqafqaziya Dəmiryolu Fabrik-Zavod Şagirdliyi Məktəbində təhsil alıb**

**1954–1959-cu illərdə SSRİ Nazirlər Soveti yanında Əmək Ehtiyatları Baş İdarəsinin rəisi, 1959–1961-ci illərdə Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb**

Əkbər Əsgər oğlu Ənnağıyev 1911-ci ildə Naxçıvanda anadan olub.

Valideynləri muzdlu fəhlə işləyib. Onu 1924-cü ilədək valideynləri himayə edib. 1925-ci ildən maddi çətinlikləri dəf etmək üçün işləyib. Əmək fəaliyyətinə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Naxçıvan Vilayət Komitəsində kuryer kimi başlayıb.

O, 1927–1930-cu illərdə Zaqafqaziya Dəmiryolu Fabrik-Zavod Şagirdliyi Məktəbində təhsil alıb. 1930-cu ildə ÜİK(b)P sıralarına daxil olub, çilingər sexində təlimatçı işləyib. 1931-ci ildə Kiyev artilleriya məktəbinə qəbul olunub.

1932-ci ildə Zaqafqaziya Fabrik-Zavod Şagirdliyi Məktəbinə rəis müavini vəzifəsinə təyin edilib. İstehsalatda çalışa-çalışa fəhlə fakültəsində təhsilini davam etdirib. 1932-ci ilin noyabrında Yol Nəqliyyatı Texnikumunda təhsil almaq məqsədilə Bakıdan Tbilisiyə gedib.

Əkbər Ənnağıyev 1933-cü ildən 1938-ci ilə qədər Xalq Daxili İşlər Komissarlığı orqanlarında işləyib. 1938-ci ilin martında xəstəliklə əlaqədar Xalq Daxili İşlər Komissarlığı orqanlarından xaric olunub.

1938-ci ilin aprelindən dekabrına qədər Zaqafqaziya Dəmiryolu Bakı sərnişin stansiyasının partiya bürosunun katibi vəzifəsində çalışıb, sonrakı bir ildə isə Zaqafqaziya Dəmiryolunun Bakı bölməsinin Siyasi şöbəsinin rəisi olub. 1939-cu ilin dekabrından 1940-cı ilin aprelinə qədər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) Nəqliyyat şöbəsinin müdiri, 1940-cı ilin aprelindən sentyabrına qədər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Təşkilat-təlimat şöbəsinin müdiri vəzifələrində çalışıb. 1940-cı ildə Azərbaycan Kommunist Partiyası tərəfindən Moskva Ali Partiya Məktəbinə oxumağa göndərilib.

İkinci Dünya müharibəsində iştirak edib, 1941-ci ilin iyununda ordu sıralarına çağırılıb. 1941-ci ilin oktyabrına qədər Xalq Daxili İşlər Komissarlığının Qərb Hərbi Dairəsində, sonra isə Zaqafqaziya cəbhəsindəki Xüsusi şöbənin rəisi vəzifələrində çalışıb. Ordudan tərxis edildikdən sonra – 1941-ci ilin oktyabrından 1942-ci ilin yanvarına qədər AKP MK-nın Nəqliyyat şöbəsinin müdiri, 1942-ci ilin yanvarından 1943-cü ilin yanvarına qədər isə Zaqafqaziya Dəmiryolunun Bakı bölməsinin Siyasi şöbəsinin rəisi olub.

1943-cü ilin yanvarında Təbrizə işə göndərilən Əkbər Ənnağıyev Siyasi şöbə rəisi kimi çalışıb. İrandan qayıtdıqdan sonra, 1943-cü ilin oktyabrından 1944-cü ilin mayına qədər Kirovabad (indiki Gəncə) şəhərində Azərbaycan Kommunist Partiyası Şəhər Komitəsində sənaye və nəqliyyat üzrə katib

müavini vəzifəsində çalışıb. 1944-cü ildə yenidən İrana – Tehran şəhərinə göndərilib, 1946-cı ilin mayına qədər 50 nömrəli Hərbi-istismar bölməsinin (HİB) Siyasi şöbəsinə rəhbərlik edib.

1946–1949-cu illərdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Bakı Şəhər Dzerjinski Rayon Komitəsinin birinci katibi olub. Sonra Azərbaycan Dəmiryolu Siyasi şöbəsinin rəisi vəzifəsinə təyin olunub və Tbilisi Dəmiryolu Nəqliyyatı Mühəndisləri İnstitutunun Bakı filialında təhsil alıb.

1947-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilib. Samur-Dəvəçi kanalının inşasında fəaliyyətinə görə «Şərəf nişanı» ordeni ilə təltif edilib.

1954–1959-cu illərdə SSRİ Nazirlər Soveti yanında Əmək Ehtiyatları Baş İdarəsinin rəisi, 1959–1961-ci illərdə Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifələrində işləyib. Öz işinə hər zaman ciddi münasibət göstərən Əkbər Ənnağıyev bu sahənin inkişafı və yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün səy və bacarığını əsirgəməyib.

1963-cü ildə Azərbaycan SSR kommunal təsərrüfatı nazirinin müavini vəzifəsinə təyin edilib. «Qırmızı Əmək Bayrağı» ordeninə layiq görülüb.

Əkbər Ənnağıyev 1967-ci ildə vəfat edib.

**Öz işinə hər zaman ciddi münasibət göstərən Əkbər Ənnağıyev bu sahənin inkişafı və yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün səy və bacarığını əsirgəməyib**



MUSA İSGƏNDƏR OĞLU
AĞAYEV
(1914–1965)

**Musa İsgəndər oğlu Ağayev 1914-cü ildə Şuşa şəhərində anadan olub**

**Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb (1961–1964)**

**Texniki peşə təhsili sisteminin inkişafı və təkmilləşdirilməsi, kadrların təhsili və tərbiyəsi ilə əlaqədar vəzifələri uğurla yerinə yetirib**

Musa İsgəndər oğlu Ağayev 1914-cü ildə Şuşa şəhərində anadan olub.

Atası Ağayev İsgəndər Məlik oğlu əslən Xəlfəli kəndindən olub. Öz torpağı olmadığına görə çobanlıq edib. Anası Ağayeva Natəvan evdar qadın olub. 1916-cı ildə ailəsi Bərdəyə köçərək, Lənbəran kəndində məskunlaşıb.

1917-ci ildə hər iki valideyni rəhmətə gedib. Onların ölümündən sonra 3 yaşlı Musanı qardaşı tərbiyə edib. 1924-cü ilə qədər təsərrüfat işlərində qardaşına kömək edib. 1924-cü ildən təhsil almağa başlayıb. İlk təhsilini Bərdədə alıb. 1930-cu ildə təhsilini davam etdirmək məqsədilə Bakıya gəlib, Stalin adına fəhlə fakültəsinə daxil olub və təhsilini başa vurana qədər dövlət təqaüdü alıb və yataqxanada yaşayıb. 1933-cü ildə fəhlə fakültəsini bitirib, Məşədi Əzizbəyov adına Azərbaycan Qırmızı Bayraqlı Sənaye İnstitutunun neft mədəni fakültəsinə qəbul olub. İnstitut illərində də dövlət təqaüdü alıb.

1938-ci ildə neftçi-mühəndis ixtisası üzrə neft sənayesi sahəsində əmək fəaliyyətinə başlyıb. O, əvvəlcə neftçıxarma ustası, quyuların tədqiqi və işlədilməsi üzrə mühəndis, sonra isə «Azneft» birliyi normativ-tədqiqat qrupunun baş mühəndisi vəzifələrində işləyib. Böyük Vətən müharibəsi illərində Qazaxıstan SSR-in neft sənayesində çalışıb.

1946-cı ildən 1961-ci ilədək rəhbər partiya işində çalışmış Musa Ağayev əvvəlcə Bakı Şəhər Partiya Komitəsi Aparatında işləyib, 1957-ci ildə Azərbaycan KP Kirov Rayon Komitəsinin birinci katibi seçilib.

1961–1964-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti Dövlət Texniki Peşə Təhsili Komitəsinə başçılıq edib. Texniki peşə təhsili sisteminin inkişafı və təkmilləşdirilməsi, kadrların təhsili və tərbiyəsi ilə əlaqədar vəzifələri uğurla yerinə yetirib.

Vətən qarşısındakı xidmətlərinə görə «Şərəf nişanı» ordeni, «1941–1945-ci illərdəki Böyük Vətən müharibəsində əmək igidliyinə görə» medalı ilə təltif olunub. O, Azərbaycan SSR Ali Soveti və Bakı Şəhər Sovetinə deputat, Bakı Partiya Komitəsinə üzv seçilib.

Musa Ağayev 1965-ci ilin avqustunda dünyasını dəyişib, Fəxri xiyabanda dəfn olunub.

***

*1964–1965-ci illərdə Respublika Texniki Peşə Təhsili Komitəsinin sədrini Həsən Salman oğlu Ağayev əvəz edib. O, qısa müddət bu vəzifədə çalışmasına baxmayaraq, texniki peşə təhsilinin inkişafı üçün səy və bacarığını əsirgəməyib.*



TOFİQ ƏLİHEYDƏR OĞLU
ALLAHVERDİYEV
(1917–1982)

**Tofiq Əliheydər oğlu Allahverdiyev 1917-ci ildə Bakı şəhərində anadan olub**

**Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb (1966–1982)**

Tofiq Əliheydər oğlu Allahverdiyev 1917-ci ildə Bakı şəhərində anadan olub.

1930-cu ildə Paris Kommunası adına zavodun fabrik-zavod məktəbinə daxil olub, qaynaqçı ixtisasına yiyələnib. Komsomol təşkilatlarında seçkili vəzifələrdə çalışıb, 1940-cı ildə Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu dağ mühəndisi ixtisası üzrə bitirib.

1942-ci ildə Azərbaycan LKGİ Bakı Şəhər Komitəsinin katibi işləyib. Böyük Vətən müharibəsi illərində 390-cı atıcı diviziyanın siyasi şöbəsində qulluq edib, yaralandıqdan sonra ordudan tərxis edilib. 1942–1944-cü illərdə Azərbaycan LKGİ MK-nın katibi seçilib. 1944-cü ilin fevralından SSRİ Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin Akademiyasında bir il təhsil alıb, 1945–1947-ci illərdə İranda, SSRİ konsulluğunda katib işləyib. 1947-ci ildə Azərbaycan KP MK şöbə müdirinin müavini, 1947–1948-ci illərdə şöbə müdiri vəzifələrində çalışıb. 1950–1952-ci illərdə Azərbaycan KP MK katibi, 1952–1953-cü illərdə Gürganneft Trestinin rəis müavini, 1955–1961-ci illərdə Bakı Şəhər PK-nın birinci katibi işləyib. 1953–1955-ci illərdə SSRİ Neft Sənayesi Akademiyasının dinləyicisi olub. Azərbaycan SSR Ali Sovetinə deputat seçilib.

Texnika elmləri namizədi, dosent Tofiq Allahverdiyev 1966-cı ildə Azərbaycan Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri təyin olunub. 1982-ci ilə qədər bu vəzifədə çalışıb. Onun sədr işlədiyi dövrdə texniki peşə məktəblərinin sayı 1,7



Azərbaycan nümayəndə heyəti SSRİ Həmkarlar İttifaqının X qurultayında (1949)
Şəkildə (soldan). Birinci sıra: 4. Tofiq Allahverdiyev – Texniki Peşə Təhsili Komitəsinin sədri.
İkinci sıra: 2. Mirzə Bədirxanov – Stalin mükafatı laureatı, 5. Mirzəbaba Abtalıboğlu – Sosialist Əməyi Qəhrəmanı, 6. Əli Əsədov – 2 nömrəli sənət məktəbinin məzunu, 7. Sara Abdullayeva – 5 nömrəli sənət məktəbinin məzunu və başqaları



Azərbaycan Seçki Komissiyasının iclasında
Şəkildə (soldan): 3. Murtuza Məmmədov (Bülbül) – SSRİ xalq artisti, 7. Tofiq Allahverdiyev – Texniki Peşə Təhsili Komitəsinin sədri, 9. Süleyman Rüstəm – xalq şairi və başqaları

dəfə, şagirdlərin sayı 2 dəfə artmışdı. 1966–1970-ci illərdə bu məktəblərdə 96,4 min ixtisaslı fəhlə hazırlanıb.

Təkcə 1970-ci ildə Azərbaycanda fəaliyyət göstərən 76 texniki peşə məktəbində 150 peşə üzrə 40,9 min şagird təhsil alıb. Texniki peşə məktəblərində 594 kabinet, 100 laboratoriya, 285 tədris emalatxanası təşkil edilib. Həmin dövrdə kənd texniki peşə məktəblərində 335 traktor, 93 taxılbiçən kombayn, 28 pambıqyığan maşın, 430 ədəd müxtəlif kənd təsərrüfatı maşını olub.

**1970-ci ildə Azərbaycanda fəaliyyət göstərən 76 texniki peşə məktəbində 150 peşə üzrə 40,9 min şagird təhsil alıb**

Həmin dövrdə Azərbaycanda texniki peşə məktəblərinin tədris-maddi bazasının ləng inkişaf etdiyi, ixtisaslı fəhlə kadrları hazırlığının aşağı səviyyədə qurulduğu nəzərə alınaraq (1971–1975-ci illər) 54 yeni texniki peşə məktəbi, o cümlədən Ağdaş, Astara, Balakən, Cəlilabad, Cəbrayıl, Yevlax, Beyləqan, Zəngilan, Zərdab, Şərur, İmişli, İsmayıllı, Qubadlı, Laçın,



Xarici ölkə nümayəndələri Azərbaycanın texniki peşə məktəbləri ilə tanış olarkən (1970)



Keçmiş 74 nömrəli (indiki 12 nömrəli) texniki peşə məktəbində xarici qonaqlarla birlikdə (1970)

Sabirabad, Salyan, Tovuz, Ucar, Şəmkir, Şəki və Şuşada yeni texniki peşə məktəbləri açılıb.

İxtisaslı fəhlələrin xarakterinin formalaşması və ideya-siyasi cəhətdən yetkinləşməsi üçün hərtərəfli iş aparılır, hər il şagirdlərin peşə hazırlığı vəziyyətini müəyyənləşdirmək məqsədilə müvafiq yarışlar keçirilirdi. Estetik, etik, vətənpərvərlik tərbiyəsi baxımından faydalı olan rəngarəng tədbirlərin keçirilməsini pedaqoji kollektivlər daim diqqət mərkəzində saxlayırdı. İxtisaslı fəhlə kadrlarının hazırlanmasında qazanılmış qabaqcıl təcrübənin öyrənilib ümumiləşdirilməsi və yayılmasında, müəllimələrə və istehsalat təlimi ustalarına yenilikləri

**Estetik, etik, vətənpərvərlik tərbiyəsi baxımından faydalı olan rəngarəng tədbirlərin keçirilməsini pedaqoji kollektivlər daim diqqət mərkəzində saxlayırdı**



Tofiq Allahverdiyev Azərbaycan Texniki Peşə Təhsili Komitəsinin 50 illik yubiley mərasimində çıxış edərkən (1973)




Texniki Peşə Təhsili Komitəsinin 50 illiyi qeyd olunarkən (1973)
Şəkildə (soldan). Birinci sıra: 1. Tofiq Allahverdiyev – Texniki Peşə Təhsili Komitəsinin sədri, 2. Süleyman Rüstəm – xalq şairi, 3. Danil Quliyev – ali və orta ixtisas təhsili naziri, 4. Həsən Seyidov – Azərbaycan KP MK-nın katibi, 5. Sergey Kozlov – Azərbaycan KP MK-nın ikinci katibi, 6. Qurban Xəlilov – Azərbayca SSR Ali Soveti Rəyasət Heyətinin sədri. 7. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 8. Əli Kərimov – Bakı Şəhər Partiya Komitəsinin birinci katibi, 9. Əli İbrahimov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri və başqaları

mənimsəməkdə, təlim-tərbiyə prosesini daha da təkmilləşdirmək yollarını göstərməkdə komitənin orqanı olan «Gənc fəhlə bülleteni» əhəmiyyətli rol oynayırdı.

Texniki peşə məktəbinin məzunlarından bir çoxu Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, istehsalatda xariqələr yaratmış, SSRİ-nin orden və medalları ilə təltif olunmuşdular. Texniki peşə məktəblərinin onlarca müəllimi və istehsalat təlimi ustası «Əməkdar müəllim», «Əməkdar usta» kimi adlara layiq görülüb.

Öz işinin bilicisi olan Tofiq Allahverdiyev Azərbaycan müəllimlərinin VIII qurultayındakı (20 yanvar 1967-ci il) çıxı-



Tədris İstehsalat Emalatxanasında (1974)
Şəkildə (soldan): 1. Aleksandr Bulqakov – SSRİ Texniki Peşə Təhsili Komitəsinin sədri, 3. Tofiq Allahverdiyev – Azərbaycan Texniki Peşə Təhsili Komitəsinin sədri və başqaları

**1982-ci ilin əvvəllərində zəngin maddi-texniki bazaya malik 182 texniki peşə məktəbi fəaliyyət göstərib**

şında peşə təhsili sahəsində müşahidə olunan nöqsanları yığcam şəkildə təsvir və təhlil edib.

Tofiq Allahverdiyevin komitə sədri işlədiyi 1966–1982-ci illəri texniki peşə təhsili sisteminin yüksəliş dövrü kimi səciyyələndirmək olar. 1982-ci ilin əvvəllərində zəngin maddi-texniki bazaya malik 182 texniki peşə məktəbi fəaliyyət göstərib.

Fəaliyyət göstərdiyi bütün sahələrdə bilik və bacarığını əsirgəməyib, işinə yaradıcı münasibət göstərib. Onun çoxillik əməyi «Şərəf nişanı» (1944), iki «Qırmızı Əmək Bayrağı» (1958, 1971), «İkinci dərəcəli Vətən müharibəsi» (1976), «Oktyabr inqilabı» (1976) ordenlərinə, on bir medala layiq görülüb.

1982-ci il oktyabrın 13-də komitə sədri vəzifəsindən azad olunub.

Tofiq Allahverdiyev 1982-ci ildə dünyasını dəyişib.

* * *

*Onu da qeyd edək ki, Tofiq Allahverdiyevin səhhətindəki müəyyən problemlərlə bağlı tanınmış partiya işçisi Zülfüqar Abdullayev bir il dörd ay Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsini icra edib.*



HEYDƏR İSA OĞLU
İSAYEV
(1936–1999)

**Heydər İsa oğlu İsayev 1936-cı ildə Naxçıvan şəhərində anadan olub**

**1977-ci il aprelin 8-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan SSR ali və orta ixtisas təhsili nazirinin birinci müavini təyin edilib**

**Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb (1983–1988)**

Heydər İsa oğlu İsayev 1936-cı ildə Naxçıvan şəhərində anadan olub.

1954-cü ildə şəhər 6 nömrəli orta məktəbi bitirib.

1959-cu ildə Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsinin məzunu kimi Əli Bayramlıya (indiki Şirvan şəhəri) neftçıxarma üzrə operator göndərilib, mühəndis, baş mühəndis vəzifələrində işləyib.

1962-ci ilin dekabrında Azərbaycan Neft və Kimya İnstitutunun problem laboratoriyasında mühəndis vəzifəsinə təyin olunub. 1964-cü ildə institutun əyani aspiranturasına qəbul edilib. Qısa müddətdə tədqiqatını başa vuraraq namizədlik dissertasiyasını uğurla müdafiə edib (1966). Geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi alan Heydər İsayev Moskvada fransız dili kursunu bitirdikdən sonra Əlcəzairə mütəxəssis kimi işə göndərilir, buradakı ali məktəbdə əvvəlcə müəllim kimi çalışır, sonra geologiya və neft kafedrasına rəhbərlik edir. 1971-ci ildə Azərbaycana qayıtdıqdan sonra Az.NKİ-nin xarici vətəndaşların təhsili üzrə fakültəsinin dekanı olub, bir il sonra prorektor vəzifəsinə təyin edilib. 20 elmi əsərin müəllifi olan Heydər İsayev rus, fransız dillərində sərbəst danışırdı.

1977-ci il aprelin 8-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan SSR ali və orta ixtisas təhsili nazirinin birinci müavini təyin edilib. 1980-ci ildə bu vəzifədən azad olunub, yüksək təşkilatçılıq qabiliyyətinə görə bir sıra məsul vəzifələr ona tapşırılıb. 1980–1983-cü illərdə 26 Bakı komissarı adına Rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan KP MK-nın elm və təhsil şöbəsinin müdiri işləyib.



SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev 74 nömrəli (indiki 12 nömrəli peşə liseyi) orta texniki peşə məktəbində olarkən (1983)
Şəkildə (soldan): 1. Heydər İsayev – Texniki Peşə Təhsili Komitəsinin sədri, 3. Ramiz Mehdiyev – Azərbaycan KP MK-nın katibi, 4. Heydər Əliyev – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, 5. Kamran Bağırov – Azərbaycan KP MK-nın birinci katibi



**Heydər İsayev Azərbaycan müəllimlərinin X qurultayında texniki peşə təhsilinin vəziyyətinə dair geniş məruzə edib**

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Respublika Peşə Yönümü Mərkəzində (1983)
Şəkildə (soldan): 1. Heydər İsayev – Texniki Peşə Təhsili Komitəsinin sədri, 2. Heydər Əliyev – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini

1983–1988-ci illərdə Respublika Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri olub. Tarixi təcrübə və ənənələrə əsaslanaraq ixtisaslı fəhlə kadrların hazırlığına rəhbərlik edib. Heydər İsayev Azərbaycan müəllimlərinin X qurultayında texniki peşə təhsilinin vəziyyətinə dair geniş məruzə edib.

1988-ci ilin oktyabrında müvafiq qərarla Azərbaycan SSR Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi və Dövlət Texniki Peşə Təhsili Komitəsi birləşdirilərək, Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin yaradılması ilə əlaqədar Heydər İsayev işdən azad olunub.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin rəhbərlik etdiyi müşavirə (1983)
Şəkildə (soldan): 1. Heydər İsayev – Texniki Peşə Təhsili Komitəsinin sədri, 2. Kamran Bağırov – Azərbaycan KP MK-nın birinci katibi 3. Heydər Əliyev – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, 4. Həsən Seyidov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 5. Fuad Musayev – Bakı Şəhər Partiya Komitəsinin birinci katibi



Azərbaycan texniki peşə təhsili işçilərinin respublika müşavirəsi (1985)
Şəkildə (soldan): 1. Şəmşəd Pənahov – Sosialist Əməyi Qəhrəmanı, 2. Ramiz Mehdiyev – Azərbaycan KP MK-nın katibi, 3. Kamran Bağırov – Azərbaycan KP MK-nın birinci katibi, 4. Həsən Həsənov – Azərbaycan KP MK-nın katibi, 5. Heydər İsayev – Texniki Peşə Təhsili Komitəsinin sədri, 6. Həsən Seyidov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 8. Əsgər Hacıyev – Sosialist Əməyi Qəhrəmanı



**Heydər İsayev səmərəli fəaliyyətinə görə «Qırmızı Əmək Bayrağı» və «Xalqlar dostluğu» ordenləri ilə təltif edilib**

O, 1988–1991-ci illərdə Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışıb. 1991-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyində işləyib.

Heydər İsayev səmərəli fəaliyyətinə görə «Qırmızı Əmək Bayrağı» və «Xalqlar Dostluğu» ordenləri ilə təltif edilib, Azərbaycan SSR və SSRİ Ali sovetlərinin deputatı olub.

Heydər İsayev 1999-cu ildə vəfat edib.

# AZƏRBAYCANIN ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ KOMİTƏSİNİN SƏDRLƏRİ



ŞİRƏLİ NƏSİR OĞLU
MƏMMƏDOV (NƏSİRZADƏ)
(1904–1984)

**Şirəli Nəsir oğlu Məmmədov (Nəsirzadə) 1904-cü ildə Naxçıvanın Ordubad bölgəsinin Dəstə kəndində anadan olub**

**1938-ci ildə namizədlik, on il sonra isə doktorluq dissertasiyası müdafiə edib**

**Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb (1959–1961)**

Şirəli Nəsir oğlu Məmmədov (Nəsirzadə) 1904-cü ildə Naxçıvanın Ordubad bölgəsinin Dəstə kəndində anadan olub.

Uşaqlıqdan zamanın çətinliklərinə sinə gərməli olan Şirəli Məmmədov 1916-cı ildə Bakıya gəlib, dayısının himayəsində yaşayıb. 1916–1918-ci illərdə beşinci rus-tatar (Azərbaycan – *red.*) məktəbində təhsil alıb və dəmir yolunda çilingər köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Bakıda və Ordubadda komsomol orqanlarında işləyib.

1921–1922-ci illərdə Bakıda hərbi-siyasi kursu bitirib və Moskvada Mixail İvanoviç Kalinin adına fəhlə fakültəsində (1922–1925), sonra isə Moskva Dağ-Mədən İnstitutunda (1925–1930) təhsil alıb. Mədən mühəndisi ixtisasına yiyələnən Şirəli Məmmədov 1931–1932-ci illərdə Moskva Dağ-Mədən İnstitutunun aspirantı olmaqla yanaşı, Osetiyanın Sadon mədənlərində mühəndis işləyib. Mədən sənayesindəki səmərəli fəaliyyəti ilə özünü doğruldan gənc mühəndis Maqnitoqorsk mədənlər idarəsi əsaslı tikinti şöbəsinin rəisi (1932–1933) vəzifəsinə irəli çəkilib, daha sonra Culfa mərgümüş kombinatının rəisi (1934–1936) olub.

Elmi araşdırmalara olan sonsuz marağı sayəsində 1936-cı ildə məzunu olduğu Moskva Dağ-Mədən İnstitutuna qayıdıb, dörd il elmi işçi, metodkabinetin elmi katibi, dosent, direktor köməkçisi və filiz yataqlarının işlənilməsi kafedrasının müdiri vəzifələrində çalışıb. 1938-ci ildə namizədlik, on il sonra isə doktorluq dissertasiyası müdafiə edib.

Əldə etdiyi elmi biliklərin və qazandığı təcrübəni Azərbaycan elminin və sənayesinin inkişafında faydalı olacağını



Gənclik dostları ilə birlikdə (1924)
Şəkildə (soldan): 1. Yusif Əliyev, 2. Şirəli Məmmədov, 3. Rəhim Qasımov



düşünən Şirəli Məmmədov 1941-ci ildə doğma Vətənə qayıdıb. Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda baş elmi işçisi (1941–1943) kimi fəaliyyət göstərib, sonra isə Naxçıvan Muxtar Respublikasında duz mədəninin baş mühəndisi və direktoru (1943–1944) olub.

Yüksək təşkilatçılığı ilə fərqlənən Şirəli Məmmədov 1944-cü ildə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin ikinci katibi vəzifəsinə təyin edilib. Bir il sonra ÜİK(b)P MK yanında partiya işçilərinin ali məktəbində oxumaq üçün Moskvaya göndərilib. 1947–1949-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Neft İnstitutunda mədən işləri şöbəsinin

**Şirəli Məmmədov 1944-cü ildə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin ikinci katibi vəzifəsinə təyin edilib**





Şirəli Məmmədov qızı Zəhra və oğlu Qasımla birlikdə

rəhbəri, 1949–1950-ci illərdə isə Azərbaycan Dövlət Universitetinin professoru olub.

Dağ-mədən sənayesi sahəsindəki təcrübəsi nəzərə alınaraq 1950-ci ildə Daşkəsən filiz mədən idarəsinin rəisi vəzifəsinə göndərilib. Üç il ərzində bu mühüm müəssisənin inşa olunması işinə və inkişafına layiqli töhfələr verib.

**Onun elmi fəaliyyətini səciyyələndirən əsas xüsusiyyətlərdən biri apardığı araşdırmaların respublikamızın qarşısında duran iqtisadi məsələlərin həllinə yönəlməsi və praktik əhəmiyyət kəsb etməsidir**

Onun elmi fəaliyyətini səciyyələndirən əsas xüsusiyyətlərdən biri apardığı araşdırmaların respublikamızın qarşısında duran iqtisadi məsələlərin həllinə yönəlməsi və praktik əhəmiyyət kəsb etməsidir. İqtisadi inkişafın elmdən, texniki tərəqqidən başlandığını təbliğ edən, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması məsələsinə xüsusi önəm verən Şirəli Məmmədov Azərbaycan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru (1953–1954), geofizika kafedrasının müdiri (1953–1959) vəzifə-



Azərbaycan Neft və Kimya İnstitutunda (1980)
Şəkildə (soldan). Birinci sıra: 1. Şirəli Məmmədov – Azərbaycan Neft və Kimya İnstitutunun professoru, 2. Vyaçeslav Yelyutin – SSRİ ali və orta ixtisas təhsili naziri, 3. İsmayıl İbrahimov – Azərbaycan Neft və Kimya İnstitutunun rektoru. İkinci sıra: 1. Kamran Bağırov – Azərbaycan KP MK-nın katibi və başqaları



lərində çalışıb. Ötən əsrin 50-ci illərinə qədər Azərbaycanda dağ-mədən sahəsi üzrə elmi ada malik mütəxəssislərin olmadığını nəzərə alaraq gənclərin bu istiqamətdə tədqiqatlara cəlb edilməsini fəaliyyətinin ana xəttinə çevirib. Qısa vaxtda gənc alimlərin bu sahəyə meylinin artması onun bir pedaqoq və elm adamı kimi nüfuzunun, ictimaiyyət arasında qazandığı hörmətin nəticəsidir. 1959-cu ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilib.

Azərbaycan Nazirlər Soveti yanında yaradılmış Ali və Orta İxtisas Təhsili Komitəsinin ilk sədri təyin edilib və 1959–1961-ci illərdə bu vəzifədə uğurla çalışıb. Yeni işə başlayan komitənin strukturunun formalaşdırılması, fəaliyyətinin məqsəd və məzmununun dəqiqləşdirilməsi istiqamətində ilk addımların atılması onun sədrlik dövrünə təsadüf edir.

**Ali və Orta İxtisas Təhsili Komitəsinin strukturunun formalaşdırılması, fəaliyyətinin məqsəd və məzmununun dəqiqləşdirilməsi istiqamətində ilk addımların atılması onun sədrlik dövrünə təsadüf edir**

1965–1970-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun (NKİ) faydalı qazıntı yataqlarının işlənilməsi kafedrasının müdiri olub. Bu dövrdə onun rəhbərliyi ilə neçə-neçə gənc və istedadlı alim yetişib. Müvafiq ali məktəblərin dağ-mədən fakültələrinin tələbələri üçün Azərbaycan dilində yazılmış ilk dərslik və dərs vəsaitinin müəllifidir. 23 monoqrafiyası, 220-dən çox elmi əsəri nəşr olunub. Təqaüdə çıxana qədər Azərbaycan NKİ-nin faydalı qazıntıların işlənilməsi kafedrasının professoru kimi (1970–1982) elmi-pedaqoji fəaliyyətini davam etdirib.

Filiz və qeyri-filiz yataqlarının işlənilməsi, qravitasiya rejimində olan neft yataqlarının istismarı, neft yataqlarının süzgəcli

**Şirəli Məmmədovun elmi araşdırmaları və əsərləri onun tələbələrinin, davamçılarının tədqiqat işlərinin əsasını təşkil edib**

qazmalarla qapalı işləmə sistemi, daş duz yataqlarının səmərəli işlənməsi, geofizikanın mədən sənayesində tətbiqi və digər istiqamətlərdə apardığı elmi-tədqiqat işləri ona nəinki Azərbaycanda, eləcə də bütün Sovet İttifaqında geniş şöhrət qazandırmışdır.

Şirəli Məmmədovun elmi araşdırmaları və əsərləri onun tələbələrinin, davamçılarının tədqiqat işlərinin əsasını təşkil edib, yeni-yeni axtarış istiqamətlərinin müəyyənləşdirilməsinə yol açıb. Dərin elmi yanaşmanın məhsulu olan nəzəri müddəalarının istehsalatda tətbiqi mühüm dəyişikliklərin əsasını qoyub və iqtisadi baxımdan səmərəli nəticələr verib.

Onun elmi fəaliyyəti və yüksək təşkilatçılıq bacarığı layiqincə qiymətləndirilib, «Əməkdə fərqlənməyə görə» (1939), «Qafqazın müdafiəsinə görə» (1945), «Böyük Vətən müharibəsində əmək igidliyinə görə» (1945), «Əmək veteranı» (1977) medalı və «Qırmızı Əmək Bayrağı» ordeni (1946) ilə təltif edilib. 1951-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilib, 1952-ci ildə isə Azərbaycan KP MK-nın üzvlüyünə namizəd olub.

Şirəli Məmmədov 1984-cü ildə vəfat edib.



ABDULLA İSMAYIL OĞLU
QARAYEV
(1910–1968)

**Abdulla İsmayıl oğlu Qarayev 1910-cu il yanvarın 14-də Bakıda anadan olub**

**Bir neçə illik gərgin elmi axtarışların nəticəsi olaraq gənc alim 1937-ci ildə dalbadal iki mövzu üzrə namizədlik işini uğurla müdafiə edib**

**Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsində çalışıb (1961–1963)**

Abdulla İsmayıl oğlu Qarayev 1910-cu il yanvarın 14-də Bakıda anadan olub.

O, 10 nömrəli orta məktəbdə təhsil alıb. 1927-ci ildə Bakı Xalq Maarifi Şöbəsinin pedaqoji texnikumunu bitirib. Həmin ildən əmək fəaliyyətinə başlayan Abdulla Qarayev, eyni zamanda ali təhsil almaq arzusunu reallaşdırıb. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) pedaqoji fakültəsinin təbiət bölməsini bitirib. Universitetdə təhsilini başa vurduqdan sonra qeyri-adi istedada malik və əməksevər bir məzun kimi universitetin «İnsan və heyvan fiziologiyası» kafedrasında işlə təmin olunub. Professor P.Y.Rostovsevin rəhbərliyi altında çalışıb, həyatını nəzəri və eksperimental fiziologiyanın inkişafına həsr edib.

1932–1936-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunu müvəffəqiyyətlə başa vurub. Bir neçə illik gərgin elmi axtarışların nəticəsi olaraq gənc alim 1937-ci ildə dalbadal iki mövzu üzrə namizədlik işini uğurla müdafiə edib. «Sulu karbonların əzələlərin potensiallarının mənşəyində əhəmiyyəti» mövzusunda yazdığı dissertasiya işi skelet əzələsində baş verən elektrik hadisələrində sulu karbonların (karbohidratların) rolunun mahiyyəti haqda fundamental elmi əsərinə görə gənc alim tibb elmləri namizədi adına layiq görülüb. «Diafraqmanın fiziologiyasına dair» yazdığı ikinci dissertasiya işinə görə isə o, biologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 1937–1938-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təbiət fakültəsinin dekanı vəzifəsində çalışıb.

Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutu nəzdində onun təşəbbüsü ilə 1938-ci ildən yaradılan elmi-təcrübi



Abdulla Qarayev həyat yoldaşı Züleyxa xanımla birlikdə (1949)



Bir may nümayişində (1952)
Şəkildə (soldan): 1. Mustafa Topçubaşov – akademik, 2. Abdulla Qarayev – akademik və başqaları

fizioloji laboratoriyada dünyada analoqu olmayan Naftalan neftinin, Azərbaycanın şəfaverici sularının (Badamlı, İstisu, Turşsu və s.) və dərman bitkilərindən hazırlanan preparatların insan orqanizminə müalicəvi təsirinin öyrənilməsi istiqamətində eksperimental və kliniki araşdırmalar aparıb. Gənc alim həyatının mühüm bir hissəsini Azərbaycanın zəngin kurort sərvətlərinin və balneoloji amillərin öyrənilməsi və inkişaf etdirilməsi istiqamətində tədqiqatlara həsr edib. Onun 50-dən artıq elmi əsəri Naftalan neftinin, Turşsu, İstisu, Badamlı, Darıdağ və digər müalicə sularının insan və heyvan orqanizminə təsirinə həsr edilib. Müalicə neftində boy maddəsinin tapılması gənc alimi yeni-yeni tədqiqat işləri aparmağa ruhlandırıb. Bu baxımdan onun «Naftalan, onun bioloji təsiri və müalicə tət-

**Abdulla Qarayev həyatının mühüm bir hissəsini Azərbaycanın zəngin kurort sərvətlərinin və balneoloji amillərin öyrənilməsi və inkişaf etdirilməsi istiqamətində tədqiqatlara həsr edib**



Azərbaycan Dövlət Universitetində dövlət imtahanı zamanı (1956)

Azərbaycan nümayəndə heyəti Hindistanda olarkən (1958)
Şəkildə (soldan): 1. Mirəli Qaşqay – akademik, 2. Əbdülkərim Əlizadə – akademik, 3. Tofiq Useynov – arxitektor, 4. Abdulla Qarayev – akademik



**1940-cı ildə «Bioelektrik hadisələrinin nəzəriyyəsinə dair» mövzusunda doktorluq işini müdafiə edib**

biqi» (R.Əliyev və A.Babayevlə birgə) adlı monoqrafiyası daha çox diqqəti cəlb edir.

1934-1935-ci illərdə Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetinin Ümumi və müqayisəli fiziologiya laboratoriyasında subliminal (başqa sözlə, aşağı qıcıq qapısından da zəif) qıcıqların səbəb olduğu məhəlli oyanma və bu oyanmaların orqanizmin funksional vəziyyətinə təsiri barədə tədqiqatlar aparıb. 1940-cı ildə «Bioelektrik hadisələrinin nəzəriyyəsinə dair» mövzusunda doktorluq işini müdafiə edən Abdulla Qarayev, bununla bioelektrik hadisələrinin mənşəyi haqqında o zaman mövcud olan nəzəriyyələrə qarşı özünün son dərəcə orijinal nəzəriyyəsini irəli sürüb. Belə ki, bioelektrik hadisələrinin mənşəyi haqqında Y.Bernşteynin fiziki-



Abdulla Qarayev Hindistanda olarkən (1958)



**Abdulla Qarayev Leninqradda ezamiyyətdə olarkən o, İvan Petrovic Pavlovun laboratoriyalarında çalışıb və şəxsən onunla görüşüb**

Argentinada fizioloqların XXI Beynəlxalq konqresi (1959)

kimyəvi nəzəriyyəsinin tamamilə əsassız olduğunu sübut edərək, elektrofiziologiyanın ən zəruri məsələlərindən birinin həllinə nail olub.

Əldə etdiyi bu nailiyyətlərə görə 1932-ci ildə Moskva və Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərinə birillik ezamiyyətlə təltif olunub. Abdulla Qarayev Leninqradda ezamiyyətdə olarkən o, İvan Petrovic Pavlovun laboratoriyalarında çalışıb və şəxsən onunla görüşüb. Bu laboratoriyalarda az müddət işləməsinə baxmayaraq, müəyyən dəyərli eksperimentlər aparıb. 1935-ci ildə ikinci dəfə akademik İvan Petrovic Pavlovun fizioloji laboratoriyalarında olub.

1940-cı ildə Marksizm-Leninizm Axşam Universitetini bitirib.

Akademik V.N.Çerniqovski və akademik Abdulla Qarayev Azərbaycanın gənc fizioloqları arasında (1960)





«Kotiko-visseral əlaqələrin mexanizmləri» problemi üzrə Bakıda keçirilmiş elmi konfransın iştirakçıları (1960)
Şəkildə (soldan):
1. İ.T.Kursin – professor, 2. A.İ. Bulıgin – akademik, 3. N.Q.Kolosov – professor, 4. F.Əfəndiyev – professor, 5. A.Mirzəzadə – Azərbaycan SSR səhiyyə nazirinin müavini, 6. V.N.Çerniqovski – akademik, 7. A.Qarayev – akademik, 8. T.Paşayev – professor, 9. Y.Məmmədəliyev – akademik, Azərbaycan EA-nın prezidenti, 10. M.Topçubaşov – akademik, Azərbaycan EA-nın vitse-prezidenti, 11. D.Hüseynov – professor

**Abdulla Qarayev Naftalan neftinin yanıq və yaraların sağalmasına təsirini heyvanlar üzərində sınaqdan keçirib, bu nadir neftin yarasağaldıcı və ağrıkəsici maddə kimi tibdə istifadə edilməsini təklif edib**

Onun müstəsna təşkilatçılıq qabiliyyəti Azərbaycan Dövlət Universitetində (ADU) müxtəlif vəzifələrdə işlədiyi zaman özünü daha çox büruzə verib. 1941–1942-ci illərdə ADU-nun biologiya fakültəsinin dekanı olub və onun təşəbbüsü ilə fakültənin Elmi Şurasına biologiyanın müxtəlif sahələri, eləcə də insan və heyvan fiziologiyası üzrə dissertasiyaları müdafiəyə qəbul etmək hüququ verilib.

Fiziologiya sahəsində ilk azərbaycanlı professor olan Abdulla Qarayev 1942-ci ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Tibb İnstitutunun normal fiziologiya kafedrasında ikinci professor, Azərbaycan Dövlət Universitetində isə insan və heyvan fiziologiyası kafedrasının müdiri vəzifələrində çalışıb.

1942–1944-cü illərdə Azərbaycan Dövlət Universitetinin elmi hissə üzrə prorektoru, 1944-cü ilin sentyabrından 1950-ci ilin oktyabrına qədər isə rektoru vəzifələrində işləyib. Xüsusilə qeyd etmək lazımdır ki, onun universitetdəki fəaliyyəti dövründə bütün elm sahələri ahəngdar inkişaf edib, yeni kafedralar və fakültələr açılıb, yüksəkixtisaslı kadrlar hazırlamaq üçün geniş imkanlar yaradılıb. Universitetin fərqlənən, istedadlı mütəxəssisləri elmi araşdırmalar aparmaq üçün keçmiş İttifaq respublikalarına göndərilib.

Böyük Vətən müharibəsi illərində Abdulla Qarayev Naftalan neftinin yanıq və yaraların sağalmasına təsirini heyvanlar üzərində sınaqdan keçirib, bu nadir neftin yarasağaldıcı və ağrıkəsici maddə kimi tibdə istifadə edilməsini təklif edib. Sonrakı dövrlərdə aparılmış təcrübələrlə bu dəyərli təklif bir daha sübuta yetirilib, rəngsizləşdirilmiş Naftalan neftinin, həmçinin bir sıra dəri xəstəliklərinə də effektiv təsir göstərdiyi dəqiqləşdirilib.

Fizioloqların, biokimyaçıların və farmakoloqların VII (1947) və VIII (1948) Ümumittifaq qurultaylarında iştirak edib,



Akademik Abdulla Qarayev Zaqafqaziya fizioloqları, biokimyaçıları və farmakoloqlarının qurultayının iştirakçıları arasında (1962)

onun dərin məzmunlu çıxışları böyük maraqla qarşılanıb. Orqanizmin toxuma və hüceyrələrinin karbohidratlarla təchiz olunmasında qanın formalı elementləri (qan hüceyrələri) və qlikogenin əhəmiyyətinə həsr olunmuş çıxışları bu sahədə yeni elmi nəzəriyyənin formalaşmasına təkan verib.

Bütün bu illər ərzində elmi axtarışlarını özünün pedaqoji fəaliyyəti ilə məharətlə əlaqələndirib. Həmin dövrdə Azərbaycan dilində olan dərsliklərə böyük ehtiyac duyulduğunu nəzərə alan Abdulla Qarayev yeni dərsliklərin hazırlanması kimi son dərəcə məsuliyyətli işlə məşğul olmağa da vaxt tapıb. O, «Sinir və əzələ fiziologiyası» (1932), «Tənəffüsün fiziologiyası» (1934), «Həzm və sorulmanın fiziologiyası» (1940), «Endokrinologiya» (1945), «Analizatorların fiziologiyası» (1952) və

**Azərbaycan dilində olan dərsliklərə böyük ehtiyac duyulduğunu nəzərə alan Abdulla Qarayev yeni dərsliklərin hazırlanması kimi son dərəcə məsuliyyətli işlə məşğul olmağa da vaxt tapıb**



Hollandiyanın Leyden şəhərində fizioloqların XXII Beynəlxalq konqresi (1962)
Şəkildə (soldan): 1. İ.A. Bulıgin – professor, 3. A.N.Narikaşvili, 4. A.Qarayev – akademik

**Fiziologiya elminin inkişafındakı xidmətlərinə görə 1943-cü ildə «Əməkdar elm xadimi» fəxri adına layiq görülüb, 1949-cu ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib**



Fizioloqların Vilnüsdə keçirilmiş konfransının Azərbaycandan olan iştirakçıları arasında (1964)

«Mərkəzi sinir sisteminin fiziologiyası» (1952) adlı dərslikləri ərsəyə gətirməklə bu sahədə milli kadrların hazırlanmasına böyük töhfə verib, Azərbaycanın ali məktəb tələbələrinin vahid mənbə əsasında elmi biliklərə yiyələnməsinə imkan yaradıb, fizioloji terminlərin istifadə edilməsindəki lüzumsuz dolaşıqlığa son qoyub.

Gənc professor bunlarla kifayətlənməyib, axtarışlarının əhatə dairəsini genişləndirərək elmi kadrların hazırlanmasına da böyük qüvvə sərf edib. Fiziologiya elminin inkişafındakı xidmətlərinə görə 1943-cü ildə «Əməkdar elm xadimi» fəxri adına layiq görülüb, 1949-cu ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

1952-ci ilin mayından 1956-cı ilin iyuluna qədər Azərbaycan Elmlər Akademiyası biologiya və kənd təsərrüfatı elmləri şöbəsinin akademik-katibi vəzifəsində çalışıb. Sonrakı dövrlərdə biologiya elmləri şöbəsi akademik-katibinin müavini kimi, bu şöbənin nəzdində müvafiq ixtisaslar üzrə namizədlik və



Akademik P.Q.Anoxin və akademik A.Qarayev Bakıda keçirilmiş «Mərkəzi sinir sisteminin funksional neyrokimyası» üzrə I Ümumittifaq simpoziumunda (1966)

doktorluq dissertasiyalarını müdafiəyə qəbul etmək hüququ olan Birləşmiş Şura yaradılmasına nail olub. 1965-ci ildə Ali Attestasiya Komissiyası Abdulla Qarayevə insan və heyvan fiziologiyası (indeks 102) üzrə namizədlik və doktorluq dissertasiyalarını müdafiəyə qəbul etmək ixtiyarı verib. Yalnız Azərbaycan alimləri deyil, hətta qonşu respublikaların mütəxəssisləri belə bu şuranın iclaslarında dissertasiyalarını müdafiə etmək imkanı qazanıblar.

**O, Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri olduğu dövrdə tədris ocaqlarının inkişafı və genişlənməsi üçün böyük səy göstərib**

1953-cü ildə onun səyi nəticəsində Elmlər Akademiyası Zoologiya İnstitutunun nəzdində Fiziologiya şöbəsi təşkil olunub. İlk vaxtlar cəmi iki əməkdaşı olan şöbənin əsasında 3 ildən sonra müstəqil Fiziologiya bölməsi yaradılıb və rəhbərlik Abdulla Qarayevə həvalə olunub. Fiziologiya bölməsində aparılan elmi araşdırmalar əsasında 1957-ci ildə «İnteroreseptorlar və maddələr mübadiləsi» adlı sanballı elmi monoqrafiyası nəşr edilib. İnteroreseptorlar və maddələr mübadiləsi problemi daha sonralar müxtəlif doktorluq və namizədlik dissertasiyalarında da geniş əksini tapıb.

**1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Fiziologiya İnstitutu yaradılıb və akademik Abdulla Qarayev institutun direktoru təyin olunub**

Abdulla Qarayev orqanizmin immun-bioloji və müdafiə-uyğunlaşma reaksiyalarının tədqiqi ilə də məşğul olub. Leykositlərin faqositoz fəallığını orqanizmin daxili və xarici mühitində gedən dəyişikliklərlə əlaqədar araşdırılmasına dair apardığı dərin elmi axtarışlar əsasında yazdığı «Faqositozun fiziologiyası» monoqrafiyası 1960-cı ildə işıq üzü görüb.

O, Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri olduğu dövrdə tədris ocaqlarının inkişafı və genişlənməsi üçün böyük səy göstərib. Belə ki, 1961–1963-cü illərdə komitə sədri kimi ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni fakültə və ixtisasların açılmasına xüsusi diqqət yetirib.

1968-ci il fevralın 2-də SSRİ Nazirlər Sovetinin Elm və Texnika üzrə Dövlət Komitəsi kollegiyasının qərarı ilə Fiziologiya bölməsi əsasında Azərbaycan SSR Elmlər Akademiyasının

**1947-ci ildə Azərbaycan SSR Ali Sovetinin və 1948-ci ildə isə Bakı Şəhər Zəhmətkeş Deputatları Sovetinin deputatı seçilib**

Fiziologiya İnstitutu yaradılıb və akademik Abdulla Qarayev institutun direktoru təyin olunub. Hazırda bu institut, eləcə də Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun normal fiziologiya kafedrası və Bakı şəhərində bir küçə onun adını daşıyır.

Təcrübəli mütəxəssis, yüksək keyfiyyətlərə malik insan kimi tanınan Abdulla Qarayev tabeliyində çalışan əməkdaşların hər zaman qayğısına qalıb, onların problemlərinin həllinə köməyini əsirgəməyib. 1947-ci ildə Azərbaycan SSR Ali Sovetinin və 1948-ci ildə isə Bakı Şəhər Zəhmətkeş Deputatları Sovetinin deputatı seçilib. Lenin ordeni, 3 dəfə «Qırmızı Əmək Bayrağı» ordeni, «Qırmızı Ulduz» ordeni və medallarla təltif edilib. 7 monoqrafiya və 300-dən artıq məqalənin müəllifidir.

1951–1968-ci illərdə İvan Petrovic Pavlov adına Ümumittifaq Fizioloqlar Cəmiyyəti Azərbaycan bölməsinin sədri, Azərbaycan «Bilik» Cəmiyyəti İdarə Heyəti sədrinin müavini olub. 1968-ci ildə Sovet Milli Komitəsinin zəmanəti ilə İBRO-ya (YUNESKO üzrə beynin tədqiqi ilə məşğul olan Beynəlxalq təşkilat) üzv seçilib. Fizioloqların beynəlxalq konqreslərində (Leninqrad – 1935; Buenos-Ayres – 1959; Leyden –1962; Tokio – 1965) iştirak edib.

Abdulla Qarayev 1968-ci ildə vəfat edib.

# AZƏRBAYCANIN ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ NAZİRLƏRİ



ZÜLEYXA İSMAYIL QIZI
HÜSEYNOVA
(1924–1996)

**Züleyxa İsmayıl qızı Hüseynova 1924-cü ildə Bakıda anadan olub**

**1963–1965-ci illərdə Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri və 1965–1970-ci illərdə ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb**

**Respublikada ali və orta ixtisas təhsili müəssisələrini özündə birləşdirən Ali və Orta İxtisas Təhsili Nazirliyinin yaradılması üçün ardıcıl çalışan ziyalılardan biri olub**

Züleyxa İsmayıl qızı Hüseynova 1924-cü ildə Bakıda anadan olub.

Özünəməxsus ənənələri olan 132 nömrəli orta məktəbi bitirib. 1942-ci ildə Azərbaycan Sənaye İnstitutunun neft-mexanika fakültəsinə qəbul olunub, ali təhsilini başa vurduqdan sonra Yesman adına Energetika İnstitutunun aspiranturasında oxuyub.

1953-cü ildə namizədlik dissertasiyası müdafiə edib, sonrakı 6 il ərzində Azərbaycan SSR Elmlər Akademiyasında fəaliyyət göstərib. Daha sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin elm və tədris müəssisələri şöbəsinin müdir müavini təyin edilib.

Respublikada ali və orta ixtisas təhsili müəssisələrini özündə birləşdirən Ali və Orta İxtisas Təhsili Nazirliyinin yaradılması üçün ardıcıl çalışan ziyalılardan biri olub. Dəfələrlə Moskvada SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin rəhbərliyi ilə görüşərək müttəfiq respublikalarda müvafiq qurumun yaradılmasının zəruri olduğunu əsaslandırmağa çalışıb. Beləliklə, Nazirlər Soveti nəzdində Ali və Orta İxtisas Təhsili Komitəsi yaradılıb, o, komitə sədrinin müavini təyin olunub (1961), 1963-cü ildə isə komitənin sədri vəzifəsinə layiq görülüb.

1965-ci ilin iyulunda komitə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinə çevrilib, Züleyxa Hüseynova nazir təyin edilib. Onun nazir kimi fəaliyyəti dövründə respublikada ali təhsil şəbəkəsinin genişləndirilməsi, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində sanballı işlər görülüb. Belə ki, Azərbaycan Neft və Kimya İnstitutu nəzdində 4 yataqxananın, xarici tələbələr üçün tədris korpusu-



Təhsil işçiləri Göygöldə olarkən (1967)
Şəkildə (soldan):
1. Zakir Bağırov – Azərbaycan KP MK-nın şöbə müdirinin müavini, 2. Züleyxa Hüseynova – ali və orta ixtisas təhsili naziri, 3. Mehdi Əliyev – Azərbaycan Dşvlət Universitetinin rektoru, 4. İsmayıl İbrahimov – Azərbaycan Neft və Kimya İnstitutunun rektoru, 5. Sənan Mustafayev – ali və orta ixtisas təhsili nazirinin birinci müavini

nun inşası onun təşəbbüsü və köməyi ilə reallaşdırılıb. Ölkənin ikinci sənaye şəhəri olan Sumqayıtda Azərbaycan Neft və Kimya İnstitutunun filialı açılıb (həmin filialın bazası əsasında hazırda Sumqayıt Dövlət Universiteti fəaliyyət göstərir).

Kirovabad (indiki Gəncə) Texniki İnstitutu da onun təşəbbüsü ilə açılıb. Daim gənclərə qayğı göstərib, ali məktəblərə qəbul zamanı imtahanların şəffaf keçirilməsi üçün xüsusi nəzarət komissiyaları yaradıb. Onun müzakirə etdiyi məsələlər və çıxardığı qərarlar respublika rəhbərliyi tərəfindən həmişə bəyənilib və dəstəklənib.

**Züleyxa Hüseynova daim gənclərə qayğı göstərib, ali məktəblərə qəbul zamanı imtahanların şəffaf keçirilməsi üçün xüsusi nəzarət komissiyaları yaradıb**

1965–1970-ci illərdə ali və orta ixtisas təhsili naziri vəzifəsində uğurla çalışan Züleyxa Hüseynova 1970-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Həmkarlar İttifaqı Şurasının sədri vəzifəsinə seçilib.

1981-ci ildən təqaüdə çıxanadək Azərbaycan SSR Nazirlər Sovetində Elm, texnika və təhsil müəssisələri şöbəsinin müdiri olub.

Bir çox elmi məqalə və metodik işləri nəşr olunub, «Avtomobillər və traktorlar» adlı orijinal ali məktəb dərsliyinin həmmüəlliflərindəndir.

Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq Züleyxa Hüseynova zəhmətsevərliyi, ədalətliliyi və insani keyfiyyətləri ilə fərqlənib. İşlədiyi sahələrdə böyük zəhmət sərf edib, dəfələrlə nümayəndə heyətlərinin başçısı kimi bir sıra xarici ölkələrdə olub, Azərbaycanın maarif və təhsil nailiyyətlərini hər yerdə təbliğ edib. Təqaüdə çıxandan sonra Azərbaycan Texniki Universitetində daxiliyanma mühərrikləri kafedrasında məsləhətçi-professor işləyib.

SSRİ Ali Sovetinə (VII–X çağırış) deputat seçilib, Ali Sovetin daimi komissiyasının sədr müavini və sədri, Asiya və

Ali və Orta İxtisas Təhsili Nazirliyinin əməkdaşları (1968)
Şəkildə (soldan). Birinci sıra: 6. Züleyxa Hüseynova – ali və orta ixtisas təhsili naziri, 7. Sənan Mustafayev – ali və orta ixtisas təhsili nazirinin birinci müavini, 8. Məmməd Əliyev – Ali və Orta İxtisas Təhsili Nazirliyi Ali məktəblər idarəsinin rəisi.
İkinci sıra: 4. Xanbala Mikayılov – Ali və Orta İxtisas Təhsili Nazirliyi Orta ixtisas məktəbləri idarəsinin rəisi, 5. Nəriman Babayev – Ali və Orta İxtisas Təhsili Nazirliyinin böyük təlimatçısı, 6. Valeh Orucov – Ali və Orta İxtisas Təhsili Nazirliyi Elm şöbəsinin müdiri, 7. Kazım Əliyev – Ali və Orta İxtisas Təhsili Nazirliyi Kadrlar şöbəsinin müdiri və başqaları





Ali və orta ixtisas təhsili naziri Züleyxa Hüseynova bir qrup ali məktəb müəllimləri arasında

Afrika Ölkələri ilə Həmrəylik Komitəsi sədrinin müavini olub.

Züleyxa Hüseynovanın əməyi yüksək qiymətləndirilib. «Oktyabr inqilabı», «Qırmızı Əmək Bayrağı» ordenləri, bir sıra medal və fəxri fərmanlarla təltif edilib.

Züleyxa Hüseynova 1996-cı ilin mayında dünyasını dəyişib.



DANİL PİRİ OĞLU
QULİYEV
(1923–2001)

**Danil Piri oğlu Quliyev 1923-cü ildə Bakının Əmircan kəndində anadan olub**

**Ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb (1970–1971)**

Danil Piri oğlu Quliyev 1923-cü ildə Bakının Əmircan kəndində anadan olub.

1940-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub, 1941-ci ilin avqustunda sovet ordusu sıralarına çağırılıb. Bakı Hərbi Piyada Məktəbinə daxil olan Danil Quliyev hərbi texnikanı mənimsəyib. Hərbi məktəbi bitirib leytenant rütbəsi ilə 416-cı diviziyanın tərkibində tankvuran taqımın komandiri kimi döyüşlərə başlayıb, 402-ci, 216-cı diviziyaların tərkibində 1946-cı ilə kimi ordu sıralarında olub. O, «Qafqazın müdafiəsinə görə», «Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə» medalları, «Qırmızı Bayraq» ordeni və digər döyüş medalları ilə təltif olunub.

Hərbi xidmətdən tərxis edildikdən sonra «Azneft» Texniki Təchizat Trestində böyük mühəndis kimi çalışıb. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olub, üçüncü kursdan Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetinin müvafiq fakültəsinə köçürülüb. 1952-ci ildə ali təhsilini başa vurduqdan sonra aspiranturada saxlanılıb. 1956-cı il sentyabrın 24-də Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetində «Azərbaycan partiya təşkilatının neft sənayesinin texniki



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev və Azərbaycan KP MK-nın katibi Danil Quliyev (1972)



Bir qrup rəsmi şəxslər hərbiçilər arasında (1974)
Şəkildə (soldan). Birinci sıra: 1. Danil Quliyev – Azərbaycan KP MK-nın katibi, 3. Sergey Kozlov – Azərbaycan KP MK-nın ikinci katibi, 4. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 5. Qurban Xəlilov – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, 6. Həsən Seyidov – Azərbaycan SSR Mərkəzi Komitəsinin katibi və başqaları

Azərbaycan SSR KP MK-nın birinci katibi Heydər Əliyevin iştirak etdiyi tədbir zamanı (1974)
Şəkildə (soldan): 1. Əli Kərimov – Bakı Şəhər Partiya Komitəsinin birinci katibi, 2. Qurban Xəlilov – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, 3. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 4. Teymur Əliyev – Azərbaycan KP MK-nın şöbə müdiri, 5. Ramiz Məmmədzadə – Azərbaycan KP MK-nın katibi, 6. Danil Quliyev – Azərbaycan KP MK-nın katibi, 7. Aydın Məmmədov – Bakı Şəhəri İcraiyyə Komitəsinin sədri, 8. Sergey Kozlov – Azərbaycan KP MK-nın ikinci katibi, 9. Həsən Seyidov – Azərbaycan KP MK-nın katibi, 10. Hacağa İbrahimov – Azərbaycan KP MK-nın katibi, 11. Əli İbrahimov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri və başqaları





Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin yanında müşavirə
Şəkildə (soldan): 1. Danil Quliyev – Azərbaycan KP MK-nın katibi, 2. Əli İbrahimov – Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 3. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi və başqaları

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ideologiya məsələlərinə xüsusi önəm verirdi
Şəkildə (soldan): 1. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 2. Danil Quliyev – Azərbaycan KP MK-nın katibi, 3. Aleksey Leonov – kosmonavt, Sovet İttifaqı Qəhrəmanı





Ali və orta ixtisas təhsili naziri Danil Quliyev təhsilin inkişafına həsr olunmuş toplantıda
Şəkildə (soldan): 1. Qurban Əliyev – 26 Bakı Komissarı Rayon PK-nın birinci katibi, 2. Zakir Bağırov – Azərbaycanın mədəniyyət naziri, 3. Fikrət Əhmədov – Azərbaycan KP MK-nın şöbə müdiri, 4. Danil Quliyev – ali və orta ixtisas təhsili naziri, 5. Yuri Puqaçov – Azərbaycan KP MK-nın ikinci katibi, 8. Teymur Əliyev – Azərbaycan KP MK-nın şöbə müdiri və başqaları



Ali və orta ixtisas təhsili naziri Danil Quliyev Moskva şəhərində
Şəkildə (soldan).
Birinci sıra: 2. Nikolay Baybakov – SSRİ Dövlət Plan Komitəsinin sədri, 3. Qurban Xəlilov – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri.
İkinci sıra: 1. Danil Quliyev – ali və orta ixtisas təhsili naziri və başqaları

İlk qadın kosmonavt, Sovet İttifaqı Qəhrəmanı Valentina Tereşkovanın qarşılanma mərasimi
Şəkildə (soldan):
1. Danil Quliyev – Azərbaycan KP MK-nın katibi, 2. Valentina Tereşkova – Sovet İttifaqı Qəhrəmanı, 3. Züleyxa Hüseynova – ali və orta ixtisas təhsili naziri



Danil Quliyev tabeliyində çalışan işçilərlə birgə





Danil Quliyev Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev və digər rəsmi şəxslərlə birlikdə
Şəkildə (soldan): 2. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 3. Danil Quliyev – Azərbaycan KP MK-nın katibi, 4. Sergey Kozlov – Azərbaycan KP MK-nın ikinci katibi, 5. Həsən Seyidov – Azərbaycan KP MK-nın katibi, 6. Hacağa İbrahimov – Azərbaycan KP MK-nın katibi və başqaları

Ali və orta ixtisas təhsili müəssisələrinin inkişafına həsr olunmuş müşavirə
Şəkildə (soldan): 2. Danil Quliyev – ali və orta ixtisas təhsili naziri, 3. Aslan Aslanov – İncəsənət İnstitutunun rektoru



**«Azərbaycan Kommunist Partiyasının tarixi oçerkləri», «Azərbaycan tarixi» kitablarının hazırlanmasında yaxından iştirak edib**

tərəqqisi uğrunda mübarizəsi (dördüncü beşillikdə)» mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1958-ci ildən 1959-cu ilə qədər Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi işləyib. Hələ Partiya Tarixi İnstitutunda çalışarkən əvəzçilik qaydası ilə 1959-cu ilin yanvarından 1961-ci ilin iyununa qədər Bakı Ali Partiya Məktəbində Sov.İKP tarixi kafedrasının müdiri vəzifəsində çalışıb. 1961-ci ildən 1970-ci ilə kimi Bakı Ali Partiya Məktəbinin rektoru işləyib.

Danil Quliyev 1967-ci ildə Azərbaycan KP MK-nın üzvü, 1968-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

«Azərbaycan Kommunist Partiyasının tarixi oçerkləri», «Azərbaycan tarixi» kitablarının hazırlanmasında yaxından iştirak edib. 1989-cu ildə onun redaktorluğu ilə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixinə dair sənədlər toplusu buraxılıb. Böyük ictimai-siyasi xadim Nəriman Nərimanov barədə monoqrafiya yazıb.

Danil Quliyev 1987-ci ildə tarix elmləri doktoru adına layiq görülüb.

1970-ci il avqustun 24-də Azərbaycanın ali və orta ixtisas təhsili naziri vəzifəsinə təyin edilib. Bu vəzifədə çalışdığı 1970–1971-ci illərdə müəyyən səmərəli işlər görüb, 1971–1976-cı illərdə Azərbaycan KP MK-nın ideologiya üzrə katibi işləyib.

1995-ci ildə təqaüdə çıxan Danil Quliyev ömrünün sonuna kimi Almaniyada yaşayıb. 2001-ci ildə dünyasını dəyişib, Berlində dəfn olunub.



QURBAN HƏSƏN OĞLU
ƏLİYEV
(1921–2008)

**Qurban Həsən oğlu Əliyev 1921-ci ildə Zabaykalye vilayətinin Çita şəhərində anadan olub**

**Ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb (1971–1987)**

Qurban Həsən oğlu Əliyev 1921-ci ildə Zabaykalye vilayətinin Çita şəhərində anadan olub.

Atası Həsən rus əsgərlərini etdikləri özbaşınalıqlara görə qətlə yetirib və qaçaq düşüb. Nəhayət, tutulub mühakimə edilib və ömürlük Uzaq Şərqə – Zabaykalye vilayətinin Çita şəhərinə sürgünə göndərilib. Maraqlıdır ki, onu iki silahlı rus əsgəri atla 3 ilə mənzil başına çatdırıb. Lakin əsl azərbaycanlı xüsusiyyətlərinə malik olan gənc Həsəni əzab-əziyyət, ağır sürgün həyatı da ruhdan salmayıb. 1904-cü ildə elan olunmuş çar Manifestindən sonra Zabaykalyedə yaşamağa məcbur olan Həsən qısa müddətdə adlı-sanlı xeyriyyəçi kimi tanınan tacirə çevrilib. Xəlvəti İrəvana qayıdaraq bəy ailəsindən olan 14 yaşlı Göyçək Əliyeva ilə evlənib, onu da özü ilə Çita şəhərinə aparıb. Sibirdə onların 13 övladı dünyaya göz açsa da, taleyin qismətindən yalnız üç uşaq böyüyübərsəyə çatıb.

Ailəsi 1931-ci ildə Bakıya qayıdıb və 10 yaşlı Qurban Bakıdakı 6 nömrəli məktəbdə təhsilini davam etdirib. 1941-ci ildə orta məktəbi bitirib, Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub, institut komsomol komitəsinin katibi seçilib. 1946-cı ildə ali məktəbdə təhsilini başa vurub, Xızı rayonunda həkim işləməyə başlayıb. Təşkilatçılıq bacarığı, idarəetmə qabiliyyəti nəzərə alınaraq həmkarlar ittifaqı sahəsində vəzifəyə irəli çəkilib, 1958–1961-ci illərdə Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri olub. Tibb elmləri namizədi kimi Azərbaycan Dövlət Tibb İnstitutunun daxili xəstəliklər kafedrasında elmi-pedaqoji fəaliyyət göstərib, 19 elmi işi çap edilib.

1961-ci ildə Qurban Əliyev 26 Bakı komissarı Rayon Partiya Komitəsinin birinci katibi seçilib, on il bu vəzifədə çalışıb.



Azərbaycan müəllimlərinin VIII qurultayında (1967)
Şəkildə (soldan). Birinci sıra:
1. Kamran Hüseynov – Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 2. Qurban Əliyev – 26 Bakı komissarı Rayon Partiya Komitəsinin birinci katibi, 3. Tofiq Allahverdiyev – Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri

Şıx qəsəbəsində çimərliyin salınması, pansionatın, neçə-neçə məktəblərin, bağçaların tikilməsi, abadlıq işlərinin aparılması onun adı ilə bağlıdır.

Səriştəsi, bacarığı, xalqa münasibəti, insanlara qayğısı, xeyirxahlığı ilə başqalarından seçilən Qurban Əliyev 1971-ci ilin iyununda Azərbaycanın ali və orta ixtisas təhsili naziri təyin edilib. Ötən əsrin 70–80-ci illərində, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə digər sahələrdə olduğu kimi, təhsil sahəsində də sürətli inkişafa nail olunub.

Həmin illərdə Azərbaycanın ali məktəbləri böyük inkişaf yoluna qədəm qoyub. 6 ali məktəb, o cümlədən Azərbaycan Neft və Kimya İnstitutu (1970), Azərbaycan Dövlət Universiteti (1971), Azərbaycan Dövlət Pedaqoji İnstitutu (1972), Azərbaycan Dövlət Konservatoriyası (1972), Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (1979), Azərbaycan Dövlət Tibb İnstitutu (1980) SSRİ-nin yüksək ordenlərinə layiq görülüb, bir çox ali məktəb işçisi dövlət mükafatları ilə təltif edilib.

Tez-tez xarici ölkələrə səfərlər edən ali və orta ixtisas təhsili naziri Qurban Əliyev Çexoslovakiya, Bolqarıstan, Tailand, Yaponiya, Polşa təhsil sistemi ilə yaxından tanış olub. Ali məktəblər üçün yeni tikilən binalar zəruri avadanlıqlarla təchiz edilib, tədrisin keyfiyyətinin dövrün tələbləri səviyyəsinə qaldırılması məsələləri önə çəkilib.

Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, Azərbaycan Texnologiya İnstitutu, Azərbaycan Neft və Kimya İnstitutu, eləcə də Azərbaycan Dövlət Konservatoriyası üçün tikilən əlavə korpuslar Qurban Əliyevin ali və orta ixtisas təhsili naziri kimi fəaliyyətini qiymətləndirməyə imkan verir.

**Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, Azərbaycan Texnologiya İnstitutu, Azərbaycan Neft və Kimya İnstitutu, eləcə də Azərbaycan Dövlət Konservatoriyası üçün tikilən əlavə korpuslar Qurban Əliyevin nazir kimi fəaliyyətini qiymətləndirməyə imkan verir**

1975-ci ilin aprelindən 5 ali məktəbdə: Azərbaycan Dövlət Universitetində, Azərbaycan Neft və Kimya İnstitu-



Azərbaycandan kənarda yerləşən ali məktəblərə qəbulla əlaqədar orta məktəb şagirdləri ilə görüş (1975)

Şəkildə (soldan):
1. Gennadi Qolovkov – Ali və Orta İxtisas Təhsili Nazirliyi Ali təhsil idarəsinin bölmə müdiri,
2. Məmməd Əliyev – Ali və Orta İxtisas Təhsili Nazirliyi Ali təhsil idarəsinin rəisi, 3. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri və başqaları

**Qurban Əliyev ali və orta ixtisas təhsili naziri işlədiyi müddətdə daim Azərbaycan Elmlər Akademiyası ilə sıx əlaqə saxlayıb, elmlə məşğul olan alimləri ali məktəb laboratoriyalarına cəlb edib**

**Həmin dövrdə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev istedadlı gənclərin SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsinə xüsusi əhəmiyyət verirdi**

tunda, Azərbaycan Politexnik İnstitutunda, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda ali məktəbə qəbul olmaq istəyənlər üçün axşam lektoriyaları fəaliyyət göstərməyə başlayıb.

Qurban Əliyevin təşəbbüsü ilə 1971-ci ildən 1975-ci ilədək respublika üzrə ali təhsilli mütəxəssislərə olan tələbatın səviyyəsi öyrənilib. Aparılan təhlillər nəticəsində bir sıra yeni ixtisaslar (avtomatlaşdırılmış idarəetmə sistemləri, tətbiqi riyaziyyat, yarımkeçiricilər və dielektriklər, çoxkanallı elektrik rabitəsi, maddi-texniki təchizatın iqtisadiyyatı, meşə mühəndisliyi və ağac emalı texnologiyası, tətbiqi geodeziya, dekorativ-tətbiqi incəsənət, təsviri incəsənət və rəsmxətt) üzrə mütəxəssis hazırlığına başlanılıb. Təsnifata fiziki elektronika, kartoqrafiya, entomologiya, mikrobiologiya, qiymət və qiymətləndirmənin planlaşdırılması ixtisasları əlavə olunub.

Qurban Əliyev ali və orta ixtisas təhsili naziri işlədiyi müddətdə daim Azərbaycan Elmlər Akademiyası ilə sıx əlaqə saxlayıb. Sırf elmlə məşğul olan alimləri ali məktəb laboratoriyalarına cəlb edib. Məhz bu amil həmin dövrdə neçə-neçə gəncin elmi axtarışlara cəlb olunmasında mühüm rol oynayıb.

Həmin dövrdə ali məktəblərdə çalışan alimlərin ixtiralarına verilən müəlliflik şəhadətnamələrinin sayı durmadan artırdı. Bu göstərici 1971-1975-ci illərdə 306, yəni orta hesabla ildə 61 olduğu halda, 1976-1979-cu illərdə 516-ya, yəni orta hesabla ildə 129-a yüksəlib. Bir sıra ixtiralar isə xarici ölkələrdə patentləşdirilib.

İstedadlı gənclərin SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsi o vaxtlar geniş vüsət almışdı. Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev bu məsələyə xüsusi əhəmiyyət verirdi.

Ötən əsrin 70-ci illərinin sonlarından başlayaraq hər il 800–900 nəfər, 80-ci illərin əvvəllərindən isə hər il 1000–1400 nəfərə ya-



SSRİ nümayəndə heyəti Əlcəzairdə olarkən

Şəkildə (soldan). 1. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri, 3. Vladimir Dolqix – Sov. İKP MK-nın katibi



**Bu dövrdə Azərbaycandan kənara təhsil almağa göndərilənlər hesabına respublikamız üçün 15 mindən artıq mütəxəssis hazırlanıb**

Sosialist ölkələri ali təhsil nazirlərinin Sofiya şəhərində keçirilmiş XII müşavirəsində (1980)

xın gənc Azərbaycandan kənara təhsil almağa göndərilib. Bu dövrdə Azərbaycandan kənara təhsil almağa göndərilənlər hesabına respublikamız üçün 15 mindən artıq mütəxəssis hazırlanıb.

Eləcə də respublikamızın ali məktəblərində oxuyan ən qabiliyyətli tələbələr seçilib təhsilini davam etdirmək üçün SSRİ-nin aparıcı ali məktəblərinə köçürülürdü. Bundan əlavə, həmin ali məktəblərə müsabiqədən kənar qəbul da keçirilirdi.

Hər il respublikadan kənarda təhsil alan tələbələrlə görüşlər təşkil olunur, onların ehtiyacları öyrənilirdi. Gənclərin təhsil və yaşayış şəraitini yaxşılaşdırmaq üçün müvafiq tədbirlər həyata keçirilirdi.

SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi Elmi-Metodik Şurasının genişləndirilmiş iclasının iştirakçıları arasında (1981)





Ali məktəb fəallarının Respublika toplantısı (1982)
Şəkildə (soldan): 1. İsmayıl İbrahimov- Azərbaycan Neft və Kimya İnstitutunun rektoru, 2. Heydər İsayev- Azərbaycan KP MK-nın elm və təhsil şöbəsinin müdiri, 3. Həsən Həsənov- Azərbaycan KP MK-nın katibi, 4. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri, 5. Faiq Bağırzadə- Azərbaycan Dövlət Universitetinin rektoru və başqaları

Azərbaycanlı gənclərin respublikamızdan kənarda təhsil aldığı ali məktəblərlə vaxtaşırı əlaqə saxlanılır, tələbələr üçün yaxşı şərait yaradan ali məktəblərə təşəkkür məktubu göndərilirdi. Tələbələrin taleyi ilə müntəzəm maraqlanılır, birinci kursa daxil olan tələbənin qayıdandan sonra harada işləyəcəyi də müəyyənləşdirilirdi.

Mütəxəssis hazırlığına gərgin əmək sərf edən professor-müəllim heyətinin səmərəli fəaliyyəti üçün şəraitin daha da yaxşılaşdırılmasına ciddi əhəmiyyət verilirdi. Kadr hazırlığını həyata keçirən mütəxəssislərin ixtisaslarını fasiləsiz olaraq artırması vacib tələb kimi qarşıya qoyulurdu.

Gənc mütəxəssislərlə görüş (1982)
Şəkildə (soldan): 1. Rəhman Yusifov – Xarici Dillər İnstitutunun partiya təşkilatının katibi, 2. Kazım Əliyev – Ali və Orta İxtisas Təhsili Nazirliyi Kadrlar idarəsinin rəisi, 3. Qurban Əliyev – ali və orta ixtisas təhsili naziri, 4. Zemfira Verdiyeva – Xarici Dillər İnstitutunun rektoru, 5. Elmira Qafarova – xalq maarifi naziri, 6. Nəcəf Nəcəfov – Xalq Maarifi Nazirliyi Kadrlar idarəsinin rəisi





Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Politexnik İnstitutunda olarkən
Şəkildə (soldan): 2. Heydər Əliyev – Azərbaycan KP MK-nın birinci katibi, 3. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri, 4. Mirzə Bağırov – Azərbaycan Politexnik İnstitutunun rektoru

Başqa bir təcrübə də geniş yayılmışdı. Belə ki, respublikadan kənarda təhsil alan tələbələrdən bir qismi, müvafiq ali məktəblərin Elmi Şurasının tövsiyəsi əsasında aspiranturada təhsilini davam etdirmək üçün saxlanılır və namizədlik dissertasiyasını müdafiə etdikdən sonra Vətənə qayıdırdı.

Eyni zamanda hər il təxminən 30–40 nəfər azərbaycanlı gənc aspirantura təhsili almaq üçün nüfuzlu ali məktəblərə göndərilirdi. Həmin kadrlar bu gün də ölkəmizin intellektual potensialının əsasını təşkil edir, Azərbaycanın qüdrətlənməsi naminə bilik və bacarıqlarını əsirgəmirlər.

**Qəbul imtahanları zamanı şəffaflığın artırılması üçün ilk dəfə Azərbaycan Neft və Kimya İnstitutunda imtahanların nəticələri xüsusi elektron-hesablayıcı maşınlar vasitəsilə emal olunub**

Yüksək səviyyəli elmi-pedaqoji kadrların respublikamızın ali məktəblərində hazırlanması işi də diqqətdən yayınmırdı. Əgər 1971-ci ildə yalnız 6 ali məktəbdə aspirant hazırlığı həyata keçirilirdisə, 1985-ci ildə onların sayı doqquza çatdırıldı. Bu illərdə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin razılığı əsasında Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda (1971), Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda (1978) və Azərbaycan Dövlət Konservatoriyasında (1985) yeni aspiranturalar yaradıldı.

Elmi-tədqiqat işlərinin əhatə dairəsinin genişləndirilməsini, tədqiqatçıların elmi potensialından səmərəli istifadə olunmasını ali məktəb rəhbərləri qarşısında əsas vəzifə kimi qoyan ali və orta ixtisas təhsili naziri Qurban Əliyev Azərbaycan təhsilində informasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verib. Qəbul imtahanları zamanı şəffaflığın artırılması üçün ilk dəfə Azərbaycan Neft və Kimya İnstitutunda imtahanların nəticələri xüsusi elektron-hesablayıcı maşınlar vasitəsilə emal olunub. Bütün bu tədbirlər ali məktəb tələbələri arasında istedadlı gənclərin xüsusi çəkisinin artmasına zəmin yaradıb.

**Qurban Əliyev ali və orta ixtisas təhsili naziri işlədiyi dövrdə elmin bütün sahələrində inkişaf təmin olunub, ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin planlaşdırılması və əlaqələndirilməsi köklü surətdə yaxşılaşdırılıb, sahə elmi-tədqiqat laboratoriyaları yaradılıb, təsərrüfat müqaviləli işlərin həcmi artıb**

Şuşada Xankəndi musiqi məktəbinin filialının fəaliyyətinə ermənilərin maneələr törətdiyi bir vaxtda bu məsələnin SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyində müzakirəyə çıxarılmasına müvəffəq olub və filialın müstəqil məktəbə çevrilməsini təmin edib. Hər bir addımın Moskva ilə razılaşdırılması baxımından mövcud olan çətinliklərə baxmayaraq, həmin dövrdə bir sıra təhsil ocaqları, o cümlədən Azərbaycan Texnologiya İnstitutu, Gəncə Avtomobil Texnikumu, Lənkəran, Naxçıvan musiqi məktəbləri, Bakı Maşınqayırma Texnikumu və Azərbaycan İnşaat Mühəndisləri İnstitutu fəaliyyətə başlayıb.

Həmin illərdə ali təhsilin keyfiyyətini yüksəltmək üçün bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib. Bütün ali məktəblərdə tələbə elmi cəmiyyətlərinin fəaliyyəti təmin olunub, tələbə konfransları təşkil edilib. Ən yaxşı məruzəyə görə diplom, ən yaxşı elmi-tədqiqat işinə görə medal təsis olunub. Təhsildə müvəffəqiyyət qazanmış tələbələr xarici ölkələrə turist yollayışları ilə mükafatlandırılıblar.

Qurban Əliyev ali və orta ixtisas təhsili naziri işlədiyi dövrdə ali məktəblərdə elmi-tədqiqat işlərinə diqqət artırılıb. Elmin bütün sahələrində inkişaf təmin olunub, ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin planlaşdırılması və əlaqələndirilməsi köklü surətdə yaxşılaşdırılıb, yeni problem və sahə elmi-tədqiqat laboratoriyaları yaradılıb, təsərrüfat müqaviləli işlərin həcmi artıb. Həmin laboratoriyaların bilavasitə müəssisə və istehsalat birliklərinin bazasında yaradılmasına üstünlük verilib.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin "Ali təhsil müəssisələrində elmi-tədqiqat işinin səmərəliliyinin yüksəldilməsi barədə» qərarı



Azərbaycan Neft və Kimya İnstitutunda əcnəbi tələbələrlə bağlı keçirilən toplantının iştirakçıları arasında (1983)
Şəkildə (soldan). Birinci sıra:
1. İsmayıl İbrahimov – Azərbaycan Neft və Kimya İnstitutunun rektoru,
2. Zeynal Ələkbərov – Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun rektoru,
4. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri,
6. Afiyəddin Cəlilov – Nəsimi Rayon Partiya Komitəsinin birinci katibi,
7. Faiq Bağırzadə-Azərbaycan Dövlət Universitetinin rektoru, 8. Rafiq Feyzullayev – Azərbaycan ali və orta ixtisas təhsili nazirinin birinci müavini. İkinci sıra: 2. Mirzə Bağırov – Azərbaycan Politexnik İnstitutunun rektoru, 4. Bünyad Sərdarov – Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru və başqaları

(1978) respublikamızın ali məktəblərində aparılan elmi-tədqiqat işlərinin inkişafına əlavə təkan verib. Qərarda müvafiq orqanlar qarşısında elmi-tədqiqat işlərinin səmərəliliyi və keyfiyyətinə görə ali məktəb rəhbərlərinin məsuliyyətinin artırılması, elmi-tədqiqatların inkişaf etdirilməsi, onların nəzəri səviyyəsinin və tətbiqi əhəmiyyətinin yüksəldilməsi, ali məktəblərin və kafedraların istehsalatla əlaqələrinin möhkəmləndirilməsi, kadrlarla işin təkmilləşdirilməsi vəzifələri qoyulub. Qərara əlavə olunmuş Sovet İttifaqı üzrə 72 aparıcı ali təhsil müəssisəsinin siyahısına Azərbaycan Neft və Kimya İnstitutunun da adı daxil edilib.

**1970–1980-ci illərdə ali məktəblərin elmi-tədqiqat işlərini həyata keçirən əsas struktur bölməsi olan kafedraların sayı 450-dən 525-ə yüksəlib**

Elmin rolunun artması ali məktəblərdə elmi-tədqiqat işinin təşkilinə rəhbərliyin təkmilləşdirilməsini və idarə olunmanın yaxşılaşdırılmasını tələb edirdi. Odur ki, Ali və Orta İxtisas Təhsili Nazirliyində fəaliyyət göstərən Elmi-tədqiqat işləri şöbəsinin bazasında 3 şöbədən ibarət olan təsərrüfat hesablı Elm idarəsi yaradıldı. Qısa vaxt ərzində ali məktəb elminin idarə olunmasının yenidən təşkili, elmi işlərin planlaşdırılması və qarşıda duran mühüm elmi vəzifələrin həlli baxımından alimlərin səylərinin birləşdirilməsinə nail olundu.

Respublika ali məktəblərində elmi-tədqiqat işlərinin günbəgün genişləndirilməsi elmi işçilərin sayının artmasına səbəb olub. Belə ki, 1970–1980-ci illərdə ali məktəblərdə çalışan elmi-pedaqoji işçilərin sayı 5042-dən 7156-ya yüksəlib. Bununla yanaşı, elmi-pedaqoji kadrların keyfiyyət göstəriciləri də yaxşılaşıb. Həmin dövrdə elmlər doktorlarının (400-ə yaxın) və elmlər namizədlərinin (3 mindən çox) sayı təxminən 2 dəfə artıb.

1970–1980-ci illərdə ali məktəblərin elmi-tədqiqat işlərini həyata keçirən əsas struktur bölməsi olan kafedraların sayı



Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qəbul imtahanları zamanı (1985)
Şəkildə (soldan): 3. Qurban Əliyev- Azərbaycanın ali və orta ixtisas təhsili naziri, 4. Afad Qurbanov – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rektoru, 5. Məmməd Əliyev – Ali və Orta İxtisas Təhsili Nazirliyi Ali təhsil idarəsinin rəisi və başqaları

**1966-cı ildə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə 510,4 min rubl ayrılmışdısa, 1980-ci ildə bu vəsait 3,5 dəfə artırılaraq 1758,1 min rubl təşkil edib**

450-dən 525-ə yüksəlib. Kafedraların çoxalması tədqiq olunan problemlərin daha dərindən öyrənilməsinə səbəb oldu.

Ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsi təmin olunub. Əgər 1966-cı ildə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə 510,4 min rubl ayrılmışdısa, 1980-ci ildə bu vəsait 3,5 dəfə artırılaraq 1758,1 min rubl təşkil edib. Ali məktəblərin elmi-tədqiqat bölmələrində çalışanların əmək haqlarının xeyli qaldırılması elmi işlə məşğul olan işçilərinin sayının artmasına imkan verib.

Xalq təsərrüfatının müxtəlif sahələrinə tətbiq edilən təsərrüfat müqaviləli işlər ali məktəblərdə aparılan nəzəri tədqiqatların təcrübədə istifadə edilməsi üçün ən rasional yollardan biri kimi qəbul olunurdu. Məhz buna görə də belə işlərin sayı və həcmi tədricən artırılırdı.

1970–1979-cu illər ərzində ali məktəblərdə təsərrüfat müqaviləli elmi tədqiqatların aparılmasına cəlb olunan işçilərin sayı təxminən 4 dəfə, yüksəkixtisaslı kadrların – elmlər doktorlarının və elmlər namizədlərinin sayı 5 dəfə artıb. Yalnız 1979-cu ildə elmi-pedaqoji işçilərin – elmlər doktoru və elmlər namizədlərinin 38 faizi təsərrüfat müqaviləli işlərin yerinə yetirilməsi ilə məşğul olub.

Yeri gəlmişkən qeyd edək ki, təsərrüfat müqaviləli elmi işlərin və tədqiqatların nəticələrinin istehsalata tətbiqindən alınan gəlir ali məktəblərdə büdcədənkənar vəsaitlərin yaranmasına səbəb olurdu. Bu gəlirdən həm də tədqiqatların gələcəkdə daha da genişləndirilməsi üçün istifadə olunurdu. Belə ki, 1977-ci ildə ali məktəblərdə təsərrüfat müqaviləli elmi-tədqiqat işlərindən əldə edilmiş vəsaitdən respublikanın ali və orta ixtisas təhsilinin ehtiyacları üçün 1298,9 rubl vəsait xərc-



Ali və orta ixtisas təhsilinin inkişafına həsr olunmuş müşavirə (1985)
Şəkildə (soldan). 2. Adilə Heydərova – Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 3. İsmayıl İbrahimov – Azərbaycan Neft və Kimya İnstitutunun rektoru, 4. Feliks Perequdov – SSRİ ali və orta ixtisas təhsili nazirinin birinci müavini, 5. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri, 7. Ağalar Abbasbəyli – Bakı Şəhər Partiya Komitəsinin katibi, 6. Faiq Bağırzadə – Azərbaycan Dövlət Universitetinin rektoru və başqaları

lənib ki, bunun da 1004,7 rublu elm üçün lazım olan avadanlıqların alınmasına sərf olunub.

Ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinin istehsalatla əlaqəsi və başa çatmış tədqiqatların müxtəlif fəaliyyət sahələrində tətbiqi nəticəsində iqtisadi səmərəliliyi müəyyənləşdirmək mümkün olurdu. 1971–1975-ci illərdə respublikada elmi işlərin və ixtiraların istehsalata tətbiqinin iqtisadi səmərəliliyi 5,9 milyon rubl olduğu halda, 1976-cı ildə bu göstərici 7,4, 1977-ci ildə 15,4, 1978-ci ildə 16,6, 1979-cu ildə 20,1, 1980-ci ildə 18,3 milyon rubl (1976–1980-ci illərdə cəmi 77,8 milyon rubl) təşkil edib. Beləliklə, istehsalata tətbiq olunan elmi-tədqiqat işlərinin həcmi və iqtisadi səmərəliliyi artdıqca onların keyfiyyəti və praktik əhəmiyyəti də yüksəlirdi. Təsadüfi deyil ki, 1980-ci ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyində olan ali məktəblərdə 15 sahə elmi-tədqiqat laboratoriyası, 21 elmi-tədqiqat problem laboratoriyası və 2 elmi-tədqiqat institutu fəaliyyət göstərib.

**Keçən əsrin 70–80-ci illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi xüsusi qayğı sayəsində bir çox ali məktəblərin binaları yüksək səviyyədə təmir olunub, əlavə korpuslar inşa edilib, bu müəssisələrin maddi-texniki bazası müasir əyani vəsait və texniki vasitələrlə zənginləşdirilib**

Keçən əsrin 70–80-ci illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi xüsusi qayğı məntiqi nəticəsini verirdi. Artıq bir çox ali məktəblərin binaları yüksək səviyyədə təmir olunur, əlavə korpuslar inşa edilir, bu müəssisələrin maddi-texniki bazası müasir əyani vəsait və texniki vasitələrlə zənginləşdirilirdi.

1987-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi Konovalov, Qurban Əliyevin milli kadrlara üstünlük verməsini bəhanə edərək, onu burjua millətçisi adlandırıb. Bu haqsızlığa etiraz edən Qurban Əliyev: «Nə etmişəmsə, xalqım üçün, Vətənim üçün etmişəm və bundan da peşman deyiləm, əksinə, həzz alıram», – deyərək işdən getmək üçün ərizəsini yazıb.

Qurban Əliyev hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə milli təəssübkeşlik nümayiş etdirib, ağır təzyiqlərə baxmayaraq, bir vətəndaş kimi öz mövqeyini heç vaxt dəyişməyib. 16 il ali və orta ixtisas təhsili naziri işləyən Qurban Əliyev, həm də Azərbaycan Dövlət Tibb İnstitutunun professoru kimi səmərəli fəaliyyət göstərib.

Azərbaycan SSR Ali Sovetinə 8 çağırış deputat seçilib. «Oktyabr inqilabı», «Qırmızı Əmək Bayrağı», «Şərəf nişanı», «Xalqlar dostluğu» ordenləri və müxtəlif medallarla təltif edilib.

Tanınmış ictimai xadim və pedaqoq, bacarıqlı təhsil işçisi, vətənpərvər insan Qurban Əliyev Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub.

Qurban Əliyev 2008-ci il martın 30-da vəfat edib.



AĞALAR NƏRİMAN OĞLU
ABBASBƏYLİ
(1941)

**Ağalar Nəriman oğlu Abbasbəyli 1941-ci ildə Bakı şəhərində anadan olub**

**Ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışıb (1987–1988)**

**Xaricdə 2 mükafata və 4 müəlliflik şəhadətnaməsinə layiq görülüb**

Ağalar Nəriman oğlu Abbasbəyli 1941-ci ildə Bakı şəhərində anadan olub.

1957–1962-ci illərdə Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alıb. 1967-ci ildə MDU-da namizədlik, 1981-ci ildə doktorluq dissertasiyalarını müdafiə edib, professor adına layiq görülüb.

Onun həyatı ictimai-siyasi, elmi-pedaqoji fəaliyyətlə bağlı olub. Ötən dövr ərzində 500-dək elmi əsəri işıq üzü görüb. Onlardan 50-si xarici ölkələrdə nəşr olunub. Xaricdə 2 mükafata və 4 müəlliflik şəhadətnaməsinə layiq görülüb.

Uzun müddət Bakı Şəhər Partiya Komitəsinin katibi, Azərbaycan Kommunist Partiyası Təşkilat Komissiyasının sədr əvəzi, sədr müavini, keçmiş SSRİ-nin Kubadakı səfirliyində müşavir olub. Sonrakı illərdə Azərbaycan Neft və Kimya



Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi dövrdə də Azərbaycanın inkişafı üçün əlindən gələni əsirgəmirdi (1985)

Şəkildə (soldan): 1. Ağalar Abbasbəyli – Baki Şəhər Partiya Komitəsinin katibi, 2. Kamran Bağırov – Azərbaycan KP MK-nın birinci katibi, 3. Heydər Əliyev – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, 4. Afiyəddin Cəlilov – Nəsimi Rayon Partiya Komitəsinin birinci katibi, 5. Nəcməddin Əhmədov – Bakı Şəhər İcraiyyə Komitəsinin sədri və başqaları

İnstitutunun dosenti, beynəlxalq əlaqələr və ictimai elmlər kafedrasının müdiri, respublikamızın ali və orta ixtisas təhsili naziri (1987–1988) vəzifələrində fəaliyyət göstərib. 1981–1991-ci illərdə SSRİ Sülh Fondunun sədr müavini və Azərbaycan Respublikası Sülh Fondunun sədri olub.

İtaliya, Fransa, Almaniya, Kuba, Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Serbiya, İsveçrə və digər ölkələrdə elmi-nəzəri konfranslara qatılıb, proqram və tezislərlə çıxış edib.

BDU-nun beynəlxalq münasibətlər kafedrasının rəhbəri kimi bütün fənlər üzrə proqram və metodik göstərişlərin ərsəyə gəlməsində, 10 elmlər doktorunun, 18 elmlər namizədinin və 50 magistrin hazırlanmasında mühüm rol oynayıb.

Dünyanın bir sıra aparıcı elmi müəssisələri, o cümlədən Genuya, Nitsa, Trabzon, Moskva Dövlət, Kiyev, Odessa, Berlin və Mayns universitetləri ilə sıx elmi əməkdaşlıq edib.

Respublikamızın elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan «Heydər Əliyev və dünya siyasəti», «Azərbaycan beynəlxalq regional təşkilatlar sistemində», «XIX əsrin astanasında Rusiyanın Qafqaz siyasəti», «Müasirlik və sülh», «Bəşəriyyət və dünya baxışı», «Diplomatik protokol», «Azərbaycanın gələcəyi naminə», «Diplomatiya terminləri lüğəti», «Müasir dünyanın siyasi mənzərəsi», «Müasir beynəlxalq münasibətlər və qloballaşma», «Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar», «Dünya siyasəti», «Rusiyanın XXI əsrdə xarici siyasəti», «Beynəlxalq münasibətlərin proqnozlaş-

**İtaliya, Fransa, Almaniya, Kuba, Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Serbiya, İsveçrə və digər ölkələrdə elmi-nəzəri konfranslara qatılıb, proqram və tezislərlə çıxış edib**




Rəhbər şəxslər Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda olarkən

Şəkildə (soldan): 1. Kamran Bağırov – Azərbaycan KP MK-nın birinci katibi, 2. İsmayıl İbrahimov – Azərbaycan Neft və Kimya İnstitutunun rektoru, 3. Fikrət Əhmədov – Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 4. Vyaçeslav Yelyutin – SSRİ ali və orta ixtisas təhsili naziri, 5. Ağalar Abbasbəyli – Baki Şəhər Partiya Komitəsinin katibi, 6. Qurban Əliyev – Azərbaycanın ali və orta ixtisas təhsili naziri

**Həmin dövrdə «Azərbaycan tarixi» və «Azərbaycan dili» fənləri bütün ali və orta ixtisas məktəblərində tədris olunmağa başlayıb, Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin ali məktəblərinə göndərilən gənclərin əksəriyyətini azərbaycanlılar təşkil edib, dərsliklərin və dərs vəsaitlərinin Azərbaycan dilində hazırlanması haqqında qərar verilib**

dırılmasının nəzəri problemləri» və digər əsərləri tədris prosesində də istifadə olunur. İxtisaslaşmış iki Elmi Şurada, altı elmi jurnalın redaksiya heyətində üzv kimi təmsil olunur. Müxtəlif elmi-nəzəri konfransların təşkilatçısıdır.

Ali və orta ixtisas təhsili naziri işlədiyi (1987-1988) müddətdə respublika ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması və qəbul imtahanlarında obyektivliyin, şəffaflığın qorunması sahəsində müəyyən təsirli addımlar atmağa nail olub.

Həmin dövrdə «Azərbaycan tarixi» və «Azərbaycan dili» fənləri bütün ali və orta ixtisas məktəblərində tədris olunmağa başlayıb, imkansız ailələrdən olan istedadlı gənclərin ali məktəblərə qəbul göstəricisi artıb. Eləcə də Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin ali məktəblərinə göndərilən gənclərin əksəriyyətini azərbaycanlılar təşkil edib, istedadlı məzunların ali məktəblərdə saxlanılması, dərsliklərin və dərs vəsaitlərinin Azərbaycan dilində hazırlanması haqqında qərar verilib.

# AZƏRBAYCANIN
# XALQ
# TƏHSİLİ
# NAZİRLƏRİ



MÜSLÜM RƏCƏB OĞLU
MƏMMƏDOV
(1931–1999)

**Müslüm Rəcəb oğlu Məmmədov 1931-ci ildə İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub**

**1954-cü ildə Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsini bitirib**

**Xalq təhsili naziri vəzifəsində çalışıb (1988)**

Müslüm Rəcəb oğlu Məmmədov 1931-ci ildə İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub.

1949-cu ildə ADU-nun tarix fakültəsinə daxil olub. 1950-ci ildə MDU-ya köçürülüb. 1954-cü ildə Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsini bitirib.

Müslüm Məmmədov Astraxanbazarda (indiki Cəlilabad) əmək fəaliyyətinə başlayıb, müəllim, rayon xalq maarifi şöbəsinin inspektoru (1957–1958), Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı (1960–1962), Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin mühazirəçisi, mühazirəçilər qrupunun rəhbəri (1962–1963) vəzifələrində çalışıb. 1963-cü ildə Sovet İttifaqı KP MK yanında İctimai Elmlər Akademiyasının aspiranturasına daxil olub. 1966-cı ildə tarix elmləri namizədi alimlik dərəcəsi alıb.

1966–1969-cu illərdə Azərbaycan KP MK Aparatında işləyib, Bakı Şəhər Nəsimi Rayon PK-nın birinci katibi (1969–1975), Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda partiya tarixi kafedrasında baş müəllim, dosent, kafedra müdiri əvəzi (1976–1988) işləyib. «Qırmızı Əmək Bayrağı» ordeni və medalla təltif olunub. Bir müddət Azərbaycanın xalq təhsili naziri (1988), Bakı Şəhər PK-nın birinci katibi (1989–1991) vəzifələrində çalışıb.

Müslüm Məmmədov 1999-cu ildə vəfat edib.



RAFİQ BABAŞ OĞLU
FEYZULLAYEV
(1943–2001)

**Rafiq Babaş oğlu Feyzullayev 1943-cü ildə Bakı şəhərində anadan olub**

**Xalq təhsili naziri vəzifəsində çalışıb (1989–1992)**

Rafiq Babaş oğlu Feyzullayev 1943-cü ildə Bakı şəhərində anadan olub.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil alıb (1960–1965). 1965–1983-cü illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, elmi katib, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışıb.

1971-ci ildə Saratov Dövlət Universitetində cəbr və topologiya ixtisası üzrə namizədlik, 1985-ci ildə Belorusiya Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda doktorluq dissertasiyalarını müdafiə edib. 1990-cı ildə professor və1991-ci ildə «Əməkdar elm xadimi» fəxri adına layiq görülüb.

1976–1983-cü illərdə SSRİ Ali Attestasiya Komissiyasında Azərbaycanın səlahiyyətli nümayəndəsi olub. 1980–1983-cü illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Xalq Nəzarəti Komissiyasının sədri kimi fəaliyyət göstərib.

1983-cü ildə Azərbaycanın ali və orta ixtisas təhsili nazirinin birinci müavini təyin olunub. Maarif Nazirliyi, Dövlət Texniki Peşə Təhsili Komitəsi, Ali və Orta İxtisas Təhsili Nazirliyinin birləşməsi nəticəsində yaradılan Xalq Təhsili Nazirliyində 1988-ci ilin oktyabrından 1989-cu ilin martına qədər nazir müavini vəzifəsində çalışıb.

Xalq təhsili naziri
Rafiq Feyzullayev ali məktəblərə qəbul imtahanlarında






Azərbaycan Dövlət Pedaqoji İnstitutunda konfransın açılışı mərasimi
Şəkildə (soldan): 1. Eldar Məsimov – Xalq Təhsili Nazirliyinin Elm idarəsinin rəisi 2. Kamran Rəhimov – xalq təhsili nazirinin birinci müavini, 3. Rafiq Feyzullayev – xalq təhsili naziri, 4. Afad Qurbanov – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rektoru, 5. Kamal Hüseynov – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun prorektoru

Müşavirə zamanı
Şəkildə (soldan): 1. Mürsəl Nəcəfov – xalq rəssamı, 2. Rafiq Feyzullayev – xalq təhsili naziri, 3. Misir Mərdanov – xalq təhsili nazirinin müavini



**Həmin dövrdə Bakı Dövlət Universitetinin Lənkəran və Şəkidə, Sənaye Universitetinin Mingəçevirdə, İncəsənət Universitetinin Qubada, Konservatoriyanın Şuşada, Gəncə Pedaqoji İnstitutunun Laçın və Qazaxda filialları fəaliyyətə başlayıb**



SSRİ ali məktəblərinin ictimai fənlər üzrə kafedra müdirlərinin ümumittifaq müşavirəsində (1986)

Şəkildə (soldan). Birinci sıra: 5. Rafiq Feyzullayev – ali və orta ixtisas təhsili nazirinin birinci müavini, 6. Faiq Bağırzadə – Azərbaycan Dövlət Universitetinin rektoru, 8. Rəhim Rəhimov – Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru. İkinci sıra: 4. Nurqələm Mikayılov – İnşaat Mühəndisləri İnstitutunun kafedra müdiri, 5. Əhməd Məmmədov – Kənd Təsərrüfatı İnstitutunun kafedra müdiri, 6. Aqil Əliyev – Azərbaycan Tibb İnstitutunun kafedra müdiri, 7. Həsən Şirəliyev – Azərbaycan Dövlət Universitetinin kafedra müdiri, 9. Fuad Qasımzadə – Azərbaycan Dövlət Universitetinin kafedra müdiri, 10. Hacıbaba Əzimov – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri. Üçüncü sıra: 3. Həmid İmanov, 5. Dərgah Qüdrətov – Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri, 7. Oqtay Rzaquliyev – Mirzə Fətəli Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun kafedra müdiri və başqaları

1989–1992-ci illərdə xalq təhsili naziri vəzifəsində ölkə təhsilinə rəhbərlik etdiyi dövrdə Rafiq Feyzullayev müxtəlif bölgələrin sosial-mədəni, elmi və iqtisadi səviyyəsini yüksəltmək, gərəkli ixtisaslara yiyələnmək istəyənlərə daha əlverişli şərait yaratmaq məqsədi ilə bir sıra şəhər və rayonlarda ali məktəblərin, texnikumların filiallarının açılmasına nail olub. Həmin dövrdə Bakı Dövlət Universitetinin Lənkəran və Şəkidə, Sənaye Universitetinin Mingəçevirdə, İncəsənət Universitetinin Qubada, Konservatoriyanın Şuşada, Gəncə Pedaqoji İnstitutunun Laçın və Qazaxda filialları fəaliyyətə başlayıb. Texnikum filiallarının şəbəkəsi də genişləndirilib, Ağstafa, Astara, Əli Bayramlı (indiki Şirvan), Beyləqan, Balakən, Masallı, Xocalı, Sabirabad, Quba, Qusar, Neftçala, Naxçıvan, Füzuli və Laçında orta ixtisas məktəblərinin 15 filialı təşkil edilib.

Respublikada ali məktəb şəbəkəsinin daha düzgün təsnifatı və ali təhsilin səviyyəsinin yüksəldilməsini təmin etmək məqsədi ilə 5 institutun statusu dəyişdirilərək universitetə çevrilib. Sənaye İnstitutunun Neft Akademiyasına çevrilməsi də həmin dövrə təsadüf edir.

Naxçıvan Muxtar Respublikasının ixtisaslı kadrlara olan tələbatını daha dolğun ödəmək üçün Naxçıvan Pedaqoji İnstitutunun əsasında Naxçıvan Dövlət Universiteti yaradılıb. Bunlarla yanaşı, bəzi texnikumların adı dəyişdirilərək müasir tələblərə uyğunlaşdırılıb, elmi-texniki tərəqqinin və milli-mədəni təfəkkürün inkişafına uyğun kadrların hazırlanması təmin edilib. Təkcə 1991-ci ildə ali məktəblərdə 35, texnikumlarda isə 16 yeni ixtisas üzrə kadr hazırlanmasına başlanılıb.

**Naxçıvan Muxtar Respublikasının ixtisaslı kadrlara olan tələbatını daha dolğun ödəmək üçün Naxçıvan Pedaqoji İnstitutunun əsasında Naxçıvan Dövlət Universiteti yaradılıb**

Ali məktəblərdə və texnikumlarda tədris-tərbiyə prosesinin idarə edilməsinin təkmilləşdirilməsi məqsədi ilə birinci prorektor, texnikumlarda isə direktorun birinci müavini və tərbiyə işləri üzrə direktor müavini vəzifələri təsis olunub.

Təsadüfi deyil ki, həmin illərdə gənclərin ali və orta ixtisas məktəblərinə axını güclənib, Xalq Təhsili Nazirliyinin tabeliyində olan ali məktəblərdə 168 ixtisas üzrə 86,4 min, texnikumlarda isə 106 ixtisas üzrə 38,9 min tələbə təhsil alıb.

Həmin dövrdə müxtəlif nazirlik, müəssisə, təşkilat və assosiasiyalar tərəfindən elmi-pedaqoji və tədris-maddi imkanlar nəzərə alınmadan tədris müəssisələrinin yaradılması cəhdlərinin qarşısının alınması məqsədilə müvafiq ekspert komissiyası fəaliyyətə başlayıb. Bu komissiya elmi-pedaqoji kadrların və tədris-maddi səviyyənin mövcudluğu, bazar iqtisadiyyatı şəraitində inkişaf imkanları, tədris plan və proqramlarının, ədəbiyyat fondunun vəziyyəti, tədris olunan ixtisaslara tələbat və digər meyarları əsas götürərək təhsil müəssisələrinin fəaliyyətinə icazə verib.

**Həmin dövrdə müxtəlif nazirlik, müəssisə, təşkilat və assosiasiyalar tərəfindən elmi-pedaqoji və tədris-maddi imkanlar nəzərə alınmadan tədris müəssisələrinin yaradılması cəhdlərinin qarşısının alınması məqsədilə müvafiq ekspert komissiyası fəaliyyətə başlayıb**

Ali təhsil şəbəkəsində yeniləşmənin təmin edilməsi baxımından ali məktəblərin tərkibində elmi-pedaqoji institutlar, mərkəzlər, orta məktəblər, liseylər və kolleclər yaradılıb. Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Ali humanitar kollec, Azərbaycan Dövlət Neft Akademiyasının nəzdində təşkil edilmiş iki elmi tədqiqat institutu və digərləri buna misal kimi göstərilə bilər.

Müstəqilliyin ilk mərhələsində həyata keçirilən iqtisadi və siyasi islahatlar şəraitində fəhlə kadrların peşəkarlığına, ümumi səviyyəsinə qoyulan tələblər qat-qat artmışdı. Orta texniki peşə məktəbləri müvafiq profili və tədris müddəti müxtəlif olan peşə məktəblərinə çevrildilər. Texniki peşə məktəbləri şəbəkəsi sahmana salındı, onların sayı 185-dən 171-ə endirildi, o cümlədən kənd rayonlarındakı 92 peşə məktəbi nazirliyin tabeliyinə keçirildi. 1991-ci ildə respublikanın 167 texniki peşə məktəbini 48092 məzun başa vurub.

**1990–1991-ci illərdə orta məktəblərdə 1867 fənn kabineti və 571 kompyuter sinfi quraşdırılıb**

**1989–1990-cı tədris ilindən başlayaraq yeni tipli orta məktəblər açılıb**

**Həmin dövrdə latın qrafikalı əlifbanı öyrənmək üçün məktəblərdə dərnəklər, fakültativ məşğələlər təşkil edilib**

Respublikamızda yeni tipli peşə məktəblərinin, ilk növbədə ali texniki məktəblərin yaradılması da diqqət mərkəzində saxlanılıb. 74 nömrəli Bakı texniki peşə məktəbinin nəzdində kompyuter liseyi yaradılıb.

Liseylərdə tədris müddəti 4 il, təhsil sistemi isə üçpilləli oldu. Tədris müddətindən asılı olaraq məzunlar III–IV dərəcəli fəhlə, yüksəkixtisaslı fəhlə və kiçik mühəndis ixtisası alırdılar. Kiçik mühəndis adı alanlar müvafiq ali məktəblərdə qəbul imtahanı vermədən, müsahibə yolu ilə daxil olunurdular.

Texniki peşə məktəblərinin istehsal fəaliyyətinin genişləndirilməsi istiqamətində də müəyyən işlər görülüb. 1991-ci ildə yalnız kənd peşə məktəblərinin gəliri 1,8 milyon manat təşkil edib. 82 nömrəli Bakı və 152 nömrəli Əli Bayramlı (indiki Şirvan) texniki peşə məktəbləri İran firmaları ilə xalq istehlakı malları buraxan müştərək müəssisələr yaratmışdılar. Ümumilikdə respublikanın texniki peşə məktəblərinin nəzdində 14 kiçik müəssisə fəaliyyət göstərirdi.

Respublikada ümumtəhsil məktəblərinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün bir sıra tədbirlər həyata keçirilib, yeni tipli orta təhsil müəssisələrinin təşkilinə diqqət artırılıb. Məktəblərdə tədris maddi bazasının möhkəmləndirilməsi üçün xeyli iş görülüb. 1990–1991-ci illərdə orta məktəblərdə 1867 fənn kabineti və 571 kompyuter sinfi quraşdırılıb.

Ümumtəhsil məktəblərinin I siniflərindən yeni əlifbanın tədrisinə başlanması üçün əsaslı işlər görülüb. «Əlifba» kitabı, kəsmə əlifba, hüsnxət vəsaitləri hazırlanıb. Çap olunan dərsliklərin axırıncı səhifəsində latın qrafikalı Azərbaycan əlifbası verilib, kütləvi şəkildə latın qrafikalı əlifbanın öyrənilməsi üçün yerlərdə ibtidai sinif müəllimləri üçün kurslar təşkil olunub. Latın qrafikalı əlifbanı öyrənmək üçün məktəblərdə dərnəklər, fakültativ məşğələlər təşkil edilib.

1989–1990-cı tədris ilindən başlayaraq 37 çoxvariantlı tədris planları istifadəyə verilib, yeni tipli orta məktəblər açılıb. Bakı şəhərinin 2 və 20 nömrəli məktəblərinin əsasında liseylər, 8 nömrəli internat məktəbin əsasında incəsənət gimnaziyası, Sumqayıt şəhəri 2 nömrəli təcrübi məktəbin əsasında gimnaziya, Suraxanı rayonunda fars və ingilis dili təmayüllü internat məktəb və Sumqayıt şəhərində fars dili təmayüllü internat məktəb fəaliyyətə başlayıb.

Həmin dövrdə fasiləsiz təhsilin əsası qoyulub, bu baxımdan orta məktəblərin dayaq mərkəzlərinə çevrilməsinə nail olunub. Məsələn, Bakı kimya-biologiya təmayüllü məktəb Tibb Universitetinin, incəsənət gimnaziyası İncəsənət İnstitutu və Konservatoriyanın, 12 nömrəli rus dili təmayüllü internat məktəb isə Rus Dili və Ədəbiyyatı İnstitutunun dayaq məktəbi kimi fəaliyyət göstərib.

1990-cı ildə respublikada istedadlı uşaqların aşkara çıxarılması və inkişaf etdirilməsi sistemi yaradılıb. «İstedad»

assosiasiyası və Azərbaycan Dövlət Universitetinin elmi-təcrübi mərkəzi istedadlı uşaqları seçmək və püxtələşdirmək üçün öz səylərini birləşdirib, belə uşaqların həvəsləndirilməsi üçün respublika olimpiadalarının qalibləri və baza məktəblərinin ən yaxşı şagirdləri ali məktəblərə qəbul imtahanlarından azad ediliblər. Xalq Təhsili Nazirliyinin diqqət mərkəzində olan məsələlərdən biri də elmi tədqiqatların inkişaf etdirilməsi olub. 1991-ci ildə bir sıra ali məktəblərdə yeni elmi tədqiqat laboratoriyaları yaradılıb.

**1990-cı ildə respublikada istedadlı uşaqların aşkara çıxarılması və inkişaf etdirilməsi sistemi yaradılıb**

1990-cı ildə respublikamızda ilk dəfə olaraq Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) nəzdində Elmi Tədqiqat Neft və Qazın Kəşfiyyatı və Hasilatının Geotexnoloji Problemləri və Elmi Tədqiqat Aerokosmik İnformasiya İnstitutları yaradılıb.

Yeni siyasi təfəkkür və beynəlxalq münasibətlərdə baş verən köklü dəyişikliklər xarici təhsil mərkəzləri ilə əməkdaşlığın yeni formalarından istifadə etməyə imkan verirdi. Xalq Təhsili Nazirliyi mövcud vəziyyəti düzgün qiymətləndirərək Çin, ABŞ, İngiltərə, Almaniya, İsrail, Əlcəzair, Suriya, Türkiyə, Misir, İsveçrə, İran və digər ölkələrlə qarşılıqlı əlaqələr yaradıb. Həmin dövrdə bağlanmış müqavilələrə əsasən azərbaycanlı gənclər xarici ölkələrin qabaqcıl təhsil ocaqlarına oxumağa göndərilib.

Türkiyə Təhsil Nazirliyi ilə əməkdaşlıq barədə müqavilə imzalanıb və müqaviləyə əsasən 1992-ci ildə Türkiyənin



Misir Ərəb Respublikası təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş zamanı (1990)
Şəkildə (sağ tərəfdə): 1. Rafiq Feyzullayev – xalq təhsili naziri, 2. Mahir Əliyev – tərcüməçi, 3. Mail Dəmirli – Azərbaycan SSR Elmlər Akademiyasının məsul əməkdaşı və başqaları

**Həmin dövrdə bağlanmış müqavilələrə əsasən azərbaycanlı gənclər xarici ölkələrin qabaqcıl təhsil ocaqlarına oxumağa göndərilib**

**Rafiq Feyzullayev 70-dən artıq elmi əsərin və tədris vəsaitinin müəllifidir**

təhsil müəssisələrinə 1000 nəfərə qədər gənc göndərilib. Bundan əlavə, müştərək tədris müəssisələri təşkil edilib, Bakıda türk liseyi açılıb, Bakı və Ankarada birgə mədəni, idman, elmi mərkəzlər yaradılıb.

Latın qrafikasına keçmək üçün Türkiyə Azərbaycana zəruri köməyini göstərib. Belə ki, Türkiyə Azərbaycana yeni əlifba, dərsliklər, tədris metodika ədəbiyyatının nəşrini təşkil etmək üçün müvafiq yazı və poliqrafiya avadanlıqları verib.

Eləcə də xarici əlaqələrin mühüm sahəsi olan əcnəbilərin respublikamızın tədris müəssisələrində təhsil alması prosesi genişlənib. Həmin dövrdə respublikamızda 67 ölkədən 2457 nəfər tələbə təhsil alıb.

Rafiq Feyzullayev 1988-ci ildə Azərbaycan KP Bakı Şəhər Komitəsinin üzvü, Bakı Şəhər Sovetinin deputatı seçilib. SSRİ KP-nın XXVIII qurultayında Mərkəzi Nəzarət Komissiyasının üzvü seçilib.

Rafiq Feyzullayev 70-dən artıq elmi əsərin və tədris vəsaitinin müəllifidir.

Sonrakı dövrdə bir müddət müdafiə nazirinin və Azərbaycan Elm və Texnika Komitəsi sədrinin müavini (1993) olub. 1993–2001-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası prezidentinin müavini vəzifəsini icra edib.

Rafiq Feyzullayev 2001-ci ildə dünyasını dəyişib.



FİRİDUN AĞASI OĞLU
CƏLİLOV
(1947)

**Firidun Ağası oğlu Cəlilov 1947-ci ildə Vedibasar bölgəsinin Qarabağlar kəndində anadan olub**

**Xalq təhsili naziri vəzifəsində çalışıb (1992–1993)**

**Türk dilinin qrammatik quruluşu, xalqımızın etnogenezi, mifologiyası və qədim tarixi barədə 100-dən artıq elmi əsərin, 6 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir**

Firidun Ağası oğlu Cəlilov 1947-ci ildə Vedibasar bölgəsinin Qarabağlar kəndində anadan olub.

Orta məktəbi Bakıda (1966) bitirib, əmək fəaliyyətinə tikinti idarəsində başlayıb. ADU-nun (indiki BDU-nun) filologiya fakültəsinin məzunudur. Universitetin Azərbaycan dilçiliyi kafedrasında laborant, müəllim, dosent və professor vəzifələrində çalışıb. 1978-ci ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib. Türk dilinin qrammatik quruluşu, xalqımızın etnogenezi, mifologiyası və qədim tarixi barədə 100-dən artıq elmi əsərin, 6 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir.

Filologiya fakültələrinin tələbələri üçün yazılmış «Azərbaycan dilindən məşğələlər» (1977), «Azərbaycan dilinin səs quruluşu» (1982), «Morfonologiyadan oçerklər» (1985), «Mürəkkəb cümlə sintaksisi» (1985) kitabları, hazırlıq fakültələri üçün nəzərdə tutulmuş «Azərbaycan dilinin qrammatikası» (1990, həmmüəllif) dərsliyi çap olunub. «Azərbaycan dilinin morfonologiyası» (1988) türkologiyada bu mövzuda yazılmış yeni istiqamətli ilk monoqrafiyadır. Ümumiyyətlə, türk xalqlarının tarixi, mifologiyası və etnoqrafiyası haqqında 200-dən artıq elmi məqalə və 20 kitab yazıb, əsərlərinin bir hissəsi xarici ölkələrdə çap olunub. Türkologiya sahəsindəki xidmətlərinə görə Atatürkün qurduğu Türk Dil Qurumunun 1996-cı ildə müxbir, 2000-ci ildə isə fəxri üzvü seçilib. Dünya türkoloqları onu ümumtürk əlifbasının layihəsini hazırlayan və ilk dəfə həmin əlifbanın Azərbaycanda gerçəkləşməsinə nail olan görkəmli türkoloq kimi tanıyırlar.



«Göy Tanrı» romanının müzakirəsi zamanı
Şəkildə (soldan): 1. Sabir Rüstəmxanlı – xalq şairi, 2. Firidun Cəlilov – professor, 3. Qabil – xalq şairi, 4. Anar – xalq yazıçısı

Azərbaycan türklərinin 4–5 minillik dövlətçilik tarixi barədə elmi konsepsiyasının tərəfdarları ilə birlikdə dəfələrlə elmi seminarlar təşkil edib, Vaşinqton, Nyu-York, Paris, Ankara, İstanbul, Qahirə və digər şəhərlərdə bu mövzuda məruzələr edib. Həmin məruzələrin və bu sahədə yazılan məqalələrin bir qismi «Azər xalqı» (2000) kitabında yer alıb. Türk etnosunun Mərkəzi və Orta Asiyada deyil, Azərbaycanın da daxil olduğu Ön Asiyada yaranması haqqında irəli sürdüyü yeni elmi nəzəriyyə artıq bir sıra alimlərin dəstəyini qazanıb. Son 30 ildə bu sahədə apardığı elmi tədqiqatlar Azərbaycan xalqının islamaqədərki tarixinə aid 9 cilddə yazdığı kitabların («Doqquz Bitik») əsasını təşkil edir.

**1992-ci ildə onun təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə test imtahanından keçən 2000 tələbə Türkiyənin ali təhsil ocaqlarına göndərilib**

Firidun Cəlilov Azərbaycanın müstəqillik Aktının (1991), latın qrafikalı əlifbanın (1991), Dövlət himninin (1992), Təhsil Qanununun (1993) parlamentdə qəbul olunmasında yaxından iştirak edib.

Elmi-pedaqoji fəaliyyətlə yanaşı, ölkəmizin ictimai-siyasi həyatında da fəal olub, millət vəkili və Milli Məclisin elm, təhsil və mədəniyyət komissiyasının sədri seçilib. Azərbaycan Respublikası təhsil nazirinin müavini, baş nazirin müavini vəzifələrində işləyib.

1992-ci ilin avqustunda Azərbaycan Respublikasının xalq təhsili naziri təyin edilib. Həmin dövrdə ümumtəhsil məktəbləri üçün müxtəlif ixtisaslar üzrə proqram və dərsliklər hazırlanıb, «Orta ümümtəhsil məktəblərinin V–XI sinifləri üçün türk dili proqramı» (1993) çap olunub.

«Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun müzakirəsi zamanı (1992)
Şəkildə (soldan): 1. Yaqub Mahmudov – professor, 3. Firidun Cəlilov – xalq təhsili naziri, 4. Misir Mərdanov – xalq təhsili nazirinin müavini, 5. Mirabbas Qasımov – Azərbaycan Dövlət Universitetinin rektoru, 6. Abdulla Mehrabov – xalq təhsili nazirinin müavini



MDB məkanında ilk dəfə olaraq test imtahanının tətbiqi (1992) onun səyi ilə gerçəkləşib, AAK (Ali Attestasiya Komissiyası) onun təşəbbüsü ilə yaradılıb. Təhsil Nazirliyində qısa müddətdə yeni proqram və dərsliklər hazırlanıb nəşr edilib. 1992-ci ildə onun təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə test imtahanından keçən 2000 tələbə Türkiyənin ali təhsil ocaqlarına göndərilib.

# AZƏRBAYCAN
# RESPUBLİKASININ
# TƏHSİL
# NAZİRLƏRİ



LİDİYA XUDAT QIZI
RƏSULOVA
(1941)

**Lidiya Xudat qızı Rəsulova 1941-ci ildə Bakı şəhərində anadan olub**

**Təhsil naziri vəzifəsində çalışıb (1993–1997)**

Lidiya Xudat qızı Rəsulova 1941-ci ildə Bakı şəhərində anadan olub.

Neftçi-fəhlə Xudat Rəsulovun ailəsində böyüyüb. Bu ailədə böyüyən yeddi uşaq valideynlərinin həyata, insanlara münasibətindən örnək alıb. Əməksevərlik, sədaqət, mehribanlıq bu evdə həmişə yüksək qiymətləndirilib. Onun xatirələrində anası Məhbubə Hüseyn qızı xüsusi yer tutur.

Məktəb illərində Lidiya Rəsulova fəal ictimai işə qoşulur. Ailəsi hər zaman onun fəallığını dəstəkləyir və həvəsləndirir. 16 yaşında işə düzəlir və oxumağa davam edir. Məktəbi bitirdikdən sonra o, Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunda rus dili və ədəbiyyatı müəllimi fakültəsinin axşam şöbəsinə daxil olur. 1965-ci ildə ali təhsilini başa vurur.

Əmək fəaliyyətinə ümumtəhsil və məktəbdənkənar tədris müəssisələrində başlayıb. Gənclik illərindən insanlarla işləmək bacarığı ilə seçilib. 1963–1966-cı illərdə seçkili gənclər təşkilatlarında müxtəlif rəhbər vəzifələrdə çalışıb.

1966–1981-ci illərdə fəaliyyətini partiya təşkilatlarında müxtəlif vəzifələrdə davam etdirib. Belə ki, Azərbaycan KP MK-nın elm və təhsil müəssisələri şöbəsinin müdir müavini, Nəsimi rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışıb.



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Lidiya Rəsulovanı təltif edərkən



Bakı Dövlət Universitetinin 75 illik yubiley mərasimində (1994)
Şəkildə (soldan). Birinci sıra: 1. Arif Ağayev – Yasamal Rayon İH-nın başçısı, 3. Elçin Əfəndiyev – Baş nazirin müavini, 4. Lidiya Rəsulova – təhsil naziri, 5. Murtuz Ələsgərov – Bakı Dövlət Universitetinin rektoru, 6. Fatma Abdullazadə – Prezidentin İcra Aparatının şöbə müdiri, 7. Misir Mərdanov – Bakı Dövlət Universitetinin prorektoru, 8. Tahir Baxşəliyev – Bakı Dövlət Universitetinin prorektoru. İkinci sıra: 3. Bəhram Əsgərov – Bakı Dövlət Universitetinin prorektoru və başqaları

Lidiya Rəsulova xarici qonaqlarla birlikdə





Lidiya Rəsulova Azərbaycanın ali məktəb rəhbərləri ilə birlikdə

Şəkildə (soldan). Birinci sıra: 1. Pərviz Məmmədov – Azərbaycan Dövlət Neft Akademiyasının rektoru, 2. Əhliman Əmiraslanov – Azərbaycan Tibb Universitetinin rektoru, 3. Murtuz Ələsgərov – Bakı Dövlət Universitetinin rektoru, 4. Lidiya Rəsulova – təhsil naziri, 5. Hamlet İsaxanlı – Xəzər Universitetinin rektoru, 6. Əsmət Həsənova – Gəncə Elm Təhsil Mərkəzi – Gəncə Universitetinin rektoru. İkinci sıra: 1. Fərhad Bədəlbəyli – Bakı Musiqi Akademiyasının rektoru, 2. Qorxmaz Quliyev – Xarici Dillər İnstitutunun rektoru, 3. Vidadi Məmmədov – Gəncə Texnologiya İnstitutunun rektoru, 4. Məmmədtağı Cəfərov – Kənd Təsərrüfatı Akademiyasının rektoru, 6. Rəhim Rəhimov – Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru, 8. Hacıbaba Əzimov – Lənkəran Dövlət Universitetinin rektoru, 9. Akif Hacıyev – Mingəçevir Politexnik İnstitutunun rektor əvəzi, 10. Fərhad Elmarzadə – Sumqayıt Politexnik İnstitutunun rektoru, 11. Qeybulla Qeybullayev – Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru, 12. Rafiq Mehdiyev – Azərbaycan Texniki Universitetinin rektoru, 15. Firidun Hüseynov – Rus Dili və Ədəbiyyatı İnstitutunun rektoru, 16. Mübariz Yusifov – Gəncə Dövlət Pedaqoji Universitetinin rektoru, 17. İslam Qarayev – Azərbaycan Dövlət İqtisad Universitetinin rektor əvəzi, 18. Cəlil Nağıyev – Asiya Universitetinin rektoru və başqaları



**1993-1997-ci illərdə Azərbaycan təhsilini dirçəltmək, milli zəmində yenidən qurmaq istiqamətində məqsədyönlü işlər görülüb, ali təhsildə özəl sektorun yaradılması yönündə müvafiq tədbirlər həyata keçirilib**

Lidiya Rəsulova beynəlxalq konfransda iştirak edərkən

1981-ci ildən 1988-ci ilə kimi Azərbaycan Həmkarlar İttifaqının sədri kimi fəaliyyət göstərib. Bu dövrdə Azərbaycan KP MK-nın bürosuna üzv təyin olunmağa layiq görülən yeganə qadındır.

1988–1993-cü illərdə sosial təminat naziri və Azərbaycan Dövlət Elm və Texnika Komitəsinin sədr müavini vəzifələrində çalışıb. 1993-cü ildən 1997-ci ilə kimi təhsil naziri vəzifəsində çalışıb.

1993–1997-ci illərdə Azərbaycan təhsilini dirçəltmək, milli zəmində yenidən qurmaq istiqamətində məqsədyönlü işlər görülüb, ali təhsildə özəl sektorun yaradılması yönündə müvafiq tədbirlər həyata keçirilib. Təhsildə mövcud olan

ABŞ-dan Azərbaycana gəlmiş nümayəndə heyəti ilə birgə orta məktəbdə olarkən



**1997-ci ildə Beynəlxalq Diplomatik Konfransda YUNESKO-nun Ümumavropa Konvensiyasını imzalayıb**



Lidiya Rəsulova Təhsil Nazirliyinin beynəlxalq əlaqələrinin genişlənməsinə xüsusi önəm verirdi

bütün neqativ hallarla mübarizə aparılıb, tələbkarlıq daha da artırılıb.

Bir çox xarici ölkələrdə səfərlərdə olub, Beynəlxalq Diplomatik Konfransda YUNESKO-nun Ümumavropa Konvensiyasını imzalayıb.

SSRİ Ali Sovetinin XI çağırış və Azərbaycan SSR Ali Sovetinin IX və X çağırışlarında deputat seçilib, müxtəlif orden və medallara layiq görülüb. 1997-ci ildə təqaüdə çıxıb, «Şöhrət» ordeni ilə təltif olunub.

Lidiya Rəsulova Bakı özəl türk liseyində (1997)





MİSİR CUMAYIL OĞLU
MƏRDANOV
(1946)

**Misir Cumayıl oğlu Mərdanov 1946-cı ildə Ermənistan SSR-in İcevan rayonunun Göyərçin kəndində ziyalı ailəsində anadan olub**

**1969-cu ildə Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olub**

**1998-ci ildə təhsil naziri vəzifəsinə təyin olunub**

Misir Cumayıl oğlu Mərdanov 1946-cı ildə Ermənistan SSR-in İcevan rayonunun Göyərçin kəndində ziyalı ailəsində anadan olub.

Atası Mərdanov Cumayıl Alı oğlu 1938-ci ildə 20 yaşında İrəvandakı Azərbaycan Pedaqoji Texnikumunu bitirib. O dövr üçün bu məktəb Qori seminariyası, yaxud onun İrəvandakı filialı kimi fəaliyyət göstərən təhsil ocağı idi. Cumayıl Mərdanov bölgədə ilk müəllimlik təhsili alan şəxs olub. Əmək fəaliyyətinə Göyərçin məktəbində müəllim kimi başlayıb.

Misir Mərdanov yeddinci sinfi Salahda, onuncu sinfi qonşu Polad kənd məktəbində bitirib. 1964-cü ildə Bakı şəhərindəki 49 nömrəli məktəbdə eksternat yolu ilə imtahan verərək orta təhsil haqqında sənəd alıb. Həmin il Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olub. 1969-cu ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirib, diplom işi elmi əsər kimi universitetin gənc alimlərinin elmi işlərinin dərc edildiyi topluda çap olunub.

Universiteti bitirdikdən sonra təyinatla Gəncə Pedaqoji İnstitutuna göndərilib və riyaziyyat fakültəsində baş laborant kimi əmək fəaliyyətinə başlayıb. 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olub. Professor Qoşqar Əhmədov və dosent Kazım Həsənovun rəhbərliyi ilə «Optimal idarəetmənin bəzi məsələləri» mövzusunda disser-

Gürcüstan Respublikasının prezidenti Eduard Şvernadzeyə Bakı Dövlət Universitetinin Fəxri doktoru diplomu təqdim edilərkən (1997)



tasiya üzərində elmi tədqiqata başlayıb. Onun namizədlik dissertasiyasının əsasını neytral tipli gecikməsi olan sistemlər üçün maksimum prinsipinin isbat olunması təşkil edir.

1972-ci ildə Bakıda ilk dəfə keçirilən və optimal idarəetmənin riyazi üsullarına həsr olunmuş Ümumittifaq elmi konfransın iştirakçısı olub. 1973-cü ilin yayında namizədlik dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb.

1972-ci ildən universitetdə müəllimlik fəaliyyətini davam etdirən Misir Mərdanov 1978-ci ilin payızında mexanika-riyaziyyat fakültəsində dekan müavini vəzifəsinə təyin olunub. 1980-ci ilədək həndəsə kafedrasında çalışıb, analitik və diferensial həndəsə kurslarından mühazirələr oxuyub, məşğələlər aparmaqla yanaşı, diferensial tənliklər kafedrasında optimal idarəetmə üzrə ixtisas kurslarına rəhbərlik edib, bu sahədə elmi tədqiqatlarını davam etdirib. 1980-ci ildə diferensial tənliklər kafedrasının dosenti vəzifəsinə seçilib və kafedrada «Optimallaşdırma üsulları»ndan mühazirələr oxuyub. 1973–1980-ci illərdə optimal idarəetmənin bəzi məsələlərinə dair elmi nəticələri yerli və mərkəzi jurnallarda çap olunub.

1984–1985-ci illərdə universitetin qəbul komissiyası məsul katibinin müavini, eyni zamanda ölkədən kənara oxumağa göndərilən tələbələrin işi üzrə məsul katib vəzifəsində işləyib. 1986–1987-ci illərdə ADU-nun qəbul komissiyasının məsul katibi kimi fəaliyyətini davam etdirib.

Misir Mərdanov bu illərdə «Məhdudiyyətləri olan gecikən arqumentli proseslərdə optimallığın tədqiqi» mövzusunda doktorluq dissertasiyasını tamamlayıb. İşin əsasları keçmiş

**1973-cü ilin yayında namizədlik dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb**

**1973–1980-ci illərdə optimal idarəetmənin bəzi məsələlərinə dair elmi nəticələri yerli və mərkəzi jurnallarda çap olunub**

Azərbaycan müəllimlərinin XI qurultayında təhsil sərgisinə baxış zamanı (1998)





Azərbaycan müəllimlərinin XI qurultayı (1998)



Dünya şöhrətli alim, Türkiyənin Bilkənt Universitetinin qurucusu, professor İhsan Doğramacının evində görüş (1998)




Türkdilli Ölkələrin Dövlət Başçılarının VI zirvə görüşü (2000)

Tanınmış musiqiçi Mstislav Rostropoviçlə görüş (2000)





Təhsil naziri Misir Mərdanov Tailandda YUNESKO-nun toplantısında (2001)

Əməkdar müəllim İmamverdi Əbilovun evində (Neftçala, 2001)





Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında təhsil sənədlərinin imzalanma mərasimi (Moskva, Kreml, 2002)

Xalq şairi Məmməd Arazla görüş (2002)



**1989-cu ilin iyununda Kiyev şəhərində Riyaziyyat İnstitutunun elmi şurasında doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib**

**Azərbaycanda təhsil sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsi Misir Mərdanovun təhsil naziri kimi fəaliyyət göstərdiyi dövrə təsadüf edir**

SSRİ-nin riyaziyyat üzrə nüfuzlu «Доклады академии наук СССР», «Дифференциальные уравнения», «Математические заметки», «Вестник МГУ, серия 15 вычислительная математика и кибернетика», «Успехи математических наук» jurnallarında çap olunub. 1987-ci ildə onun «Некоторые вопросы математической теории оптимальных процессов в системах с запаздываниями» adlı dərs vəsaiti işıq üzü görüb. 1989-cu ilin iyununda Kiyev şəhərində Riyaziyyat İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib.

Misir Mərdanov 1989-cu ilin iyun ayından elmi-pedaqoji fəaliyyətlə yanaşı, təhsilin idarə olunması işində fəal iştirak edir. Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyində Ali Təhsil İdarəsinin rəisi və təhsil nazirinin müavini (1989–1992), Bakı Dövlət Universitetinin tədris işləri üzrə prorektoru (1992–1996), Bakı Dövlət Universitetinin rektoru (1997–1998) kimi məsul vəzifələrdə çalışıb.

1998-ci ilin martında Prezident Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının təhsil naziri vəzifəsinə təyin olunub. Azərbaycanda təhsil sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsi Misir Mərdanovun təhsil naziri kimi fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Məhz onun təhsil sisteminə rəhbərliyi dövründə təhsil sektorunun bütün sahələrində islahatlara başlanılıb və əhəmiyyətli işlər görülüb.

Misir Mərdanov Prezident Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə yaradılan Təhsil Sahəsində İslahatlar üzrə Dövlət

Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüş (2003)





Azərbaycan
müəllimlərinin
XII qurultayı (2003)



Avropa Şurasının Baş
katibi Valter Şvimmerlə
görüş (2003)

YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə təhsil sahəsində əməkdaşlığa dair memorandumun imzalanma mərasimi (2005)




Avropa ölkələri təhsil nazirlərinin Norveçin Bergen şəhərində keçirilmiş konfransının iştirakçıları arasında (2005)





Heydər Əliyev Fondunda görüş (2006)

Komissiyasının sədri kimi, Azərbaycanın təhsil tarixində ilk dəfə olaraq «Azərbaycan Respublikasının təhsili sahəsində islahat proqramı»nın hazırlanmasına bilavasitə rəhbərlik edib. Proqram hazırlanarkən təhsil sahəsində bu günə qədər qazanılmış nailiyyətlər, mütərəqqi ənənələr əsas götürülüb, eyni zamanda dünyanın inkişaf etmiş ölkələrinin təhsil sahəsində təcrübəsindən – ümumbəşəri dəyərlərdən istifadə olunub. Bununla da ölkədə təhsilin inkişaf strategiyası müəyyənləşdirilib.

1999-cu ildən etibarən Azərbaycanda təhsil islahatları Dünya Bankının maliyyə dəstəyi ilə daha intensiv həyata keçirilməyə başlanılıb.

**Ölkənin təhsil tarixində ilk dəfə olaraq yeni Milli Kurikulum – Milli Təhsil Konsepsiyası sənədi hazırlanıb**

Ölkənin təhsil tarixində ilk dəfə olaraq yeni Milli Kurikulum – Milli Təhsil Konsepsiyası sənədi hazırlanıb. Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş bu sənəd əsasında



Azərbaycanla Latviya arasında təhsillə bağlı sənədin imzalanma mərasimi (2006)

**2005-ci ildən etibarən təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edən informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqinə başlanılıb**

**Son illərdə 2000-dən çox müasir tipli məktəb binası tikilib və əsaslı təmir edilib, məktəblərin maddi-texniki təminatında irəliyə doğru ciddi addımlar atılıb, ali təhsil müəssisələrinin Avropa ali təhsil sisteminə inteqrasiyası istiqamətində bir sıra uğurlar qazanılıb**

ibtidai siniflər və ayrı-ayrı fənlər üzrə kurikulumlar hazırlanaraq, 2008–2009-cu ildə dərs ilindən tətbiq edilməyə başlanılıb. Bununla yanaşı, bu dövrdə dünya təcrübəsinə uyğun olaraq, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə ümumi təhsil sahəsində yeni sistem tətbiq edilib. Mövcud müəllim hazırlığı sistemində köklü dəyişikliklər olunub və yeni kurikulumlar əsasında müəllim hazırlığına başlanılıb.

2005-ci ildən etibarən təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edən informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqinə başlanılıb. Məhz bu dövrdə Azərbaycanın bütün ümumtəhsil məktəbləri kompyuterləşdirilib, ilk dəfə olaraq elektron tədris resurslarından istifadə edilib, təlim prosesində və idarəetmədə İKT-nin geniş tətbiq olunmasına başlanılıb.

Misir Mərdanovun təhsil naziri kimi fəaliyyətində ən əhəmiyyətli məqamlardan biri də yeni dərslik siyasətinin uğurla həyata keçirilməsidir. Ölkənin bütün ümumtəhsil məktəblərinin şagirdləri milli-mənəvi və bəşəri dəyərlərə uyğun, yüksək poliqrafik keyfiyyətlə hazırlanan və çap olunan dərsliklərlə pulsuz təmin olunurlar. Dərslik siyasətinə olduqca ciddi münasibətinin nəticəsidir ki, o, orta məktəblər üçün «Riyaziyyat», «Həndəsə», «Cəbr», «Cəbr və analizin başlanğıcı» dərsliklərinin həmmüəllifi kimi bu prosesdə yaxından iştirak edir.

Onun fəaliyyəti dövründə ölkənin təhsil müəssisələrinin maddi-texniki bazası hiss olunacaq dərəcədə möhkəmlənib, son illərdə 2000-dən çox müasir tipli məktəb binası tikilib və əsaslı təmir edilib, məktəblərin maddi-texniki təminatında irəliyə doğru ciddi addımlar atılıb, ali təhsil müəssisələrinin Avropa ali təhsil sisteminə inteqrasiyası istiqamətində bir sıra uğurlar qazanılıb.



Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII zirvə görüşündə sənədlərin imzalanma mərasimi (2006)



Azərbaycan Respublikasının Prezidenti yanında keçirilən müşavirədə çıxış edərkən (2006)



Baş nazir Artur
Rasizadə təhsil naziri
Misir Mərdanova
«Şöhrət» ordenini
təqdim edərkən (2006)



Qafqaz Universitetinin yeni tədris korpusunun təməlqoyma mərasimi (2007)
Şəkildə (soldan): 1. Əhməd Saniç – Qafqaz Universitetinin rektoru, 2. Zakir Fərəcov – Abşeron Rayon İcra Hakimiyyətinin başçısı, 4. Abdulla Gül – Türkiyə Respublikasının prezidenti, 5. Misir Mərdanov – təhsil naziri, 6. Abid Şərifov – Baş nazirin müavini, 7. Ənvər Özərən – «Çağ» Öyrətim İşlətmələri İdarə Heyətinin sədri



Təhsil naziri Misir Mərdanov və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Bakıdakı Anadolu liseyində (2007)



Parisdə Müqəddəs Senklu qəbiristanlığında Azərbaycan Demokratik Respublikasının qurucularından biri, görkəmli ictimai xadim Əlimərdan bəy Topçubaşovun məzarını ziyarət edərkən (2008)

Şəkildə (soldan): 1. Arif Mehdiyev – akademik, 2. Abel Məhərrəmov – BDU-nun rektoru, 3. Misir Mərdanov – təhsil naziri, 4. Vasim Məmmədəliyev – akademik

«XXI əsrdə təhsil yaradıcı şəxsiyyətlərin gözündə» mövzusunda keçirilmiş «dəyirmi masa» iştirakçıları (2008)

Şəkildə (soldan): 1. Fərhad Xəlilov – Rəssamlar İttifaqının sədri, 2. Firəngiz Əlizadə – Bəstəkarlar İttifaqının sədri, 3. Mahmud Kərimov – AMEA-nın prezidenti, 4. Anar – Yazıçılar Birliyinin sədri, 5. Fatma Abdullazadə – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Humanitar siyasət məsələləri şöbəsinin müdiri, 6. Misir Mərdanov – təhsil naziri, 7. İsmayıl Sadıqov – Nazirlər Kabinetinin şöbə müdiri, 8. Məleykə Abbaszadə – TQDK-nın sədri






Azərbaycan müəllimlərinin XIII qurultayı (2008)

«İlin ən yaxşı müəllimi» müsabiqəsinin qalibi olmuş Bakı müəllimlərinə diplomların təqdim edilməsi mərasimi (2008)





Bakıdakı Elitar gimnaziyanın əsaslı təmirdən sonra açılış mərasimi (2009)



Bakıdakı Elitar gimnaziya əsaslı təmirdən sonra (2009)




YUNESKO-nun Parisdə keçirilmiş konfransında çıxış edərkən (2009)



Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevlə Bakı Dövlət Universitetində (2010)



Bakıdakı 132-134 nömrəli təhsil kompleksinin əsaslı yenidənqurmadan sonra açılış mərasimi (2010)



Bakıdakı 132-134 nömrəli təhsil kompleksi əsaslı yenidənqurmadan sonra (2010)



Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakıda inşa olunmuş məktəb kompleksinin açılış mərasimi (2010)



Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakıda inşa olunmuş məktəb kompleksi (2010)



Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə Bakı Dövlət Universitetində (2011)

Misir Mərdanov fəal ictimai xadim kimi ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir. Onun elm sahəsindəki məhsuldar əməyi, ictimai fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib, 1999-cu ildə «Əməkdar elm xadimi» adına layiq görülüb, 2006-cı ildə «Şöhrət» ordeni ilə təltif olunub. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

**1999-cu ildə «Əməkdar elm xadimi» adına layiq görülüb, 2006-cı ildə «Şöhrət» ordeni ilə təltif olunub**

O, dərin elmi axtarışların bəhrəsi olan 15-dən artıq kitabın, 100-dən çox elmi məqalənin müəllifidir. Məhz onun birbaşa rəhbərliyi ilə ilk dəfə ölkənin təhsil tarixinə dair ciddi axtarışlar aparılıb, «Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918–1920)» (2003), «Azərbaycanın təhsil siyasəti» (2 cilddə, 2005), «Azərbaycan müəllimlərinin qurultayları. I–XII» (2008), «Azərbaycan müəllimlərinin XIII qurultayı» (2009) və digər kitablar işıq üzü görüb. Tarixi materiallar əsasında hazırlanmış bu kitablarda ayrı-ayrı dövrlərə aid materialların ilk dəfə toplu halında cəmləşdirilməsi Azərbaycan təhsil tarixinin mühüm bir hissəsinin əsaslı şəkildə öyrənilməsinə imkan verir.

**Onun təhsil sahəsinin inkişafına və bu istiqamətdə aparılan islahatlara həsr olunmuş kitabları elmi-nəzəri dəyərinə, tarixi əhəmiyyətinə, dərin məzmununa görə elmi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılanır**

Onun təhsil sahəsinin inkişafına və bu istiqamətdə aparılan islahatlara həsr olunmuş «Heydər Əliyev və Bakı Dövlət Universiteti» (1997–1998), «Azərbaycan təhsili islahat illərində» (2001), «Təhsil millətin gələcəyidir» (2002), «Azərbaycan Respublikasının dövlət rəmzləri» (2002), «Təhsil sistemində monitorinq və qiymətləndirmə» (2003), «Azərbaycan təhsili müstəqillik illərində» (2003), «Azərbaycan təhsili dünən, bugün, sabah» (2006), «Davamlı inkişaf və təhsil» (2007), «Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı, 2003–2008» (2008), «Azərbaycan təhsili yeni inkişaf mərhələsində»

(2009), «50 ən yaxşı məktəb, 100 ən yaxşı müəllim» (2009), «Azərbaycan təhsili: islahatların uğurlu nəticələri, 2009–2010-cu illər» (2010) kitabları elmi-nəzəri dəyərinə, tarixi əhəmiyyətinə, dərin məzmununa görə elmi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılanır ki, bu da bir alim kimi Misir Mərdanovun araşdırmalarının nə qədər geniş əhatə dairəsinə malik olduğunu ortaya qoyur. Geniş oxucu auditoriyası qazanmış bu kitablarda təhsil sahəsində həyata keçirilən dövlət siyasəti, müstəqillik illərində təhsil sektorunda aparılan əsaslı islahatların mahiyyəti, yeni məktəblərin tikintisi və əlavə tədris korpuslarının inşası ilə bağlı görülmüş işlər, dərsliklərlə təminat sahəsində atılan addımlar, ümummilli lider Heydər Əliyev və ölkə Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdikləri qayğı, bu diqqətin ifadəsi olan fərman və sərəncamlar, qanunlar, təltiflər və hökumət qərarları əksini tapıb.

Misir Mərdanov hazırda təhsil və tərbiyə ilə bağlı xalqımızın min illər boyu yaratdığı, zamanın yaddaşında həkk olunmuş, milli-mənəvi dəyərlərə çevrilmiş sərvətin mühüm bir hissəsini özündə ehtiva edən üçcildlik «Azərbaycanın təhsil tarixi» kitabı üzərində işləyir. İndiyə qədər tam şəkildə araşdırılmayan təhsil tariximizin müxtəlif dövrlərinin real faktlar əsasında əks olunduğu kitab bu sahədə ilk addım hesab olunur. Kitabın I cildində ən qədim dövrlərdən 1920-ci ilin 28 aprel işğalına kimi, II cildində sovet hakimiyyəti illərində (1920–1991), III cildində isə müstəqillik dövründə (1991–2010) təhsilin inkişaf mərhələləri təhlil edilir, Azərbaycan təhsil tarixinin sistemli şəkildə oxuculara çatdırılmasına təşəbbüs göstərilir. Tarixçi alimlər, ali məktəb tələbələri və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş bu kitab zəngin və maraqlı, həm də ziddiyyətli inkişaf yolu keçmiş təhsil tariximizin salnaməsidir.

## KİTAB HAZIRLANARKƏN AŞAĞIDAKI ŞƏXSLƏRİN MƏLUMAT VƏ ŞƏXSİ ARXİV MATERİALLARINDAN İSTİFADƏ OLUNUB:

| | |
|---|---|
| Misir Mərdanov | Azərbaycan Respublikasının təhsil naziri |
| Lidiya Rəsulova | Azərbaycan Respublikasının keçmiş təhsil naziri |
| Firidun Cəlilov | Azərbaycan Respublikasının keçmiş xalq təhsili naziri |
| Tofiq Hacıyev | Azərbaycan Respublikasının keçmiş xalq maarifi naziri |
| Ağalar Abbasbəyli | Azərbaycan Respublikasının keçmiş ali və orta ixtisas təhsili naziri |
| Sona İbrahimova | Azərbaycan Respublikasının xalq maarifi komissarı vəzifəsində işləmiş Mirzə İbrahimovun yaxın qohumu |
| Zemfira Mehdizadə | Azərbaycan Respublikasının xalq maarifi naziri vəzifəsində işləmiş Mehdi Mehdizadənin qızı |
| Tərlan Rəhimova | Azərbaycan Respublikasının xalq maarifi naziri vəzifəsində işləmiş Rəhim Rəhimovun qızı |
| Yusif Hüseynov | Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışmış Züleyxa Hüseynovanın qardaşı |
| Leyli Quliyeva | Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili naziri vəzifəsində çalışmış Danil Quliyevin qızı |
| Fuad Salamov | Azərbaycan Respublikasının xalq maarifi naziri vəzifəsində çalışmış Elmira Qafarovanın həyat yoldaşı |
| Asya Hacıyeva | Azərbaycan Respublikasının xalq maarifi naziri vəzifəsində çalışmış Kamran Rəhimovun həyat yoldaşı |
| Simuzər Feyzullayeva | Azərbaycan Respublikasının xalq təhsili naziri vəzifəsində çalışmış Rafiq Feyzullayevin qızı |
| Lalə Allahverdiyeva | Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışmış Tofiq Allahverdiyevin qızı |
| Samir İsayev | Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsində çalışmış Heydər İsayevin oğlu |

### Digər mənbələr:

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin siyasi sənədlər arxivi

Azərbaycan Respublikasının Dövlət Arxivi

Azərbaycan Respublikası Təhsil Nazirliyinin arxivi

Təhsil Muzeyinin materialları

«Azərbaycan müəllimi» qəzetinin arxiv materialları

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Eksiklopediyası. III cild. Bakı, 1979. – 598 s.
2. «Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri» beynəlxalq elmi sessiyasının materialları. Bakı, 2003.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı, 2004.
4. Baxşəliyev A. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI–XVII yüzilliklər). Bakı, «Elm», 2003, – 181 s.
5. Azərbaycan müəllimlərinin qurultayları. I–XII. Bakı, «Çaşıoğlu», 2007, – 783 s.
6. «Azərbaycanda sovet hakimiyyəti uğrunda fəal mübarizlər». Bakı, «Azərnəşr», 1958.
7. Ziya Bünyadov. Qırmızı terror. Bakı, «Azərnəşr», 1993.
8. Mədətov Q. Ruhulla Axundov. Bakı, 1957.
9. Azərbaycan sovet ədəbiyyatı (ali məktəblər üçün dərslik). Bakı, «Maarif», 1966.
10. Akademik Mehdi Mehdizadə ömrünün işığı. Bakı, «Şərq-Qərb», 1998, – 237 s.
11. Bir ömrün səhifələri. Bakı, «Qapp-Poliqraf» korporasiyası, 2002.
12. Ərəb və fars sözləri lüğəti. Bakı, «Yazıçı», 1985, – 1037 s.
13. Əliyev M., «Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918–1920)». Bakı, 1990.
14. Dadaşzadə M.A., Xəlilov P. Ədəbiyyat (dərslik). Bakı, «Maarif», 1987, – 234 s.
15. Краткий словарь иностранных слов. Москва, Госуд. изд. иностран. и национ. словарей, 1951.
16. «Azərbaycan məktəbi» jurnalı.
17. «Gəncə» jurnalı.
18. «Azərbaycan müəllimi» qəzeti.
19. «Azərbaycan» qəzeti.
20. «Təhsil» qəzeti.
21. «Kommunist» qəzeti.
22. «Günay» qəzeti.
23. «Leninçi» qəzeti (Dərbənddə çıxan).
24. Газета «Азербайджан» .
25. «Молодежь Азербайджана» qəzeti.
26. «Бакинский рабочий» qəzeti.

# M Ü N D Ə R İ C A T


Ön söz ........ 12

**Azərbaycanın xalq maarifi və dini etiqad nazirləri**

NƏSİB BƏY YUSİF BƏY OĞLU YUSİFBƏYLİ ........ 34
RƏŞİD XAN ZAVİD OĞLU QAPLANOV ........ 40
HƏMİD AĞA XƏLİL OĞLU ŞAHTAXTİNSKİ ........ 46
NURMƏHƏMMƏD BƏY ƏDİLXAN OĞLU ŞAHSUVAROV ........ 50

**Azərbaycanın xalq maarifi komissarları**

DADAŞ XOCA OĞLU BÜNYADZADƏ ........ 54
MUSTAFA ZƏKƏRİYYƏ OĞLU QULİYEV ........ 58
RUHULLA ƏLİ OĞLU AXUNDOV ........ 62
MAQSUD MƏMMƏD OĞLU MƏMMƏDOV ........ 66
AĞA İSMAYIL OĞLU SULTANOV ........ 70
MAHMUD SƏFƏR OĞLU AĞAYEV ........ 72
MƏMMƏD İSMAYIL OĞLU CUVARLİNSKİ (CUVARLI) ........ 74
MÜSEYİB ƏLİ OĞLU ŞAHBAZOV ........ 78
MƏMMƏDSADIQ ƏHMƏD OĞLU ƏFƏNDİYEV ........ 82
MİRZƏ RƏHİM OĞLU MƏMMƏDOV ........ 84
MİRZƏ ƏJDƏR OĞLU İBRAHİMOV ........ 88
MƏMMƏD HƏMİD OĞLU ƏLƏKBƏROV (ƏLƏKBƏRLİ) ........ 94

**Azərbaycanın xalq maarifi nazirləri**

MEHDİ MƏMMƏD OĞLU MEHDİZADƏ ........ 98
RƏHİM KƏRƏM OĞLU RƏHİMOV ........ 106
ELMİRA MİKAYIL QIZI QAFAROVA ........ 110
KAMRAN NƏBİ OĞLU RƏHİMOV ........ 116
TOFİQ İSMAYIL OĞLU HACIYEV ........ 122

**Azərbaycan Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədrləri**

ƏKBƏR ƏSGƏR OĞLU ƏNNAĞIYEV ........ 128
MUSA İSGƏNDƏR OĞLU AĞAYEV ........ 132
TOFİQ ƏLİHEYDƏR OĞLU ALLAHVERDİYEV ........ 134
HEYDƏR İSA OĞLU İSAYEV ........ 140

**Azərbaycanın Ali və Orta İxtisas Təhsili Komitəsinin sədrləri**

ŞİRƏLİ NƏSİR OĞLU MƏMMƏDOV (NƏSİRZADƏ) ........ 146
ABDULLA İSMAYIL OĞLU QARAYEV ........ 152

**Azərbaycanın ali və orta ixtisas təhsili nazirləri**

ZÜLEYXA İSMAYIL QIZI HÜSEYNOVA ........ 164
DANİL PİRİ OĞLU QULİYEV ........ 168
QURBAN HƏSƏN OĞLU ƏLİYEV ........ 176
AĞALAR NƏRİMAN OĞLU ABBASBƏYLİ ........ 188

**Azərbaycanın xalq təhsili nazirləri**

MÜSLÜM RƏCƏB OĞLU MƏMMƏDOV ........ 194
RAFİQ BABAŞ OĞLU FEYZULLAYEV ........ 196
FİRİDUN AĞASI OĞLU CƏLİLOV ........ 204

**Azərbaycan Respublikasının təhsil nazirləri**

LİDİYA XUDAT QIZI RƏSULOVA ........ 210
MİSİR CUMAYIL OĞLU MƏRDANOV ........ 216

İstifadə olunmuş ədəbiyyat ........ 239